Azərbaycan Milli Elmlər Akademiyası
Hüseyn Cavidin Ev Muzeyi

“HÜSEYN CAVİD ƏBƏDİYYƏTİ”

mövzusunda

II respublika elmi konfransının

M A T E R İ A L L A R I

Konfrans böyük Azərbaycan şairi və dramaturqu
Hüseyn Cavidin anadan olmasının
138-ci ildönümü münasibəti ilə keçirilir.

Bakı, 26 oktyabr 2020-ci il

Azərbaycan Milli Elmlər Akademiyası
Hüseyn Cavidin Ev Muzeyinin Elmi Şurasının
21 oktyabr 2020-ci tarixli 6 №-li iclasının qərarı ilə nəşr edilir.

Redaktor:
Gülbəniz Babaxanlı
Əməkdar mədəniyyət işçisi,
filologiya üzrə elmlər doktoru

"Hüseyn Cavid əbədiyyəti" mövzusunda II respublika elmi konfransının materialları, Bakı, 26 oktyabr 2020, 100 səh.

Topluda görkəmli şair və dramaturq Hüseyn Cavidin həyat-yaradıcılığının öyrənilməsi və tədrisi, əsərlərinin tədqiq, nəşr, tərcümə və səhnələşdirmə tarixi, incəsənətdə Cavid obrazının əbədiləşdirilməsi, Cavid və cavidşünaslığın beynəlxalq aləmdə təbliği və s. haqqında aparılan araşdırmaların nəticələrini əhatə edən məruzələrin tam mətni dərc olunub.

© AMEA Hüseyn Cavidin Ev Muzeyi, 2020

Gülbəniz Babaxanlı
AMEA Hüseyn Cavidin Ev Muzeyi
filologiya üzrə elmlər doktoru
Əməkdar mədəniyyət işçisi
huseinjavid@gmail.com

YAŞAR QARAYEV VƏ CAVİD ROMANTİZMİ

Hüseyn Cavid yaradıcılığının, onun fəlsəfi, estetik, bədii dünyasının və romantizminin ən mötəbər tədqiqatçılarından biri də görkəmli tənqidçi-ədəbiyyatşünas Yaşar Qarayevdir. Onun Hüseyn Cavid romantizmi ilə bağlı fikir və mülahizələri xüsusən diqqətəlayiqdir.

Yaşar Qarayev "Tarix: yaxından və uzaqdan" monoqrafiyasında Hüseyn Cavidlə bağlı fəsli "Romantizmin Cavid yaddaşı" adlandırmışdır. Elə bu adın özü mövzunun məna və mahiyyətini, müəllifin Cavidə hansı prizmadan yanaşma metodunu müəyyənləşdirir. O, H.Caviddən dünənin, keçmişin sənətkarı kimi deyil, öz bədii irsi ilə bu günün həqiqətlərini təcəssüm etdirən müasir şair-dramaturq və filosof kimi söhbət açır. Alim yazır: "Üç böyük tarixi mərhələnin (rus, türk, İran inqilabları, Oktyabr və Aprel çevrilişləri, sovet sayağı sosializm dövrləri) narahat sənətkarı olan Cavid öz əbədi tanrı, harmoniya və həqiqət axtarışları ilə birlikdə bizim epoxamıza da daxil olur və azad, müstəqil, suveren milli şüuru bu gün yenidən düşündürməkdə davam edir. Əsrin əvvəlinin-inqilab və intibah dövrünün bədii düşüncəsi və fəlsəfi ovqatı olan bu şeir bir də ona görə indii də bu qədər müasir səslənə bilir ki, məhz əsrin sonunda tarix əsrin əvvəlinə sanki yenidən qayıdır və bizi də Cavidə yenidən qaytarır. Ehkam və həqiqət, xeyir və şər, xaos və harmoniya, müharibə, əbədiyyət və ölüm, İblis, Allah, mələk, planet, kainat miqyası və ölçüləri müasirimizi dərindən narahat etməyə başlayır və o, "əbədi suallara" cavabları yenə də ən yeni çağdaş bədii prosesdə yox, Cavidin irsində tapır" (1, s. 316.)

Yaşar Qarayevin H.Cavid yaradıcılığını dolğun şəkildə, elmi-nəzəri aspektdə əks etdirən bir çox məqalələri vardır ki, bu yazılarda H.Cavid romantizmi təkcə milli ədəbi hadisə kimi deyil, həm də ümumbəşəri reallıq kimi: dünya və Şərq romantizmi kontekstində izlənilir. Bu baxımdan görkəmli tənqidçinin "Sənətkar və tarix", "Hüseyn Cavid" məqalələri onun H.Cavid yaradıcılığı ilə bağlı orijinal mülahizələrini əks etdirir. "Sənətkar və tarix" məqaləsi Hüseyn Cavid yaradıcılığını, onun romantik dünyasını duymaq və dərk etmək üçün sanballı bir monoqrafiyanın və ya doktorluq dissertasiyasının verə biləcəyi elmi-nəzəri təsəvvürü ümumiləşmiş halda özündə əks etdirir. H. Cavid sənəti bu yazıda mili ədəbi ölçüləri və meyarları ötüb keçir. Məqalədən oxuyuruq: "Cavidin

böyüklüyü əslində, insanla və cəmiyyətlə ünsiyyətin dərinlik və böyüklük ölçülərindədir. Cavid romantikasının həyat rişələri həmişə adi seyrçilikdən uzaq bir yüksəklikdə və dərinlikdədir. Ən qabarıq, zahiri konfliktləri o şəxsiyyətin "iç qatına", daxili ehtirasların aynasına keçirir, xalis mili problemləri də qlobal bəşəri məna və sənət miqyaslarına qaldıra bilir. Firdovsi, Xəyyam və Faust mövzuları da, İblis (Mefistofel, Lüssifer, Demon) miqyaslı və vüsətli simvollar da Cavidə məhz həyatla və həqiqətlə ünsiyyətin sərhədlərini böyütmək, dünyanı və insanı tamlıqda, vəhdətdə dərk etmək üçün lazıfm olmuşdur" (2, s. 109.).

Yaşar Qarayev H.Cavidi Şərq romantizmini yaradanlardan biri hesab edir. H. Cavid və onun təmsil etdiyi ədəbi məktəbdə Y.Qarayevin fikrincə, XX əsrin, inqilabi dövrün bədii düşüncəsi və fəlsəfi ovqatı əks olunur. Cavid romantik şair kimi "Yerə enməm də, səma şairiyəm" deyirdi, - bu məşhur bəyənatda H. Cavid öz ayağını torpaqdan üzdüyünü elan etmir, bəlkə əksinə, torpağı da, insanı da səmaya qaldırmağı və sonra yüksəkdə-zirvədə nəzər salıb qiymət verməyi bir sənət prinsipi kimi irəli sürürdü.

Yaşar Qarayevin adı çəkilən məqaləsində qaldırılan problemlərə diqqət yetirək: H.Cavid həmişə müasirdir, onun bizimlə daha böyük müasirliyi ideya-amal müasirliyidir; H.Cavıid klassik mili şeirin ən yaxşı ənənələri ilə yeni dövrün bədii və fəlsəfi axtarışları arasında klassik vəhdəti yaradan sənətkardır; H.Cavid hər şeydən əvvəl, fəlsəfi poeziya və məhəbbət şairidir. Klassik Azərbaycan lirikasının Şərqdəki nüfuzunu və vüsətini XX əsrdə də qorüyan bir lirikdir; H.Cavid ilk növbədə böyük bir novatordur. Onun bədii islahatlarından sonra klassik romantik şeirin üslub modeli və problem tərkibi dəyişir; Cavidin məhəbbət lirikasını Füzulidən fərqləndirən həm bədii forma, həm də ideya-fikir əlamətləridir.

Alimin irəli sürdüyü fikirləri tezislər şəklində belə ümumiləşdirmək olar:

XX əsrin ilk iki on ilinin fəlsəfi lirikası bizim klassik mili şeirin təbii davamı olmaqla bərabər, həm də tamamilə yeni mərhələsi idi. Füzuli ənənəsi Hüseyn Cavidlə də öz təkrarsız, bənzərsiz bədii ədası və fəlsəfi mənası ilə meydana çıxır. Füzuli deyirdi: "Mən aşiqəm, həmişə sözüm aşiqanədir". XX əsrin yeni romantizmində bu hökm məhz Hüseyn Cavid tərəfindən təzələnmişdir: "Mənim tanrım gözəllikdir, sevgidir".

Hüseyn Cavid təbiətlə və folklorla bağlı sənətkar idi. H. Cavidi klassik romantizmdən ayıran və bu poeziyada XX əsri ifadə edən bədii-estetik xüsusiyyətlər məhz təbiətlə bağlılığında idi. H.Cavid şeirində canlı həyatın, təbii gözəlliklərin, bədii düşüncələrin və mənəvi mübarizələrin özünün musiqisi, ahəngi və ləngəri eşidilir. Klassik əruzun bütün bəhrlərini, hecanın bütün məlum vəzn və biçimlərini mənimsəyən H.Cavid hər iki vəznə sərbəst bir ahəng və nəfəs gətirir.

Dövrün ictimai yaralarına, mənəvi və dini-əxlaqi bəlalarına fəlsəfi etiraz və üsyan Cavidin mənzum və romantik dramaturgiyasının da məziyyəti olaraq qalır. "Ana", "Maral", "Şeyx Sənan",

"Uçurum" kimi əsərlərlə bizim mili səhnədə tamamilə yeni üslubun-mənzum və romantik teatrın təməl daşları qoyulurdu. Poeziyadan poetik dramaturgiyaya keçid H.Cavid yaradıcılığında qanunauyğun bir hadisə idi: poema ilə yanaşı, mənzum dram dünya romantizm ədəbiyyatı üçün səciyyəvi janrdır.

Qısaca xülasə etdiyimiz bu mülahizələrdən sonra Yaşar Qarayev H.Cavidin ayrı-ayrı dramları haqqında söz açır. Onun "Peyğəmbər" pyesi barədə irəli sürdüyü müddəalar çox maraqlıdır. Belə ki, Yaşar Qarayev "Peyğəmbər" mövzusunu hər hansı "inqilab" anlayışından və təsəvvüründən tamamilə və axıra kimi kənar etməyi doğru hesab eləmir. Onun fikrincə, "Peyğəmbər"də qaldırılan problemlər o dövrdə H. Cavidin gözü qarşısında bütün Yaxın Şərqdə baş verən inqilabların həll etməli olduğu məsələlər idi. "Bu mənada "Peyğəmbər"- məhz inqilab probleminə bir reaksiya idi; əsas mövzusu "inqilab", əsas qəhrəmanı "inqilab rəhbəri" olan bir dram idi" (2, s. 131).

Amma hər halda Yaşar Qarayevin bu fikri müəyyən mənada mübahisəlidir. Belə ki, o yazır: "Cavid yaradıcılığında inqilab tematikasına "Azər"dən əvvəlki böyük reaksiya "Peyğəmbər" idi. O, Cavidi İnqilab, Oktyabr və Lenin mövzusuna yadlaşdıran yox, yaxınlaşdıran əsər kimi doğulmuşdu" (2, s. 132).

Yaşar Qarayev H.Cavidin "İblis", "Şeyx Sənan" və "Peyğəmbər" pyesləri arasında tam bir dialoq, vəhdət və fəlsəfi simmetriya əlaqəsi görür, "Topal Teymur"u bu üçlüyün davamı hesab edir. "Şeyx Sənan"da yalnız "Peyğəmbər" yox, "İblis" mövzusunun da gizləndiyini qeyd edir. "Dərgahdan qovulan asi İblis, Quranın üzünə "ağ olan" asi Sənan, ruhunda inkar və şübhə cövhəri daşıyan Divanə, Şeyx Kəbir, Dərviş, Arif…sonralar Xəyyam - bunlar hamısı bizim milli poeziyada və dramaturgiyada romantik bədii fəlsəfənin - Faust problematikasının obrazları və qəhrəmanları idilər" (2, s. 133).

Yaşar Qarayevin "Hüseyn Cavid" məqaləsi böyük sənətkarın "Şeyx Sənan", "İblis", "Şeyda", "Afət", "Peyğəmbər", "Topal Teymur", "Səyavuş", "Xəyyam" pyeslərinin təhlilinə həsr olunub. Görkəmli tənqidçinin H.Cavidin hər bir pyesinə xüsusi yanaşma tərzi, əsas problemin nədən ibarət olduğunu müəyyənləşdirmək səyi təhlilin aparıcı xəttini təşkil edir.

"Şeyx Sənan"ı "eşqin qüdsiyyəti haqqında mahnı, lirik, şairanə bir nəğmə" adlandıran Y.Qarayev Azərbaycan ədəbiyyatında məhəbbət mövzusunun tarixinə müraciət edir. Nizaminin "Xosrov və Şirin" poemasını bu "böyük mahnı"nın ilk, kamil nümunəsi hesab edir. Lakin "Şeyx Sənan"da həmin mövzu "eşqin dini etiqad üzərində təntənəsi" kimi mənalanır. Şeyx Sənan böyük bir filosof, din və təriqət başçısıdır. Ancaq onun ruhu azad deyil. İslamın böyük mücahidi dərin daxili burulğanlardan, mənəvi fırtınalardan keçir, Şeyx və mütəfəkkir Sənan aşiq-insana çevrilir. Amma Sənanın əl çəkdiyi din yalnız İslam dini deyildir. O, insan səadətini əlindən alan, onun mənəviyyatını doqmalara tapındıran bütün dinlərə, adət-ənənələrə qarşı üsyan edir. Cavidin bu pyesdə böyük sənətkar qüdrəti hiss olunur, Y.Qarayev əsərin dilinin, vəzninin lirik bir mahnı qədər səlis olduğunu,

personavjların çoxluğuna, hadisələrin çoxplanlılığına baxmayaraq, dramatik quruluş nöqteyi-nəzərindən incə tərtibi ilə diqqəti cəlb etdiyini nəzərə çarpdırır.

"İblis" faciəsindən söz açanda Y.Qarayev H.Cavid haqqında keçən əsrin iyirminci-otuzuncu illərində tez-tez təkrarlanan bir fikri, daha doğrusu, ittihamı etirazla qarşıflayır: "Vaxtilə Cavidi qınayırdılar ki, o, mili-Azərbaycan mövzularına müraciət eləmir, "kənar mövzulara" üz tutur. Lakin burada bir cəhəti nəzərdə tutmaq vacibdir. Bu "kənar mövzular" əslində, bizim poeziyaya doğma olan Şərq mövzuları idi. Cavidlə bizim dramaturgiyaya bir tərəfdən də Şərq daxil olurdu" (3, s. 7).

Y.Qarayev H.Cavidin faciələrində bədii obrazlar sistemini də nəzərdən qaçırmır. Bu mövzu cavidşünaslıqda o qədər də işlənməmişdir. H.Cavidin adları çəkilən pyeslərində iblislərin, mələklərin, ölülərin və kabusların görünməsi, cəhənnəm sədasının, cənnət səsləriin eşidilməsi təsadüfi deyil. Dantedən Miltona, Höteyə, Bayrona, Lermontova, Haqverdiyevə qədər bu ünsürlər bədii ədəbiyyatda, xüsusilə dramaturji əsərlərdə mövcud olmuş və işlənmişdir. Amma məsələ bu ünsürlərdən necə və nə məqsədlə istifadə olunmasındadır. Y.Qarayev "İblis" əsərində İblis surətinin təsviri ilə bağlı H.Cavidin demək istədiyi bir həqiqəti belə ifadə edir: İnsan öz səadətinin səbəbi olduğu kimi, öz fəlakətinin də səbəbidir. İnsan şərarətinin səbəbini insandan kənarda, göylərdə, İblisdə axtarmaq mənasızdır. Şeyx Sənanın təsvir edilən yuxusu və gözünə görünən xəyalların səhnədə görünməsi də təbiidir. Çünk bunlar, Y.Qarayevin fikrincə, psixoloji cəhətdən əsaslandırılır.

Nə üçün H.Cavid belə üsullardan istifadə edirdi? Çünki romantik faciədə simvolik obrazlara meyl insanın daxili aləminin daha çox canlandırılması ilə bağlı idi. Bu baxımdan "İblis" əsəri H. Cavid üçün çox mühüm əhəmiyyət kəsb edirdi. H. Cavidin "İblis"i müharibə mövzusunda yazılmış ilk fəlsəfi-psixoloji əsər idi. O zaman bu mövzuda hərbi-utopik romanlar, himnlər, marşlar yazılırdı, hətta Azərbaycanda da belə əsərlər az deyildi. Belə bir dövrdə, Y.Qarayevin doğru qeyd etdiyi kimi, Hüseyn Cavid öz müharibə faciəsinin qəhrəmanı kimi İblisi seçir. İblis qorxunc və məğrur bir allah rəqibidir, heç bir nüfuz və müqəddəslik tanımır. İnsanın aciz və gücsüz olmağı onu sevindirir.

"İblis-bizim dramatik poeziyada klassik simvolik bir surətdir. Öz bədii qüdrətilə o, - Lüssifer, Demon, Mefistofel kimi tipləri ilə yanaşı durur. M.Lermontovun Demonundan sonra H.Cavidin iblisi demonizm poeziyasında sonuncu qüvvətli iblisdir" (3, s. 85.)

Məqalədə H.Cavidin "Səyavuş", "Knyaz" və "Xəyyam" pyesləri haqqında da söz açılır. Y.Qarayev "Knyaz" pyesini Cavid dramaturgiyasında yeni bir hadisə hesab edir. O zaman görkəmli tənqidçi Mustafa Quliyev "Knyaz" əsərinin meydana çıxmasını "Nəhayət, Azərbaycan şairi Hüseyn Cavid bizim inqilab qatarımıza oturdu" - deyə mənalandırmışdı. Y.Qarayev də təxminən həmin fikirdədir. Amma müəllif "Xəyyam" əsərini "Şeyx Sənan" ideyalarının davamı kimi qiymətləndirməkdə də haqlı görünür. Alimin fikrincə, Xəyyam mövzusu bütün yaradıcılığı və ideya ruhu ilə dini təəssübkeşlik və mövhumat əleyhinə olmuş H.Cavid qələmi üçün doğma idi.

Yaşar Qarayev Hüseyn Cavid yaradıcılığı ilə bağlı dəyərli fikir və mülahizələrini bir konsepsiya halında "Romantizmin Cavid yaddaşı" adlı sanballı tədqiqatında ifadə etmişdir ki, bu yazı müəllifin "Tarix: yaxından və uzaqdan" monoqrafiyasında öz əksini tapır. Bu yazıdakı bir çox mülahizələrə Y.Qarayevin haqqında söz açdığımız məqalələrində də təsadüf edirik.

Y.Qarayev H.Cavid romantizmini orta əsrlərin romantikasından fərqləndirir. "Ümumi məhəbbət" ideyasının – bütün klassik ədəbiyyatda səslənən bu ideyanın H.Caviddə passiv məna daşımadığını qeyd edir, lakin bu ideya hər yerdə və həmişə şairin "mübarizəyə çağırış" ehtirası ilə bir yerdədir. Burada heç bir uyğunsuzluq yoxdur. Y.Qarayevin fikrincə, H.Cavid "ümumi məhəbbət"ə fərdi "daxili təkamül" yolu ilə yox, həyatda birlik və cəmiyyətdə mübarizə yolu ilə nail olmsağa çağırırdı.

Y.Qarayev göstərir ki, H.Cavid heç vaxt bədbin şair olmamışdır. Çünki o, insanı təbiətin ünsürü, "zərrəsi" kimi yox, şah əsəri kimi təsvir edir. H. Cavidin rəhbər tutduğu poetik naturfəlsəfənin əsasında İnsanı təbiətlə və Dünya ilə bağlayan birlik dayanır. Elə buna görə də onun əsərlərində həyat sevgisi bu qədər güclüdür.

Hüseyn Cavidi "mili şair" olmamaqda ittiham edənlər yanılırlar və Y.Qarayev bu ittihamın əsassız olduğunu sübut edir. H. Cavidin ərəb, fars, türk, ispan, gürcü, ləzgi, … libaslı qəhrəmanlarının daxilində H.Cavidin mənsub olduğu xalqın öz mili ruhunu, dilini və mənəviyyatını görürük.

Y.Qarayev doğru olaraq təsbit edir ki, Hüseyn Cavid ilk dəfə idi ki, İslama Peyğəmbər səviyyəsində fəlsəfi münasibət ifadə edir, onun obrazını elmi-publisistik traktatda yox, xalis bədii, özü də romantik əsərdə yaradır.

Y.Qarayevə görə, Hüseyn Cavid böyük türkçü və turançı idi. Onun yaradıcılığı türk-Azərbaycan ədəbi-bədii bağlarını əks etdirmək baxımından son dərəcə səciyyəvidir. "Onun pyeslərinin əksəriyyətində hadisələr türk-turan dünyasında cərəyan edir və qəhrəmanlar həmin dünyadan seçilmiş igid türk oğlan və qızlarıdır. Obrazlılıq, fəlsəfilik, üslub-ifadə baxımından da Hüseyn Cavidi romantik türk dramı ilə çox şey birləşdirir. Nəhayət, ümumtürk keçmişimizdə ən faciəli, ibrətli tarixi hadisələrə [obyektiv münasibət ifadə edən] "Topal Teymur" və "Səyavuş" faciələrini də Hüseyn Cavid qələmə alır!" (4, s. 351.)

Deyilənlərdən belə qənaətə gəlirik ki, görkəmli tənqidçi və ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycan Dövlət mükafatı laureatı, Azərbaycanın Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Yaşar Qarayev böyük şair və dramaturq Hüseyn Cavidin irsində romantizm ənənələrini yeni dövrdə tədqiq edən ən sanballı ədəbiyyatşünaslarımızdandır.

ƏDƏBİYYAT

1. Yaşar Qarayev. Tarix: yaxından və uzaqdan. Bakı, Sabah, 1996.
2. Yaşar Qarayev. Ədəbi üfüqlər, Bakı, Gənclik, 1985.
3. Yaşar Qarayev. Hüseyn Cavid // Cavidşünaslıq, I cild, Bakı, Elm, 2005.
4. Yaşar Qarayev. Tarix: yaxından və uzaqdan, Bakı, Sabah, 1996.

Gulbeniz Babakhanli

YASHAR QARAYEV AND JAVID'S ROMANTICISM

Yashar Qarayev is among our literary critics attracting attention with his very interesting and original consideration related with H.Javid' creativity and especially his romanticism. Javid's presentation as a romantic artist consistently reflected in his monography and articles, the objective analysis of romantic mood in his works, identified as a romantic hero of the characters in dramas, characterizes the scientist as one of those who studied the heritage of Javid dealing regualarly with these problems of modern literary criticism.

Əzizağa Nəcəfzadə
AMEA Hüseyn Cavidin Ev Muzeyi
filologiya üzrə fəlsəfə doktoru, dosent
azizaga.necefov@mail.ru

CAVİD LİRİKASINDA SÖZ TƏKRARI

Böyük şair və dramaturq Hüseyn Cavid Azərbaycan ədəbiyyatı tarixində həm də incə ruhlu lirik, romantik sənətkar kimi də şöhrət qazanmışdır. Bədii yaradıcılığa şeirlə başlayan ədib lirikasında klassik şeir ənənələri ilə xalq ədəbiyyatının mühüm özəllikləri üzvi şəkildə birləşdirərək ümumtürk ədəbiyyatının ən gözəl nümunələri yarada bilmişdir. Onun şeirlərinə nəzər saldıqda klassiklərin əsərlərindən bilavasitə təsiri açıq sezmək olmasa da, Azərbaycan və Türkiyə ədəbiyyatının tanınmış simalarının əsərlərinin üzvi sintezindən doğan yeni bir yol görmək olur. Cavid lirikası, Cavid üslubu XX əsr Azərbaycan ədəbiyyat üçün yenidir, emosiyaların orijinallığı ilə seçilən ifadə tərzidir. Onun lirikasında xüsusi pafos var. Bu pafos ideyanın daha kamil ifadəsinə xidmət edir, Cavidin şeirlərini başqa şairlərin əsərlərindən fərqləndirir. Belə demək mümkünsə, onun fərdi üslubunu müəyyən edir. Bu pafosu şərtləndirən əsas poetik vasitələrdən biri də təkrirdir. Bu poetik fiqur Cavid şeirlərinə həm vizual, həm də akustik gözəllik bəxş edir. Onun ahəngdar səslənməsinə, yadda qalan olmasınsa səbəb olur. Qeyd edək ki, Cavidin əsərlərindəki təkrar təkcə musiqililiyə xidmət etmir, həm də misralardakı hökmün, mənanın daha bariz şəkildə ifadəsinə, adresata daha aydın çatmasına xidmət edir.

Hüseyn Cavidin lirik əsərlərində təkririn bir neçə növü ilə qarşılaşırıq. Onlardan ən çox istifadə olunanı eyni sözün və ya ifadənin ardıcıl təkrarıdır. Bu təkrir qeyd etdiyimiz kimi xalq dilindən gəlmə ünsür olub, emosional münasibətin ifadəsinə xidmət edir və daha çox israr, təkid məqsədi ilə işlədilir. Xalq dilində bu məqamda əksər hallarda "vay, vay, vay", "ay, ay, ay", "can, can" və s. kimi nidaların, "hə, hə", "yox, yox" və s. kimi təsdiq və inkar ədatlarının işləndiyini görürüksə, Cavid üslubunda bu vəzifəni həm feil, isim, sifət kimi əsas, həm də ədat kimi köməkçi nitq hissələri yerinə yetirir. Nümunələrə baxaq.

Feil təkrir mövqeyində:

Verin!.. Verin də, əvət, susdurun şu fəryadı,
Aman! Əsirgəməyin mərhəmətlə imdadı.
Verin! Verin!.. Gözü yollarda bir yığın bəşərin,
Nə heyrət, ah! Əsərsizmi bunca ahü ənin!? (I, 92)

Yaxud,

Qoşar, qoşar da arar bir şerareyi-iman,

Arar zəlami-fəlakətdə şöleyi-vicdan (I, 93).

Eyni bənddə *müxtəlif nitq hissələri* təkrir mövqeyində:

Uçar, uçar, yenə ruhum diyari-hüznə qoşar;

Uzaq, uzaq, **çox uzaq** bir mühit içində yaşar.

Soğuq, soğuq!.. Gecə keçmiş, bütün cihan susmuş

Uzaqda inliyor ancaq zavallı bir bayquş. (I, 71)

Ədat təkrir mövqeyində:

Xayır, xayır… nə diyor baq ricali-bəzmara;

Siyasət ərləri gür-gür gürüldiyor hər an. (I, 72)

Təkririn **anafora** növündən də Cavid yaradıcılığında aktiv istifadə olunur. Şairin lirikaından bir çox nümunələrdə ayrı-ayrı sözlərin, ifadələrin, hətta cümlələrin ardıcıl gələn misralarda təkrarlandığına rast gəlirik. Bu da fikrin təsir qüvvəsini artırmağa yardım edən vasitələrdən biri kimi təzahür edir.

Ayrı-ayrı sözlərin ardıcıl gələn misraların əvvəlində təkrarlanması:

Gülər bəni-bəşərin duyğusuz səfillərinə,

Gülər həmiyyətə biganə səngdillərinə.

Gülər ədalətə, insafa, haqqa, vicdana,

Gülər həqayiqi-Incilə, hökmi-Qur'ana,

Qoşar zəlami-fəlakətdə ac, soluq, bihuş,

Qoşar ümidi-səadətlə müztərib, mədhuş. (I, 92).

Yaxud,

Hər qulun cahanda bir pənahı var,

Hər əhli-halın bir qibləgahı var,

Hər kəsin bir eşqi, bir allahı var,

Mənim tanrım gözəllikdir, sevgidir (I, 55).

İfadələrin ardıcıl gələn misraların əvvəlində təkrarlanması:

Azacık varsa, hissü vicdanın,

Kalk, oyan! Sönmemişse imanın.

Kalk, oyan! Gör ne fikre hadimsin?

Kimlerin oğlusan? Nesin? Kimsin? (I, 72)

Yaxud,

Qürubə qarşı dəniz səhneyi-lətafət olur.

Qürubə qarşı dəniz başqa bir qiyamət olur (I, 74).

Yaxud,

Yoq təbiətdə öylə bir qüvvət,
Əbədi, həm də paydar olsun.
Həp dəyişməkdədir bütün xilqət,
Həp dəyişməkdədir həyatü fünun.
Olmayan varmı inqilabə zəbun?
Varmı sarsılmaz öylə bir qanun?! (I, 96)

Yaxud,

Nədir şu qəhrü fəlakət? Nədir bu qəhtü qəla?
Nədir şu kinü ədavət, nədir bu dərdü bəla? (I, 71)

İfadələrin və sözlərin ardıcıl gələn misraların əvvəlində təkrarlanması:

Mərhəmətsizdir iştə köhnə fələk,
Bəşəriyyətlə əylənir daim.
Bəşəriyyətlə əylənir gülərək...
Dünkü məhkum olur bu gün hakim,
Dünkü bədbəxt olur bu gün məsud,
Dünkü məsud olur bu gün mərdud (I, 96).

Cümlənin ardıcıl gələn misraların əvvəlində təkrarlanması:

Mən nə idim? Şərqin əzilmiş qadını!
(Bir az sükut…)
Mən nə idim? Uf, onu heç sormayınız!
Varlığım bir quru heç! (I, 56)

Gətirilən nümunələrdən göründüyü kimi, Cavid lirikasında anafora məqamında daha çox *feil* iştirak edir. Feil də onun tətbiq edildiyi misranın məzmunundan asılı olaraq, feilin müxtəlif sadə şəkillərində işlənir. Yuxarıdakı nümunələrdən fərqli olaraq, Cavid şeirində eyni feil kökünün təkrir məqsədi ilə yanaşı işlənərkən müxtəlif şəkilçi qəbul etməsinin də şahidi oluruq.

Yakar, yıkar, əzilir, məhv olur, basar, basılır,
Vətən yolunda **ölür, öldürür, asar, asılır** (I, 71).

Cavidin şeirlərində bəzən eyni söz arasına digər söz və ifadələr daxil edilməklə təkrarlanır. Bu da şeirə xüsusi musiqi ahəngi əlavə edir. Nümunələrə nəzər yetirək:

Bahar, bahar gəlmiş, yenə ilk **bahar**;
Güllər, çiçəklər **gülər,** quşlar oynar (I, 44).

Yaxud,

Sevinin! Zurna, toy çalın, **sevinin,**

Nə gözəl bayram! Of, gülün, **sevinin! (**I, 54)

Yaxud,

Gözəl, hər halınız **gözəl**... Daima

Xəstə gönlüm oqşar sizi, alqışlar; (I, 59)

Cavid yaradıcılığında leksik təkrarın klassik Şərq ədəbiyyatı üçün xarakterik olan nümunələrinə də rast gəlirik. Bunlardan biri də **rəddül-əcz aləs-sadr** poetik fiqurudur ki, Cavid lirikasında onun müxtəlif növlərinə aid nümunələr seçə bildik.

Rəddül-əcz aləs-sadr (birinci beytin sonunun ikinci beytin əvvəlində işlədilməsi):

Qucaq-qucaq əritilmiş gümüş dənizdə **aqar;**

Aqar da dalğalanır, cəzb edərdi hər nəzəri (I, 75).

Rəddül-ibtida aləl-əcz (beytin ikinci misrasının ilk sözünün həmin misranın sonunda işlədilməsi):

Günəş dalıb gediyor; köşkü andıran gəmimiz

Uçar, uçar, qoca qartal qanatlarilə **uçar** (I, 74).

Bu poetik fiqurun təkrir ilə müvazi işləndiyini də görə bilərik. Məsələn:

Əsmə, dur! **Əsmə,** ey nəsimi-bahar!

Uyuyor, yari-işvəkar **uyuyor** (I, 87).

Rəddül-əcz aləs-sadr poetik fiqurunun klassik nəzəriyyə kitablarında təsbit olunmamış xüsusi şəkillərinə də Cavid lirikasında rast gəlinir. Fikrimizcə, bu, şairin öz tapıntısıdır. Məsələn, aşağıdakı nümunədə *birinci misranın ilk və orta sözünün növbəti misranın ortasında təkrarlandığını* görürük:

Oyan, ey piri-xoşdil! **Qalq,** ayıl bir xabi-rahətdən!

Qiyamətdir, qiyamət!.. **Qalq, oyan,** zevq al bu fürsətdən. (I, 77)

Başqa bir nümunədə isə *misranın əvvəlindəki sözün ortasında təkrarlandığını* müşahidə edirik:

Ayıl, ey şeyxi-vəcdavər! **Ayıl,** bax gör nə aləmdir?

Cahan sərməst olub rəqs eyliyor şövqü şətarətdən (I, 77).

Nümunələrdən də göründüyü kimi, Hüseyn Cavid lirikasını qulağayatımlı edən, ona xüsusi ahəngdarlıq bəxş edən ən mühüm vasitələrdən biri də təkrirlərdir. Şair söz, ifadə və cümlə təkrarından şeir vahidlərində eyni və ya ardıcıl gələn misralarda müxtəlif mövqedə istifadə edərək fikrin daha təsirli təqdiminə nail olur. Bu həmçinin Cavid şeirlərinin daha yaddaqalan olmasını təmin edir.

ƏDƏBİYYAT

1. Hüseyn Cavid. Əsərləri, Beş cilddə, I cild, Bakı: Lider, 2005, 256 səh.

Azizaqa Nadjafzade

THE WORD REPETITION IN JAVID'S LYRICS

There is a repeat one of the most important poetic means giving a special harmony to Husein Javid's lyrics. The poet uses from word, expression and sentence repetition in units of poetry in different positions in the same or consecutive verses. İn conclusion it achieves a more effective presentation of thought. To use of different types of repetition makes Javid's poems more memorable.

Mehriban Əsədullayeva (Quliyeva)
Naxçıvan Dövlət Universiteti
filologiya üzrə fəlsəfə doktoru, dosent
quliyeva.mehriban@list.ru

HÜSEYN CAVİD POEZİYA DİLİNİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

XX əsrin əvvəllərində şeir dili və üslubu yeni keyfiyyətlər qazanmış, canlı xalq dilinə, danışıq dilinə, eyni zamanda da klassik şeir dili ənənələrinə əsaslanaraq durmadan inkişaf edirdi. Naxçıvan ədəbi mühitinin görkəmli nümayəndəsi Hüseyn Cavid (1882-1941) Azərbaycan ədəbiyyatında bir-birindən yaddaqalan əsərlər bəxş etmişdir. Bənzərsiz əsərlərin müəllifi H.Cavid bədii ədəbiyyatımızı zinətləndirmiş, çoxcəhətli yaradıcılıq fəaliyyəti ilə XX əsrin əvvəllərinin görkəmli nümayəndələri sırasında yer almışdır. XX əsrin əvvəllərinin ümumi mənzərəsini geniş tədqiq edən İsa Həbibbəyli yazır: "Naxçıvanda milli məktəblərin genişləndirilməsi, teatrın inkişaf etdirməsi, ədəbiyyatın ön mövqeyə çıxa bilməsi sahəsində "Tərbiyə" məktəbinin yetirmələrinin müstəsna dərəcədə rolu və xidmətləri olmuşdur (s.126, 1). Hüseyn Cavid də həmin məktəbin yetirmələrindən biri olmuşdur. XX əsrin əvvəllərində tənqidi realistlər və mütərəqqi romantiklərin müxtəlif yaradıcılıq üsullarından istifadə etmələrinə baxmayaraq, onları birləşdirən çar Rusiyasının müstəmləkə siyasətinə qarşı mübarizə idi. Azər Turan XX əsrin əvvəllərində qələmi silaha çevirib mübarizə aparan aydınları xarakterizə edərək yazır: "XX yüzilin əvvəllərində gerçəkləşən "Azərbaycan dövrü" də əslində Əli bəy Hüseynzadənin və Cəlil Mmmədquluzadənin, Hadinin və Cavidin timsalında – onların hazırladığı ideoloji təməlin üzərində gerçəkləşmişdi" (s. 267, 2). Əsərlərindəki yüksək poeziyaya, nadir lirika və incə şeiriyyata, axıcı misralara, gözəl və gözlənməz qafiyələrə, mürəkkəb, bəzən də qəliz ifadələrə alışanlar elə bil həyatda, məişətdə onun mürəkkəb bir dillə, yaxud şeirlə, nəzmlə danışacağını gözləyirdilər. Amma o, ən sadə, ən adi bir tərzdə, hamının danışdığı və başa düşdüyü bir dildə, tamam müasir leksikonda danışır, şirinşirin söhbətlər eləyirdi (s. 549, 3).

Hüseyn Cavidin poetik ifadələrlə zəngin olan əsərləri təsirli, obrazlı və özünəməxsusluğu ilə seçilən bədii dildir. Cavidlər irsinin yorulmaz tədqiqatçısı Gülbəniz Babaxanlı Hüseyn Cavidin dil və üslubu haqqında yazır: "Cavidin əsərlərindəki dil və üslub xüsusiyyətləri ilə bağlı belə bir cəhəti də nəzərə çarpdırır ki, Cavid həm Azərbaycan əruzu, həm də heca vəznində Azərbaycan dilində dram əsərləri yaradılmasının mümkün olduğunu sübut etdi" (s. 22, 4).

H.Cavidin yaradıcılığının ilk illərində, 1913-cü il Tiflis şəhərində çap olunmuş "Keçmiş günlər" adlı kitabında cəm olunan şeirlərdə ərəb və fars sözləri və izafət tərkibləri ilə yanaşı mili

sözlərimizin fonunda zəngin leksika özünü göstərir. Böyük şairin yaradıcılığında atalar sözləri və misallar da öz bədii ifadəsini tapmışdır:

Gözəllərə baqmaq könül qidası,

Sən hiç tələş etmə, çıqmaz qavğası (s. 159, 5).

Xalq dilindən gələn ifadələrə yer verən şair "Gözələ baxmağın könül səfası var" atalar sözünü "gözəllərə baxmaq könül qidası" kimi səsləndirmişdir. Belə misallar Cavidin yaradıcılığında istənilən qədərdir:

Gözələ baxmaq savabdır

Gurlama, düşmanı küçük görənlər,

Küçük göstərənlər çoq sürməz inlər.

Dikbaşlar ansızın həp diz çökərlər,

Qaliblərə qarşı boyun bükərlər (s. 164, 5).

İbrətamiz ifadələrə yenidən qanad verən Cavdin şeirlərinin didaktik əhəmiyyətini artıran məhz budur. Şairin şeirlərində çoxlu sayda emosionallıq yaradan bədii təkrirlərdən istifadə olunmuşdur. Göyərçinin səmanın dəriniklərinə pərvazlanmıb uçmağını təsvir edərkən "uçar" təkririndən istifadə etmişdir:

Gövərçinim qanat açar,

Yüksək bulutlara uçar.

Rəqs edərək uçar, uçar,

Qayğı bilməz gövərçinim,

Enib gəlməz gövərçinim (s. 185, 5).

Hər baharın sonu matəmli xəzan,

Hər visalın sonu ıssız hicran.

Bir həqiqət deyə tapdıqlarımız

Yarın, əfsus, olacaq süslü yalan (s. 11, 5).

Cavidin şeirində dərin, ictimai, fəlsəfi, psixoloji mənası olan təzadlarda bir-birinə zidd iki fikir, fəlsəfi anlayış, bəzən də psixoloji hallar, təbiətdə və ya insan mənəviyyatındakı ziddiyyətlər qarşılaşdırılır. Bahar-xəzan, vüsal-hicran, həqiqət-yalan kimi əks mənalı sözlər nə qədər mükəmml şairanə seçimdir. Şairin "matəmli xəzan", "ıssız hicran", "süslü yalan" kimi sözlər H.Cavidin söz ustalığı sayəsində bədii məcazlar sırasında yer almışdır. Şairin şeirlərində yaxınmənalı sözlərin seçimi də mükəmməldir:

Söylüyorlar ki, sizin zirzəmilər

Yaş və ıslaq, bizi həp məhv eylər (s. 18, 5).

Hüseyn Cavidin "İlk bahar" şeirində "altın saçlı qız" sözünü qızın sarı saçlarını günəşə bənzədərək insana xas olan əlaməti cahsız təbiətin – günəşin üzərinə köçürməklə metafora yaratmışdır:

Bahar, bahar gəlmiş, yenə ilk bahar;
Güllər, çiçəklər gülər, quşlar oynar.
Göyün altın saçlı qızı nur saçar,
İnsanların tutqun gönlünü açar (s. 48, 5).

Beytdəki "tutqun könül" ifadəsi obrazlılığı ilə seçilən epitet kimi diqqəti cəlb edir. Akademik İsa Həbibbəyli Cavidin şeirlərində işlənən epitetləri dəyərləndirərərk yazır: "Sözün məcazi mənasından yaranan epitetlər isə nisbətən daha artıq obrazlılığa malik olur, ifadə olunan fikri, detalı və ya hərəkəti obrazlı şəkildə canlandırır. Hüseyn Cavidi elə şeirləri vardır ki, onların bütün misralarında məcazi epitet işlədilmişdir (s. 205, 1).

H. Cavid bədii yaradıcılığa bədii yaradıcılığa klassik lirika üslubunda yazılmış qəzəllərlə başladığı üçün ədəbi fəaliyyətinin birinci dövründəki şeirlərinin birində ərəb – fars tərkiblərinə rast gəlinir. İzafət bildirən sözlər klassik ədəbiyyatın dilindən gələrək Cavid şeiriyyətini bəzəyir. İzafət bildirən sözlərin tərəflərindən biri anlaşıqlı təsvir vasitələri olduğu üçün oxucusunu heç də çətinə salmır:

Verdim o gün ki, zülfi-pərişanə gönlümü,
Saldı nigar o zülfdə zindanə gönlümü (s. 112, 5).
Olubdu qəlbimə hakim mənim məlali-vətən,
Başımda şur ilə məskən salıb xəyali-vətən (s. 116, 5).
Xan, bəy zamanı getdi, ədalət zamanıdır,
Keçdi cəhalət aləmi, qeyrət zamanıdır.
Xam olmuyun ki, mütləqa devlət zamanıdır.
İndi maarif əsri, səadət zamanıdır,
Hər millət öz hüququnun istər bəhasını (s. 123, 5).

Vətəndaşlıq və maarifçi hisslərin güclü olduğu bu misralarda "məlali-vətən", "xəyali-vətən" kimi izafət bildirən sözlər klassik ədəbiyyatın dilindən süzülərək Cavidin şeiriyyətini bəzəyir. İzafət bildirən sözlərin tərəflərindən biri anlaşıqlı olaraq oxucusunu heç də çətinə salmır:

Verdim o gün ki, zülfi-pərişanə gönlümü,
Saldı nigar o zülfdə zindanə gönlümü (s. 112, 5).

Dövrün dil mənzərəsini nəzərdən keçirəndə Azərbaycan dilinə yad olan sözlərin, tərkiblərin həm ədəbi dilimizdə, həm də mətbuatda bol-bol işləndiyini aydın görmək olur. Cavidin yaradıcılıq dilində işlənən "öylə", "böylə", "şu", "ben", "kəndi", "hanki" kimi əvəzlikləri dövrün tələbi ilə

işlənən osmanlı dilinə məxsus türk sözləri ADR-in bəzi deputatlarının dilində də fəal surətdə işlənmişdir. Azərbaycan Demokratik Respublikasının dövlət dilində bu cür əvəzliklərdən də istifadə edilmişdir. Ağamusa Axundov"Dil və ədəbiyyat" kitabında bu fikrə münasibətini bildirərək yazır: "Birincilər (öylə, bən, hanki və s.) daha çox müsavatçıların və ittihadçıların, ikincilər isə (elı, mən, hansı və s.) daha çox sosialistlərin fraksiyasına mənsub olanların dilində işlənmişdir (s. 396, 6).

Cavidin sərhəd tanımayan düşüncəsinin məhsulu olan lirikası müxtəlif sahələrinə baş vurmuş və mükəmməl nəticə əldə etmişdir. Əsərlərində şəxsi hissləri ilə bərabər dövrünün ictimai-siyasi hadisələrinə münasibətini bənzərsiz bədii dillə verməyi bacaran Cavid ölməz sənətkarlar zirvəsinə yüksəldi. Yavuz Axundlu Cavidin yaradıcılığının çoxsahəli olduğunu qeyd edərək yazır: "H.Cavidin yaradıcılığının əsas cəhətlərindən biri onun lirikanın müxtəlif janrlarına müraciət etməsidir. H.Cavid öz şeirlərini qəzəl, qoşma, lirik mahnı və s. poetik formalarda qələmə almışdır" (s. 53, 7). Yüksək bədii sənətkarlığı özündə birləşdirən Cavid poeziyasının böyük bir hissəsi əruz vəzninin, az bir hissəsi heca vəzninin poetik əsrarəngizliliyini əks etdirir. Azərbaycan poeziyasında əlçatmaz zirvə hesab olunan H. Cavid yaradıcılığı milli şeirimizin ən orijinal, təkrarolunmaz, zəngin söz xəzinəsi ilə yaddaşlara həkk olunub.

ƏDƏBİYYAT

1. İsa Həbibbəyli. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, "Nurlan", 2007, 696 səh.
2. Azər Turan. Hüseyn Cavid. "Vektor" Nəşrlər Evi, Bakl, 2007, 286 səh.
3. Cavidi xatırlarkən (Hüseyn Cavid haqqında məqalə və xatirələr toplusu). "Zərdabi", Bakı. 2012, 592 səh.
4. Məmməd Cəfər. Hüseyn Cavid. Bakı, 2016, 310 səh.
5. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2005, 256 səh.
6. A.Axundov. Dil və ədəbiyyat. 2 cilddə. I cild. Bakı, "Gənclik", 2003, 660 səh.
7. Yavuz Axundlu. Seçilmiş əsərlər. 3 cilddə, I cild. Naxçıvan – yurdum mənim. Naxçıvan, 2013, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi. 312 səh.

Asadullayeva (Quliyeva) Mehriban

ARTISTIC FEATURES OF HUSEYN JAVID'S POETRY LANGUAGE

Huseyn Javid's (1882-1941) creativity which has a special place in the history of world culture and is considered unique pearls of world poetry treasure, establishes a new, original period in the

development of Azerbaijan poetica-esthetic thought. The interest and need for studying the poet's creativity has increased in the different periods, and his literary personality has been the focus of attention in literature and turned over a literary character. There is a great deal of artistic work on Huseyn Javid in Azerbaijani literature. The works of Huseyn Javid are very rich and substantial from the point of view of stylistic figures, and stylistic figures from his works are considered in this paper.

Nigar Babaxanova
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
tarix üzrə fəlsəfə doktoru
nbabaxanova@gmail.com

CAVİD YARADICILIĞI BEYNƏLXALQ ELMİ-MƏDƏNİ ƏLAQƏLƏR MÜSTƏVİSİNDƏ

Hüseyn Cavid həm təfəkkür, həm düşüncə tərzinə, həm də poetik inikas prinsiplərinə görə novator şəxsiyyətdir. Onun ictimai-bəşəri idealları tarixin müxtəlif mərhələlərində yaşamış mürəkkəb insan talelərində bədii əksini tapmışdır. H. Cavidin yaradıcılığında romantik pafos psixoloji təsir, xüsusi dramatizm kəsb etdiyindən oxucunu özünə cəlb edir. Onun mövzu dairəsi, toxunduğu hadisə və problemlərin miqyası, zaman və məkan tutumu, bədii idrak və inikasının ölçüləri əhatəli xarakter alaraq böyüyür.

Müasirlərindən fərqli olaraq bəşəri ideallara və bu idealları təmsil etməyi reallaşdırmağa qadir olan qeyri-adi, güclü, mürəkkəb xarakterə malik, zəmanəsinin fövqündə dayanan Şeyx Sənan, Peyğəmbər, Teymur, yıldırım Bəyazid, Səyavuş, Xəyyam və s. xalq qəhrəmanlarının təsvirinə daha çox üstünlük verirdi. Bəşər tarixində və onun ictimai-mənəvi təkamülündə mühüm rol oynamış nəhəng şəxsiyyətlərə rəğbətlə yanaşır, onların ibrətamiz əməllərə malik, nəsillərə nümunə olmağa layiq olan parlaq obrazını yaradırdı. Mütəfəkkür şair nahaq yerə demirdi ki:

Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü

Yer üzündəki haqsızlığın, zülmün, şərin tüğyan etməsi onu narahat edir və çıxış yolu tapmağa çalışırdı. Buna qarşı özünün humanist ideyalarını irəli sürürdü. Bu ilahi, bəşəri məhəbbət idi, hansı ki insanlığın nicatı, ictimai tərəqqisi uğrunda apardığı mübarizənin əsas məzmun və mündəricəsini təşkil edirdi. O məhəbbəti tək fəlsəfi konsepsiya kimi irəli sürmür, eyni zamanda əbədi istinadgah, qiblə hesab edirdi.

Hər qulun cahanda bir pənahə var,
Hər əhli halın bir qibləgahı va
Hər kəsin bir eşqi, bir Allahı var
Mənim tanrım gözəllikdir, sevgidir.(2.134)

H.Cavidin yaradıcılığı bir klassik Azərbaycan və Şərq Poetik fikrindən, digər tərəfdən qabaqcıl Avropa ədəbiyyatından bəhrələnmişdir. Şair "Şeyx Sənan"da təbliğ etdiyi ideyalar və gəldiyi nəticələr Nizaminin məhəbbət fəlsəfəsi, Nəsiminin "Ənəlhəq"ağırışı ilə səsləşirsə, ən kamil əsərlərindən biri olan "İblis" faciəsində isə dünyanın mütəfəkkir sənətkarlarının, Hötenin Mefistofeli, Bayronun Lütsiferi, Lermontovun Demonu ilə birləşir. Onlarla eyni cəhbədə dayanaraq ali məqsədlər uğrunda mübarizə aparmışdır. İnsanın xislətindəki dualizm, həm qurucu, həm də dağıdıcı olması böyük sələfləri kimi Cavidi də düşündürmüşdür. Düşünürdü ki, insan öz missiyasından, ali məqamından kənara çıxarsa, humanist təbiətindən uzaqlaşarsa, eybəcərləşər və dəhşətli əməllər törətməyə qadir varlığa - iblisə çevrilər. İblisi kənarda axtarmaq lazım deyil o bəşər övladının mənliyində, xilqətindədir. İblis şəxsi mənafeləri xatirinə milyonlarla günahsızı müharibələrə, fəlakətlərə sürükləyən şahlar, xaqanlar, din bayrağı altında min hiyləyə əl atan şeyxlər, papaslar, ikiüzlülərdir.

Əsərləri daha çox psixoloji romantik planda, ümumbəşəri qayğılar, bəşəri məhəbbət, ədalət, ülviyyət, xeyir və şər, insan və iblis, insan və mələk kimi əxlaqi-fəlsəfi anlayışların kontekstində açılır. Bu baxımdan H.Cavid dünya ədəbi fikrinin bir hissəsinə çevrilmiş, onun yaradıcılığı beynəlxaq mədəniyyətin müzakirə mövzularından biri olmuşdur. Məhz bu səbəbdən böyük ədibin əsərləri müxtəlif illərdə dünyanın bir çox dillərinə, məsələn, "Şeyda" 10 dilə, inglis, fransız, rus, çex polyak, belarus, bolqar, alman, yunan, ukrayn dillərinə, "Maral" bolqar dilinə, "Peyğəmbər", "Topal Teymur" fars dilinə və s. tərcümə olunaraq geniş oxucu kütləsinə təqdim edilmişdir.

Cavidin bəşəri idealarının izinə düşən, onu anladan dünyanın müxtəlif ölkələrindən olan tədqiqatçılar, ədəbiyyatşünaslar bu problemi birbaşa tədqiqat obyektinə çevirmişlər. Cavid yaradıcılığına həsr olunmuş "Hüseyn Cavid yaradıcılığı çağdaş təfəkkür işığında Türk dünyasını işıqlandıranlar: M.Akif Ersoy, Hüseyn Cavid", Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Hüseyn Cavidin 130 illiyinə həsr edilmiş Beynəlxalq konfranslar təşkil edilmişdir.

Konfranslarda Azərbaycan, Türkiyə, Amerika, Almaniya, Finlandiya, Krım, və Özbəkistan alimlərinin Cavid yaradıcılığı haqqında araşdırmaları təqdim olunaraq nəşr edilmişdir. Cavid irsinə yeni yanaşma təqdim edilən materiallarda üstünlük təşkil edir. Məruzələrdə ədibin təqdim etdiyi dünyəvi qayğılar, bəşəri ideallar dünya mədəniyyətinin hissəsi kimi dəyərləndirilmişdir. Təşkil olunmuş konfranslarda Azərbaycan, Türkiyə, Özbəkistan, Qırğızıstan, Misir, Makedoniya, Serbiya, Rusiya və s. dövlətlərdən 100-dən çox alim iştirak etmişdir.

H.Cavid yaradıcılığı ona görə diqqət mərkəzindədir ki, dünyanın hər hansı bir yerindən olursa olsun oxucu, tədqiqatçı mənsub olduğu xalqın qarşılaşdığı problemləri bu əsərlərdə qabardıldığını görür və müəllif onunçün doğmalaşır, özününkü hesab edir. Məsələn, Hüseyn Cavid yaradıcılığının

özbəkistanlı tədqiqatçısı filologiya elmləri üzrə fəlsəfə doktoru Əzimcan Şaimov da bu nüansı araşdırmalarında qeyd edir. Hüseyn Cavidin **fransız dilinə tərcümə olunmuş seçmə şeirlərindən ibarət** "La plu sgrande religion est l`amour...", (**"Məhəbbətdir ən böyük din") adlı kitabının ərsəyə gəlməsi də, H.Cavidinin əsərlərindən seçilmiş** "Cavid hikməti" seçmə aforizmlərin kitabının fars, ingilis dillərinə tərcüməsi də, "Şeyx Sənan" və "İblis" əsərləri Belarus yazıçılar ittifaqının nəşri olan "Neman" jurnalında dərc olunması da H.Cavid təfəkküründün, milli deyil multikultural, beynəlmiləl olmasının sayəsindədir.

Ədibin bədii irsi təksə mədəniyyətlərarası dialoqun deyil, eyni zamanda qarşılıqlı əlaqələr üçün də böyük potensial və geniş imkanlara malik olduğunu göstərir. "Hüseyn Cavid (1882-1941) sevgini ideallaşdıraraq insanın və cəmiyyətin ən böyük dəyərlərindən biri səviyyəsinə qaldırmışdır. Onun dərin inamına görə: "Məhəbbətdir ən böyük din!" Bu, Azərbaycan ədəbiyyatında multikultural düşüncənin, ümumbəşəri baxışların ən yüksək zirvəsinə çatan ideyadır. Burada inanclara qarşı etimadsızlıq yox, insanlığa böyük ehtiram öz əksini tapmışdır".

Hüseyn Cavidin Ev Muzeyi yarandığı gündən etibarən ədibin irsrinin təbliği ilə məşğul olur. Çalışılır ki, Böyük mütəfəkkirin yaradıcılığı zamanında almadığı qiyməti, dünya ədəbiyyatındakı yerni alsın. Buna görə də AMEA Hüseyn Cavidin Ev Muzeyi beynəlxalq təşkilatlarla yüksək səviyyədə əməkdaşlıq edir. Muzey 2005-ci ildən Beynəlxalq Muzeylər Şurasının (İCOM) rəsmi üzvüdür və muzey həmin dövrdən bu yana İCOM ilə sıx əməkdaşlıq edir. Mütəmadi olaraq İCOM-un rəsmi nəşrlərində muzeyin cari fəaliyyətini əks etdirən məlumatlar, eksponatlar haqqında muzey əməkdaşlarının məqalələri dərc olunur, mütəxəssislər tərəfindən muzeyin işinə yüksək qiymət verilir.

2015-ci il 15 iyul tarixində Fransanın paytaxtı Paris şəhərində Heydər Əliyev Fondunun və Azərbaycanın Fransadakı səfirliyinin dəstəyi ilə yaradılan Mədəniyyət Mərkəzində Hüseyn Cavidin Ev Muzeyinin əməkdaşları tərəfindən fransız dilinə tərcümə edilmiş və çap olunmuş "Məhəbbətdir ən böyük din" şeirlər kitabı təqdimatı təşkil edilmişdir.

Hüseyn Cavidin Ev Muzeyində hazırlanmış və çap olunmuş Cavidşünaslıq araşdırmalar toplusunda ədəbiyyatşünaslarımız tərəfindən ayrı-ayrı vaxtlarda yazılmış, xarici və yerli mətbuatda öz əksini tapmış materiallar da daxil edilmişdir. "Cavid hikməti: seçmə aforizmlər (Azərbaycan və ingilis dillərində)" kitabı H.Cavitd irsinin təbliği üçün ən yaxşı töhfələrdən hesab oluna bilər. Kitabın tərtibçisi və ön sözün müəllifi muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlı, elmi məlahətçisi AMEA-nın vitse-prezidenti, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, əməkdar elm xadimi, millət vəkili, akademik İsa Həbibbəyli, redaktoru AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimlidir. Muzey "Topal Teymur" əsərinin yazılmasının 95 illik yubileyi münasibətlə əsəri ingilis və rus dillərində çapa hazırlamış və nəşr etdirmişdir.

Bütün bunlar Cavid yaradıcılığı xaricdə təbliğ etməyin ən gözəl vasitələrindən biridir. Muzeyin səmərəli işi sayəsində Cavid yaradıcılığının bir qismi dünyanın müxtəlif dillərinə tərcümə edilib. Geniş təbliğatlar apararaq müxtəlif ölkələrdə sərgilər təşkil olunmuşdur. Eləcə də müzeyə xaricdən qonaqlar dəvət olunaraq H.Cavid haqqında daha da müfəssəl məlumatlar verilmiş və təbliğatın arealının daha da genişləndirilməsinə çalışılmışdır.

Cavid yalnız ədəsrləri ilə dünyada təbliğ olunmamışdır. Eyni zamanda dünyanın bir çox ölkələrində böyük dramaturqa abidə ucaldılmış, güşələr yaradılmışdır. 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Monteneqronun Podqoritsa şəhərində yerləşən qədim tarixə malik "Kral parkı"nda Hüseyn Cavidin abidəsi ucaldılmışdır.

2019-cu ildə Azərbaycan Respublikasının Serbiya, Monteneqro, Bosniya və Herseqovinadakı səfirliyinin təşəbbüsü ilə Cavid yaradıcılığının ən parlaq nümunələrindən olan "İblis" əsəri ilk dəfə olaraq Monteneqro dilinə çevrilərək nəşr edilib. Bu münasibətlə oktyabrın 22-də Podqoritsa şəhərindəki Monteneqro Universitetində kitabın geniş müzakirəsi və təqdimatı keçirilib.

Dahi dramaturqun 137- ci ildönümü münasibətilə Azərbaycanın İstanbuldakı Baş Konsulluğunun təşəbbüsü, SOCAR Türkiyənin və İstanbul Böyükşəhər Bələdiyyəsinin dəstəyi İstanbulun Beyoğlu səmtində yerləşən "Nilufer" parkında görkəmli şair və dramaturqun xatirəsinə şairin büstü ucaldılmışdır.

Azərbaycanın İstanbuldakı Baş Konsulluğunun təşəbbüsü, SOCAR Türkiyənin və İstanbul Böyükşəhər Bələdiyyəsinin dəstəyi ilə baş tutub.

Tədbirdə konsulluğun əməkdaşları, ictimaiyyət və media nümayəndələri, eləcə də tələbələr iştirak ediblər.

Romantik poeziyamızın, xüsusilə dramaturgiyamızın tarixində parlaq səhifələrdən biri olan H.Cavid irsi bizim qiymətsiz mənəvi sərvətimizdir və öz estetik gücünü həmişə qoruyacaqdır.

ƏDƏBİYYAT

1. İ.Həbibbəyli. Multikulturalizm yollarında: ədəbi-tarixi ənənələr və müasir dövr http://www.dqdk.gov.az/az/view/news/2604/multikulturalizm-yollarinda-edebi-tarixi-eneneler-ve-muasir-dovr
2. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2005, 256 səh.
3. Hüseyn Cavidin Ev Muzeyinin rəsmi veb səhifəsi. https://www.huseyncavid.az/eng.php?go=news18

Nigar Babakhanova

JAVID'S CREATIVITY IS IN THE FIELD OF INTERNATIONAL SCIENTIFIC AND CULTURAL RELATIONS

Hussein Javid is an innovative person in terms of thinking, thinking and poetic principles. Hussein Javid's House Museum has been promoting the writer's heritage since its foundation. They are trying to take the place of the great thinker in world literature, which he did not receive in his time. Therefore, ANAS Huseyn Javid's House Museum cooperates with international organizations at a high level. Javid was not only promoted in the world with his poems. At the same time, a monument to the great playwright has been erected in many countries of the world, and corners have been created.

Nərgiz İsmayılova
AMEA Naxçıvan Bölməsi
filologiya üzrə fəlsəfə doktoru
ameanaxcivanbolmesi@gmail.com

HÜSEYN CAVİDİN "İBLİS" VƏ JOZE SARAMAQONUN "İSANIN İNCİLİ" ƏSƏRLƏRİNDƏ İBLİS SURƏTLƏRİ

Nobel mükafatı laureatı Joze Saramaqo 16 Noyabr 1922-ci ildə Lissabon yaxınlığındakı Azinaqa qəsəbəsində kasıb kəndli ailəsində dünyaya gəlmişdir. İlk təhsilini Lissabonda alan sənətkar sonra texniki rəssamlıqdan redaktorluğa və tərcüməçiliyə qədər bir çox işdə işləmiş, "Diario" qəzetində mədəniyyət redaktoru olmuşdur (5; 6).

O, siyasi şərhlər yazmış, bu şərhlər bəzən alqışlanmış, bəzən isə tənqidi reaksiyalara səbəb olmuşdur. Portuqaliya Yazıçılar Birliyinin idarə heyətində çalışan sənətkar 1976-cı ildən sonra özünü tamamilə kitablarına həsr etmişdir. Onun ilk əsəri olan "Günah diyarı" (Terra do Pecado) 1947-ci ildə nəşr olunmuşdur. Portuqaliya oxucusu Per Lagerkvist, Kollet, Mopassan, Andre Bonnard, Tolstoy, Şarl Bodler, Hegel, Raymond Bayer və bir çox görkəmli söz ustalarının əsərlərilə məhz onun tərcümə fəaliyyəti nəticəsində tanış olmuşdur (4, s. 6). Müxtəlif illərdə onun "Mümkün şeirlər" (1966), "Bəlkə də, bu sevincdir" (1970), "Bu və o dünyadan" (1971) şeir topluları nəşr edilir. Bir müddətdən sonra onun "Gecə", "Torpaqdan ucalanlar", "Baltazar və Blimunda", "Lissabon müha-sirəsinin tarixi", "İsanın incili", "İn Nomine Dei", "Təxirə salınmış ölüm" və s. kimi əsərləri işıq üzü görür. Saramaqo heç gözləmədiyi bir vaxtda 1998-ci ildə Nobel mükafatına layiq görülür. Onun "İsanın incili" romanı son vaxtların ən qalmaqallı əsərlərindəndir. Əsərdə yer alan ironik fikirlər çoxlarının mənfi reaksiyasına səbəb olmuşdur. O yazılarında, durğu işarəsi olaraq sadəcə nöqtə və vergüldən istifadə etmişdir. Sənətkarın dili olduqca sadədir, bu da oxucunu ona bağlayan əsas səbəblərdən biridir. Saramaqo 87 yaşında vəfat etmişdir. Onun "İsanın incili" romanı mənəvi baxımdan dərin düşüncələri əks etdirən yan

Hətta bu roman illər sonra belə bəzi sirləri ortaya çıxardacaq gücdə olan bir əsərdir. Saramaqo bu əsərdə xristian dinini özünə xas ədəbi üslubla təsvir etmişdir. Bilindiyi kimi, İsa və onun nəsli barəsində həm din adamları, həm tarixiçilər, həm də ədəbiyyatçılar müxtəlif fikirlərlə çıxış etmişlər. Bəziləri İsanın insani tərəflərini müdafiə etmiş (J.Saramaqo, Den Broun), kimiləri isə onu tanrılaşdırmağa səy göstərmişlər (Kilsələr). İsanın obrazının yaradıldığı əsərlərdə İsa, Məryəm, Kilsə, İsanın həvariləri ilə birlikdə Allah və şeytan (İblis) kimi surətlərə də yer verilmişdir. Tədqiqatımıza kömək edən əsərlərə diqqət etdikdə görürük ki, onlar həm bədii, həm dini, həm də tarixi baxımdan reallıqlarla zəngindir. Bu həqiqətlər oxucuya cazibədar gəlir və həmin dövrü anlamaq baxımından onlarda maraq oyadır. Tarixin bütün dövrlərində dini-fantastik, fanatik düşüncə tərzini əks etdirən romanlar və tədqiqatlar olmuşdur. Bilindiyi kimi, bəzi cahil insanlar tərəfindən qəbul olunan fanatiklik və elmi rədd səyləri çox pis nəticələr doğurmuşdur. "İsanın İncilin"də Saramaqo bu düşüncələrlə birlikdə onlara aydınlıq gətirmək üçün yollar axtarmışdır. Bu əsərdə İsa tanrılıqdan uzaqlaşdırılıb bütün gerçəkliyi ilə təsvir edilmişdir. Əsərdə Allah və İsa arasında gedən dialoqlarda Tanrı anlayışına fərqli şəkildə yanaşılmışdır. J.Saramaqonun bu əsərində İblis daha müdrik və yaxşı təsvir edilmişdir. İblisin mənfi tərəflərinə işıq tutan bəzi hissələr xaric, bu surət oxucuda nifrət hissi yaratmır.

Digər İblis obrazı yaradan müəlliflərdən fərqli olaraq məşhur Azərbaycan dramaturqu Hüseyn Cavidin yaratdığı İblis surəti də J.Saramaqo İblisinə bənzəyir. Hər iki İblis surəti sonda qismən də olsa yumşaldılır. Bunu etməkdə sənətkarların məqsədi insanların diqqətini öz nəfslərinin köləsi olmaq məsələsinə yönəltməkdir.

H.Cavid klassik Azərbaycan ədəbiyyatının ənənələrini davam etdirən və bu ənənələrə öz orijinal qələmi ilə naxış vuran böyük ədəbi simadır. XX əsr Azərbaycan romantizmi onun adı ilə bağlıdır. Cavid Azərbaycan dramının mövzu sərhədlərini genişləndirmiş, tragik xarakterin, romantik qəhrəmanın və dramın yeni tiplərini yaratmışdı. 1912-1918-ci illərdə iki böyük faciə yaradan sənətkar insanlığı faciəyə, uçuruma sürükləyən mühitin rəsmini söz vasitəsilə təsvir etmişdir. Cavid kimi yaratdığı qəhrəmanlar da həqiqət axtarışındadırlar. H.Cavidin 1918-ci ildə qələmə aldığı "İblis" faciəsi ən gözəl və diqqət çəkən əsərlərindəndir. Bu əsər bir çox tədqiqatçı tərəfindən araşdırılmışdır. Az sözlə fikrin təməlini oxucuya çatdırmağı bacaran H.Cavid bəşəri sevgini, bəşəri yaxşılığı ustalıqla izah etmişdir. Əsərin qəhrəmanları özünə xas düşüncələri ilə oxucuda dərin təsir buraxır. Bu əsərdə Cavid müharibənin əsl səbəbləri ilə birlikdə, insanların nəfslərinin köləsi olmaları nəticəsində başlarına gələcək fəlakətləri də qələmə almışdır. Cavidin "İblis" faciəsi bəşəri, qlobal bir problemə diqqət çəkmək məqsədi ilə yazılsa da, o bu əsərdə fərqli düşüncələrə də yer vermişdir. Biz eyni fikirlərə J.Saramaqonun "İsanın incili" əsərində də rast gəlirik. H.Cavidin orijinallığı odur ki, onun, hələ 1918-ci ildə yazdığı, təsvir etdiyi gerçəkləri J.Saramaqo və digər sənətkarlar sonralar qələmə almışlar. Bu, Cavidin böyüklüyünün sübutudur, 1918-ci ildə Cavid qələmi ilə təsvir olunan mövzu

illər keçməsinə baxmayaraq öz dəyərini və müasirliyini qoruya bilmişdir. Həmişə ədəbiyyatsevərlərin diqqətini cəlb edən H.Cavidin əsərləri öz mistik təbiəti, dinə müasir yanaşması və bununla birlikdə keçmişə hörməti baxımından özünəməxsusluğu ilə seçilmişdir. Onun yaratdığı "İblis" əsəri bunun ən bariz nümunəsidir. H.Cavidin "İblis" əsərində iblisin insanlara görünmək üçün müxtəlif yolları mövcuddur:

Xilqətdəki hər məsələ, hər nöqteyi-mövhum,

Hər fəlsəfə, hər məzhəbü məslək mənə məlum,

Bəzən olaram bir çoban, azadə bir insan,

Bəzən olaram zülmü fəsad aşiqi sultan (2, s. 82).

Bu parçada izah edildiyi kimi, İblis insanlara çatmaq üçün müxtəlif yollar axtarır, bəzən çoban, bəzən sadə insan, bəzən isə fəsadlıqlar aşiqi olan bir sultan qiyafəsinə bürünür.

J.Saramaqonun "İsanın incili" əsərində də iblis H.Cavidin "İblis" əsərində İblisin özünü mədh edərkən söylədiyi kimi "çoban" qiyafəsində təsvir edilmişdir. Çobanlıq İblisin insanlara yaxınlaşmaq üçün büründüyü kimliklərdən biri olaraq göstərilmişdir.

- "Öz əllərimlə xəmir yoğurdum, ancaq yerin dərinliyində yanan ocaqda bişirdim çörəyi və onu sənə gətirdim".

- Məryəm o dəqiqə anladı ki, həmin çoban kimdir (4, s. 5).

J.Saramaqonun "İsanın incili" əsərində İsanın anası Məryəm əvvəl İblisi mələk sanmışdı. Lakin törətdiyi əməllərdən çıxardığı nəticələrə diqqət etdikdən sonra Məryəm onun İblis olduğunu anladı. İblis ilk əvvəl dilənçi qılığında İsanın anasının (İsanın) ziyarətinə gəlmişdi. İsanın doğumu gerçəkləşdikdən sonra isə İblis təkrar mağaraya onları ziyarətə gəlmişdi (4, s. 34-35). Bu dəfə də iblis Çoban qiyafəsində görünmüşdü İsanın anasına. İsa böyüyüb evi tərk etdiyi zaman o yenə həmin çobana rast gəlmiş (İsa bu vaxt Çoban barəsində heç nə bilmirdi) və onun yanında işə başlamışdı. Bir gün Tanrıya dua etmədiyi üçün İsa Çobandan uzaqlaşmağa qərar verir, bu zaman onlar arasında belə bir söhbət gerçəkləşir:

İsa: Mən gedirəm, Tanrıya təşəkkür və dua etməyən biriylə daha yaşaya bilmərəm.

Çoban: Mən yəhudi deyiləm, başqa dinin ayinlərini icra edə bilmərəm.

İsa: Tanrı təkdir! (4, s. 244-245)

Çoban: Ah bəli, əgər tanrı varsa, bəlkə də təkdir. Amma iki dənə olsa, daha yaxşı olardı. Biri canavar, digəri quzu üçün, biri öldürən, digəri ölənlər üçün, biri məhkum üçün, digəri cəllad üçün.

J.Saramaqonun "İsanın incili" əsərindən alınmış bu dialoqda iki fərqli düşüncə mövcuddur. H.Caviddə də İblisin Elxanın düşüncələrinə qarşılıq olaraq verdiyi cavabda bu cür bənzərliklər mövcuddur.

Elxan

İstəməz artıq həyəcan,

Yerdə qoymaz qanı ədalətli Yaradan.

İblis

(lağlağı bir qəhqəhəylə)

Bəli, əzsən də, əzilsən də, bəli,

Yenə adildir o müdhiş qüvvət! (2, s. 88-89)

"Mifologiyaya uyğun olaraq allahın ədalət pərdəsi altında etdiklərində ədalətsizlik, zülm, zülmət görən iblis yer üzünü səyyah kimi qarış-qarış dolaşır, qadir qüvvənin qoyduğu qayda-qanunu uyğunsuz, biçimsiz görür" (3, s. 116).

Hər iki əsərdə sənətkar İblis obrazından istifadə edərək insanlığın cavablaya bilmədiyi bəzi sualları və problemləri ortaya atır. Bu problemləri xeyirin (tanrı, mələk) və şərin (İblis) dili ilə müzakirə edir. Xeyir və Şər anlayışı ədəbiyyatda və dində ən çox müraciət olunan mövzular arasındadır. Zərdüştün "Avesta", Nitşenin "Zərdüşt belə buyurdu" və. s kimi əsərlərdə də şər ruhlar, insanı pislik etməyə yönləndirən ünsürlərdən müxtəlif adlarla bəhs olunmuşdur.

Hüseyn Cavid özünün "İblis" əsərində Zərdüştün adını çəkməklə onun xeyir və şər konsepsiyasına diqqət çəkmək istəyir. İblis Ariflə söhbətlərinin birində deyir:

Zərdüştü düşün, fəlsəfəsi, fikri, dəhası

Həp atəşə tapdırmaq idi zümreyi-nası.

Yalnız bunu dərk etdi o əllameyi-məşhur,

Yalnız o böyük baş şu kəşflə məğrur... (2, s. 13).

Saramaqonun da yaratdığı obrazlar H.Caviddə olduğu kimi dərin psixoloji vəziyyətlər yaşayarkən, məntiqli olmağa çalışmaqla birlikdə nəfslərilə mübarizə aparırlar. Saramaqodan fərqli olaraq Cavid Tanrını deyil, nəfslərinin köləsi olmuş insanları ittiham edir.

İblis

(bir guşədə ağsaqqal abid qiyafətində görünür, yarımqəhqəhə ilə)

İnsandakı nəfsi-şumə daim

İblis olur, ancaq olsa hakim (2, s. 58).

Hər iki əsər fantastik surətlərlə zəngin olsa da, H.Cavid "İblis" əsərində bəşəri problemləri daha real təsvir etmişdir. Saramaqonun əsərində diqqətimizi çəkən hekayələrdə insanlar fanatikcəsinə inanclarının köləsi halına düşürsə, Cavidin "İblis"ində insanlar bu köləliyə son vermənin bir yolunu tapır. Saramaqo "İsanın İncili" əsərində müxtəlif fanatiklikləri ironik bir dillə tənqid etsə də, onlara aydınlıq gətirə bilmir. Dövrləri müqayisə etsək görərik ki, Cavidin təhlilləri daha orijinal, çıxardığı nəticələr isə daha qətidir. Saramaqo İsanın kilsə tərəfindən müqəddəsləşdirilməsinə sözün gücüylə

gülmüşdür. Əsərdə qeyd edildiyi kimi, İsa insan olaraq doğulsa da, heç kim İsanı insan olaraq qəbul etmək istəmir və onun insan olaraq yaşayışı ilə maraqlanmır. Maqdalalı Məryəm (Mariya Maqdalina) İsanın dünyəvi hisslərinin olmasının, İsanın Tanrının oğlu olmadığının bir sübutu olaraq çox güclü bir dəlildir. Bu sübut haqqında Den Broun özünün "Da Vinçi Şifrəsi" əsərində də danışmış və buna öz münasibətini bildirmişdir: "Konstantin Məsihi rəsmi olaraq Tanrının oğlu olaraq qəbul etməklə onu insan dünyası xaricində var olan bir ilahi gücə, ilahi bir varlığa çevirdi" (1, s. 150). "İsanın incili" əsərində daxili inanclar və sarsılmaz kilsə gerçəklərinə ciddi zərbə vurulur. Cavid də eyni üsuldan istifadə etmiş, qəbul olunmuş bəzi fikirlərin iç üzünü açmaqdan çəkinməmiş, sözlər ilə təhlükəli oyun oynamışdır. Saramaqo hadisələri və həqiqətləri müdhiş ironik bir şəkildə şərh edir, hər paraqrafda qarşılaşdığımız ironik şərhlər ilə insanı gülümsədir.

O "İsanın İncili" əsəri ilə dörd rəsmi versiyası olan bir din kitabının (İncil - Matta, Mark, Luka, Yəhya) qeyri-rəsmi və qəbul edilməyən bir şərhini ortaya qoymuş sənətkar olmaqla bərabər, bu şərhlərini real həyatla çox gözəl sintez şəklində izah və isbat edə bilmişdir. Saramaqo fanatik düşüncələrə məntiq qatan bir sənətkardır. Onun bu romanında da İsanın doğumuna, çoban qılığına girən şeytan ilə qarşılaşdığı hissəyə qədər, həyəcanlı hadisələr baş vermir. Anasının ona hamilə ikən yaşadığı hadisələrdə yaşlılar şurası məntiq axtarmaqdadır. Cavidin "İblis" əsərində də eyni vəziyyət yaşanmaqdadır. İblisin ortaya çıxması ilə hadisələr canlılıq qazanır. Həyəcan, təəssüf, məğlubiyyət və zəfərlər bir-birini əvəz edir. Cavidin bu əsərində xeyir və şər daima yarış içindədirlər, bəzən xeyir qiyafəsinə bürünmüş şər yanılma və məğlubiyyətlərə səbəb olur. Saramaqonun yaratdığı İblis surətinin ağıllı söz oyunlarını, daha əvvəllər yaradan dahi dramaturq H.Cavidin "İblis" faciəsi bu tərzdə əsərlər yaradan sənətkarların əsərlərindən heç də geridə qalmır. H.Cavidin "İblis" əsərində bəzi yerlərdə, məsələn; İblisin Arif və Arifin sevdiyi qadın Rənanı qurtarmaq bəhanəsiylə onları daha pis bir sona hazırlamaq məqsədi ilə oynadığı oyuna, yaxşılıq bəzəyi verdiyi səhnədə Şeytanın az qala yaxşılıq mələyinə çevrildiyini görürük:

Arif

(İblisin ayaqlarına bağlanar və son dərəcə həyəcanlı)

Bir Xıdırmı, ya mələkmisin?

Yalnız bunu bilmək istəyirəm mən (2, s. 64).

Eyni vəziyyətlər və eyni yanılmalar Gete, Bulqakov, Lermontov və Saramaqo kimi məşhurların əsərlərində də görülməkdədir. Bu sənətkarların hamısında qəhrəmanlar əvvəl şər ruhları pisləsələr də, bir müddət sonra nəfslərinin toruna düşərək xeyirlə, şəri ayırd edə bilmirlər. Bu səhnələrdə əsər qəhrəmanlarının psixoloji məğlubiyyəti müşahidə edilir. Yuxarıdakı misralardan göründüyü kimi, Cavid qəhrəmanı Arifin də bəzən ağlını qarışdıran İblis, öz məqsədi üçün hər şeyi edir. Faust dünyəvi nemətlərə yenidən alışmağa başlarkən Mefistofel sevinir, Lermontovun Demonu zəfərini qeyd edir,

Bulqakovun Volandı Margaritanı onun qanlı mərasiminə ev sahibliyi etməyə məcbur edir, Saramaqonun İblisi öz rolunu çox gözəl oynayır, Cavid İblisi isə həqiqəti anlayıb onu lənətləyən insana:

İblis nədir?

- Cümlə xəyanətlərə bais ...

Ya hər kəsə xain olan insan nədir?

- İblis! ...

söyləyərək qəhqəhələrlə yer altına çəkilir (2, s, 104).

Nəticə olaraq qeyd edə bilərik ki, müxtəlif dünya sənətkarlarından və onların yaradıcılığından heç də geri qalmayan H.Cavidin yaradıcılığı, sənətkarlığı təqdirəlayiqdir. O həm dünyanın, həm də Vətəninin ən ağır günlərində sözün gücü ilə şərlə mübarizə aparmış və bu mübarizədən qalib çıxmışdır. Onun əsərləri dünya miqyasında tanınmağa layiqdir.

ƏDƏBİYYAT

1. Dan Brown. Da Vinçi Şifresi. İstanbul: Altın Kitaplar Yayın evi, 2003, 295 s.
2. Hüseyn Cavid. Əsərləri. Beş cilddə, III cild. Bakı: Lider, 2005, 304 s.
3. İsmayılov Ə. Dünya romantizm ənənələri və Hüseyn Cavid. Bakı: Yazıçı, 1983, 220 s.
4. Joze Saramaqo. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2010, 800 s.
5. http://en.wikiquote.org/wiki/Jos%C3%A9_Saramago
6. http://www.nytimes.com/2010/06/19/books/19saramago.html?pagewanted=all&_r=0

İN HUSEIN JAVID'S "DEVIL"AND JOSE SARAMAGO'S JESUS'S GOSPEL" PLAYS DEVIL CHARACTERS

Husein Javid's creativity is equal with the most famous artists in the world. He fought evil with the power of words in the most difficult days of both the world and his homeland. Poet won in this fight. Therefore, his plays are deserving worldwide recognition.

Aysel Rüstəmova
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
dissertant
aysel_rustemliar@mail.ru

HÜSEYN CAVİD SƏNƏDLİ FİLMLƏRDƏ ƏBƏDİ OBRAZDIR

Naxçıvan Muxtar Respublikasının Şahtaxtı kəndində ruhani ailəsində dünyaya gələn Hüseyn Cavid mollaxanada ilk təhsilini, orta təhsilini isə Məhəmməd Tağı Sidqinin rəhbərliyi ilə "Məktəbi-tərbiyə" adlanan tədris ocağında almışdır. Sonra Təbriz şəhərinə getmiş "Talibiyyə" mədrəsəsində oxumuşdur. Bu məktəbi bitirdikdən sonra Cavid Türkiyənin İstanbul Universitetinin ədəbiyyat fakültəsində təhsil almışdır. Universitet illərində dünya və türk ədəbiyyatı ilə yaxından tanışlıq onun dünyagörüşünün formalaşmasında mühüm rol oynamış və o, Azərbaycan ədəbiyyatının görkəmli şəxsiyyətlərindən biri kimi sənət tarixində əbədi iz buraxmışdır. Romantizm cərəyanın yaradıcılarından sayılan Cavid Azərbaycan ədəbiyyatı tarixində romantizmin və mənzum faciənin əsasını qoymuşdur. Klassik ədəbiyyatda dramaturq kimi tanınması onun müxtəlif mövzularda tarixi, fəlsəfi, ailə-məişət dram və faciələri dramaturgiyada yeni mərhələ yaratdı. Cavid dramaturgiyasında daha çox ictimai, siyasi, mədəni, ümumbəşəri əhəmiyyətə malik problemlər qoyulmuşdur. 1910-cu ildə qələmə aldığı "Ana" mənzum faciəsində Səlma ana obrazı ilə oğlunun qatilini bağışlamağı bacaran, dünyaya qan tökmək, intiqam almaq hislərindən uzaq olmaq mesajını verən sənətkar bəşəri idealları ilə əbədiləşir. "Şeyx Sənan" faciəsində isə dramaturq insanın mənəvi və şəxsiyyət azadlığı, eşqin etiqad üzərində qələbəsini əks etdirmişdir. Hüseyn Cavid yaradıcılığında bəşəriyyəti fəlakətə sürükləyən müharibələrə də öz münasibətini bildirmiş və "İblis" faciəsində məhz müharibənin törətdiyi dəhşətlərə etirazını ifadə etmişdir. H.Cavidin "Peyğəmbər", "Səyavuş", "Xəyyam", "Topal Teymur", "Maral", "Uçurum", "Knyaz" və s. kimi əsərlərində qaldırdığı ciddi ictimai-siyasi problemlər bu əsərlərin bədii dəyərini daha da artırmış və ədəbiyyatımızın möhtəşəm və ölməz sənət abidəsinə çevirmişdir.

Cavid əbədi obrazlılığı nəinki ədəbiyyatda, poeziyada, həmçinin filmlərdə də öz möhürünü vurmuşdur. Bunlardan bir neçə filmin adlarını çəkmək olar. "Cavidi xatırlarkən", "Hüseyn Cavid", "Qayıdış", "Səma şairi", "Cavid ömrü" (bədii film) kimi filmlər buna nümunədir. Ssenari müəllifləri Turan Cavid və Mirzəağa Mirmövsümova aid və rejissoru Əlihüseyn Hüseynova məxsus "Cavidi xatırlarkən" sənədli filmi 1982-ci ildə tamaşaçılara təqdim edildi. Filmin əsas məzmunu tanınmış şair, dramaturq Hüseyn Cavidin anadan olmasının 100 illiyi ilə bağlı həyat və yaradıcılığından ibarət səhnə

fraqmentləri, ədib haqqında sənət adamlarının çıxışları təşkil edir. Sənədli filmin ilk epizodunda şairin şeirlərindən müxtəlif mövzuda misralar səslənir. İzləyici bu misraları dinlədikcə Cavid lirikasının iki əks qütbünü görür. Bir tərəfdən həyatda gördüklərindən təsirlənən Cavid kədəri, digər tərəfdən həyatın gözəlliklərini, sevgini, məhəbbəti, yaşamaq istəyini əks etdirən Cavid nikbinliyi. Filmdə tanınmış sənət adamlarından Mehdi Məmmədov, Cənnət Səlimova, yazıçının qızı Turan Cavidin Hüseyn Cavid haqqında çıxışları dramaturqun yaradıcılığına böyük məhəbbətdən irəli gəlir.

Filmin növbəti epizodunda Azərbaycanın görkəmli teatr rejissoru, aktyoru və pedaqoqu Mehdi Məmmədovun Cavid haqqında mülahizəsi seyrçi qavrayışında obyektiv konvensiallığı təmin edir. Onun qədim və zəngin Azərbaycan ədəbiyyatının görkəmli klassiklərindən olması, əsərlərinin bir qisminin tarixi hadisələrə həsr edilməsi, "İblis" pyesinin xalqların taleyində, dünyanın vəziyyətində mühüm rol oynaması haqqında fikirləri dövrün, zamanın ekran obrazı səviyyəsinə qaldırır. "O, birinci dünya müharibəsinin sonunda 1918-ci ildə yazılsa da məğlubiyyətinə görə ideya məzmununa görə demək olar ki, o təkcə o illərin hadisəsinə deyil, sonrakı illərin hadisəsini əhatə edir bugün də son dərəcə müasir görünür" [Cavidi xatırlarkən filmi, 1982].

Digər kadrlarda ədibin yaradıcılığına ilk dəfə "Ana" pyesi ilə tanışlığa başlayan Azərbaycanın görkəmli teatr rejissoru, xalq artisti Cənnət Səlimovanın Cavid yaradıcılığına böyük vurğunluğu dramaturqun qüdrətli sənətkar olduğunu aşkara çıxarır. Əsərdə böyük ürəyə sahib ana obrazını göstərən rejissor tamaşaçıları ana kimi mərd, məğrur və əzəmətli olmağa səsləyir. Rejissorun Hüseyn Cavidi qeyri-şərtsiz bəşəri bir müəllif kimi verməsi, Şiller, Hüqo, Höte, Şekspir səviyyəsində tutması izləyicinin diqqətindən yayınmır. "Hüseyn Cavid qeyri-şərtsiz bəşəri bir müəllifdir, o, Şiller, Hüqo, Höte, Şekspir səviyyəli bir müəllifdir." [Cavidi xatırlarkən filmi, 1982].

Sənədli filmin son epizodunda şairin qızı Turan Cavid atası Hüseyn Cavidlə bağlı xatirələrindən danışır. Onun bəzi xasiyyətlərini yada salması, ailəyə böyük diqqət yetirməsi, özünün və qardaşı Ərtoğrulun dərsləri ilə maraqlanması, qaranlıq doğuran suallara atasının geniş və ətraflı cavab verməsinə qədər hər şey Turan Cavidin hislərinin süzgəcindən keçir.

Hüseyn Cavid haqqında digər ikinci sənədli film (ssenari müəllifi Rəfail Hüseynov və rejissor Zəyyar Ağayev) 1992-ci ildə çəkildi. Filmin əsas məzmunu dahi şair və dramaturqun 100 illik yubileyində nəşinin Azərbaycana gətirilməsi, onun və ailəsi haqqında bir çox şəxslərin xatirələri təşkil edir. Filmin ilk kadrlarında Azərbaycan şairinin 41 il sonra Naxçıvan torpağında dəfn edilməsi tamaşaçı şüurunda epizodun emosional təsir gücünü artırır. Cavidin bizə zamanca yaxın olması müasir izləyicinin onun ruhunun gənc görməsindədir. Filmdə deyildiyi kimi "Bəs nə sirdir ki, dünənki gəncliyin pərəstişi olan Cavid indinin gəncliyinə də bunca doğmadır, nədəndir ki, şeirinin tərzi də qoca olan Cavid məhz gəncliyin tərzinə də bu cür yaxındır."[Qayıdış filmi, 1992]. Məhşər gecəsində şairin qara mənzilinə sovet inkevedeis nümayəndələrinin qəfil gəlişi onun bu ünvandan çıxışının sonu

olması izləyicinin şüurunda psixoloji durumun mürəkkəb şifrəsini göstərir. "Öz yaradıcılıq proqramını "Siyasət, təbliğat bir şey, ədəbiyyat ayrı şeydir" fikri ilə bəyan edən Cavid şübhəsiz ki, öz istedadının, yazdığı əsərlərinin dəyərini yaxşı bilirdi və onu hansı taleyin gözlədiyindən də xəbərdar idi" [1,s.101-102]. 19 il ailəsi ilə bu isti yuvada yaşaması Azərin, Xəyyamın, Peyğəmbərin burada vücuda gəlməsi filmin məna aspektini obyektiv ölçülərlə seyrçi kütləsinə çatdırır.

Növbəti kadrda şux boyalı rəsmlər çəkən, incə musiqilər bəstələyən 24 yaşlı Ərtoğrul Cavidin ömür çırağının sönməsi filmin təsirli məqamlarından biri kimi sayılır. "Bir xoşbəxt evin yanan çırağı söndü, bir isti yuva paralandı. 24 bahar yaşadı Ərtoğrul və o 24 bahara sığmayacaq qədər dəyərli və unudulmaz işlər gördü. Nə acı, nə nisgilli idi boya sözü Ərtoğrulun ömrü öz fırçasından çıxmış bu çiçəyin ömrü qədər olmadı" [Qayıdış filmi, 1992]. Müharibə dövrünün əsgərlik çağında düşmən gülləsinə tuş gəlməməsi, vərəm xəstəliyinin qurbanı olan bu gəncin ölüm zərbəsi ifadəli ekran planları ilə verilmişdir.

Sənədli filmdə Hüseyn Cavidin həyat yoldaşı Mişkinaz xanımın başı bəlalı sevgisi onu əbədiyyətə aparan bir obraza çevirir. Son nəfəsinəcən Cavidi üçün yaşayan Mişkinazın yaxşı və yaman günlərini bir dəftərdə əbədiləşdirməsi müəllifin konsepsiyasını daha obrazlı şəkildə ifadə üsulu kimi tətbiq edir. "Axır nəfəsinəcən Cavidi üçün yaşadı Mişkinaz xanım. Ən son borcu da o oldu ki, qələmlə, mürəkkəblə yox qəlbinin qanı ilə Cavid ömrünün yaxşı və yaman günlərinin tək ona bəlli olan parçalarını bir dəftərdə əbədiləşdirib bizlərə yadigar qoydu" [Qayıdış filmi, 1992].

Ekran mətninin timsalında Turan Cavid iştirak etdiyi hadisələrdə müəllifin mövqeyindən çıxış edir. Atasının ona ərəb əlifbasını öyrətməsi gələcəkdə Cavidin tanınması üçün bir əsas kimi nəticələnir. Tofiq Fikrətdən, Rza Tofiqdən tərbiyə, savad qazanması, Turançılıq eşqinin mərhəm sevgi kimi qəlbinə dolması yeni bir obyektə zərurət yaradır. Böyük Cavidin son səfərində Sibirə sürgün edilməsi, möcüzə sayəsində ulu öndər Heydər Əliyevin səyi ilə Həmid Cəfərovun çiyinlərində yenidən Vətəninə dönməsini ən uğurlu ekran tapıntılarından biri kimi hesab etmək olar. "Hamımız üçün əbədi olan Cavid bu ali insanın ən incə, ən kövrək sevgilərində daim dipdiridir" [Qayıdış filmi, 1992].

Filmdə Qulam Məmmədlinin, Cəfər Rəmzi İsmayılzadənin, Tağı Tağıyevin, Nigar Qasımovanın, Rəşid Fətəliyevin, Həbibə Məmmədxanlının xatirələri böyük yer almışdır. Son ekran səhnəsinin heykəltəraş Ömər Eldarov tərəfindən şairin heykəlinin açılış mərasimi ilə bitməsi sənət faktına çevrilir. Sonluğu bu cümlələrlə tamamlamaq daha məqsədəuyğun olar. "Cavidin söykəndiyi həqiqətin bircə mənası olub: xalqını, millətini azad, xoşbəxt, vətənini isə sivil dövlətlərin sırasında görmək! [news.milli.az › culture].

ƏDƏBİYYAT

Monoqrafiya

1. Hüseynov Ə. Kinomuzda Anar fenomeni. Bakı: Elm və təhsil, 2015,135 s.

İnternet resurs

1. news.milli.az › culture

Filmoqrafiya

1. "Cavidi xatırlarkən" (ssenari müəllifləri Turan Cavid, Mirzəağa Mirmövsümov və rejissor Əlihüseyn Hüseynov, 1982.)
2. "Qayıdış" (ssenari müəllifi Rəfail Hüseynov və rejissor Zəyyar Ağayev, 1992.)

Aysel Rustamova

HUSEYN JAVID IS AN ETERNAL IMAGE IN DOCUMENTARY FILMS

The research was based on the analysis of the documentaries "Remembering Javid" and "Return". The documentary "Remembering Javid" tells about the life and work of the famous poet and playwright Huseyn Javid on the occasion of the 100th anniversary of his birth, and about the performances of artists about the writer. Another second documentary, "Return", reflects the memories of many people about the arrival of the writer's son-in-law in Azerbaijan, him and his family.

Könül Məhərrəmova
AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
dissertant
konulmeherremli7@gmail.com

AMEA HÜSEYN CAVİDİN EV MUZEYİNDƏ HÜSEYN CAVİD ƏSƏRLƏRİNİN NƏŞRİ MƏSƏLƏLƏRİ

AMEA Hüseyn Cavidin Ev Muzeyinin əsas fəaliyyət istiqaməti dahi Azərbaycan şair və dramaturqu Hüseyn Cavid və ümumiyyətlə cavidlər irsinə aid materialların toplanması, qorunması, tədqiqi və təbliğidir. Bu tələbdən çıxış edərək Hüseyn Cavidin əsərlərinin və onun yaradıcılığına həsr olunmuş araşdırmaların sistemləşdirilməsi və nəşr olunması da muzeyin elmi-tədqiqat işləri planında öz əksini tapır. Bu istiqamətdə muzeydə 2003-cü ildən üzübəri Hüseyn Cavidin poeziyası və dram əsərlərinin ayrı-ayrı nümunələrinin Azərbaycan və xarici dillərdə nəşri, ədibin əsərlərinin külliyyatının çapı həyata keçirilmişdir. Bununla yanaşı muzeydə çoxcildlik "Cavidşünaslıq" araşdırmalar toplusu tərtib edilmiş və H.Cavid yaradıcılığına həsr olunmuş müxtəlif monoqrafiyalar yenidən nəşrə hazırlanaraq çap olunmuşdur. Bununla yanaşı, muzeyin fondunda mahafizə olunan H.Cavidin oğlu, bəstəkar Ərtoğrul Cavid tərəfindən tədqiqata cəlb edilmiş, rəyləşdirilmiş xalqımızın qeyri-maddi mədəniyyət abidələri, zəngin folklor xəzinəsi çoxcildli toplu halında nəşr edilmişdir. Həmçinin böyük şairin qızı, muzeyin qurucusu Turan Cavidin ömür salnaməsi də onun şəxsi arxiv materialları əsasında ayrıca kitab halında hazırlanmış və nəfis şəkildə çap olunmuşdur. Bu nəşrlərin əksəriyyətinin tərtibçisi və ön sözünün müəllifi Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlıdır. Nəşrlərin hazırlanması, tərcüməsi, layihə təkliflərinin müəyyənləşdirilməsi, nəşrin redaktəsi və s. istiqamətlərdə Hüseyn Cavidin Ev Muzeyinin işçiləri ilə yanaşı, AMEA-nın həqiqi üzvləri İsa Həbibbəyli, Teymur Kərimli və b. da yaxından iştirak etmiş, məsləhət və tövsiyələrini vermişlər.

Hüseyn Cavidin əsərlərinin nəşri

Hüseyn Cavidin Ev Muzeyinin direktoru Turan Cavidin də redaksiya heyətində yer aldığı və 2003-cü ildə işıq üzü görən Hüseyn Cavid "Əsərləri"nin üç cilddə nəşrini müstəqillik illərində ədibin ilk mükəmməl nəşri hesab etmək olar. Şairin anadan olmasının 120 illiyi münasibəti ilə Azərbaycan Mədəniyyət Fondu Rəyasət Heyətinin qərarı ilə nəşr olunan bu toplu müəllifin 1982-1985-ci illərdə Turan Cavidin tərtibatı və filologiya elmləri doktoru, professor Əkrəm Cəfərin redaktorluğu ilə çap

olunmuş dördcildlik "Əsərləri" əsasında hazırlanmışdır. Baş redaktoru akademik Kamal Abdulla olan bu kitabların annotasiyasında da qeyd olunduğu kimi, müəllifin əsərləri redaktor tərəfindən, daha dəqiq söyləsək, Turan Cavid tərəfindən yazıldığı şəkildə bərpa olunaraq bu topluya daxil edilmişdir. Bundan əlavə, cildlərə salınan fotolar və əlyazmalar da Hüseyn Cavidin Ev Muzeyinin ekspozisiyasındandır (1).

Hüseyn Cavidin əsərləri 2005-ci ildə artıq beş cilddə çap olunmuşdur. Nəşrin tərtibçisi böyük şair və dramaturqun qızı, Hüseyn Cavidin Ev Muzeyinin direktoru Turan Cavid, redaktoru akademik Teymur Kərimli, ön sözün müəllifi isə filologiya elmləri doktoru, professor Yaşar Qarayevdir. Kitabın əvvəlində Turan Cavidin 19 mart 2004-cü ildə yazdığı "Bir neçə söz" başlıqlı yazı verilib. Kitabın nəşri zamanı əsərlərin imlasının qorunmasına xüsusi diqqət yetirilmişdir. T.Cavid qeyd edir ki, H.Cavidin 1958-ci ildən etibarən çap olunan kitablarının tərtibçisi olsa da, onların təhrifsiz çapına bu nəşrə kimi nail ola bilməmişdir (2, s.5). T.Cavid əvvəlki nəşrlərdəki başqa qüsurları da qeyd edir, məsələn, "Hərb və fəlakət" şeirinin ikinci hissəsinin buraxılması, "Məzlumlar üçün" adlandırılan şeirin tam adının verilməməsi və s. (2. s.6).

"Əsərlər" 2007-ci ildə bir daha nəzərdən keçirilərək yenidən nəşr olunmuşdur. Bu dəfə 5 cildliyin ön sözünü filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlı və akademik Teymur Kərimli yazmışlar.

Muzey H.Cavid əsərlərinin xarici dillərdə çapını da həyata keçirmişdir. 2007-ci ildə Hüseyn Cavidin şeirləri Azərbaycan və fransız dillərində "Məhəbbətdir ən böyük din" adlı kitabda nəşr edilmişdir. 2012-2013-cü illərdə "Şeyda" pyesi 10 dildə (rus, ingilis, alman, fransız, polyak, belarus, bolqar, Ukrayna, çex, yunan) çap olunmuşdur.

Muzeyin nəşrləri sırasında Cavidin ayrı-ayrı pyeslərinin kitabça halında çap versiyalarını da görə bilərik. Məsələn, 2010-cu ildə AMEA Hüseyn Cavidin Ev Muzeyi tərəfindən "Topal Teymur" pyesi (yazılmasının 85 illiyi münasibətilə) ayrıca çap olunmuşdur. Nəşrin tərtibçisi Hüseyn Cavidin Ev Muzeyinin direktoru, əməkdar mədəniyyət işçisi, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlı, redaktoru isə akademik Teymur Kərimlidir. G.Babaxanlı kitaba "Hüseyn Cavidin həyat və yaradıcılığı" adlanan geniş ön söz yazmışdır. Burada qüdrətli söz ustası H.Cavidin mövzu genişliyinə toxunulur və onun yaradıcılığının bu cəhəti yüksək qiymətləndirilir: "Öz dahiyanə əsərləri ilə Hüseyn Cavid Azərbaycan dramaturgiyasını istər mövzu, istər xarakter və obrazlar qalereyası, istərsə də xronotop baxımından olduqca zənginləşdirmiş, dramaturgiyamızı dar lokal məkandan çıxararaq qlobal məkana salmış, ümumbəşəri ideyaların təbliği ilə dünya səviyyəsinə qaldırmış, Azərbaycan dramaturgiyasının banisi M.F.Axundzadədən, dramaturgiya məktəbinin başqa nümayəndələri olan Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Cəlil Məmmədquluzadədən sonra bu janrın tarixinə yeni uğurlu səhifələr yazmışdır" (4, s.3-4). Ön sözdə H.Cavidin 1941-ci ildə

Tayşet rayonunun Şevçenko qəsəbəsində vəfat etməsi faktı da mənalandırılır. Bu hadisəni G.Babaxanlı belə qiymətləndirir: "Əlamətdardır ki, Azərbaycan ədəbiyyatının ən görkəmli simalarından biri olan H.Cavid qardaş Ukrayna ədəbiyyatının ən görkəmli simalarından biri olan Taras Şevçenkonun adını daşıyan qəsəbəyə pənah gətirmiş və məhz burada dünyasını dəyişərək əbədiyyətə qovuşmuşdur" (4, s.10). Burada Cavidin ictimai-mədəni fəaliyyətindən, yaradıcılığından ətraflı bəhs olunur, onun qəzəl və qəsidələri, hər bir pyesi barədə məlumat verilir. G.Babaxanlı Cavidin yaratdığı Topal Teymuru "özünü dərk etmiş tiran" adlandırır (4, s.18). "Səyavuş"dan danışan G.Babaxanlı bu əsərlə Firdovsinin verdiyi əhvalat arasındakı fərqi aradan keçən min ildə insan psixologiyasının dəyişməsi ilə izah edir (4, s.20). Ön sözdə nəzəri problemlər də diqqət mərkəzində saxlanılıb. Məsələn, G.Babaxanlı janrı barədə müxtəlif fikirlər səsləndirilən "Azər" əsərinin poema ilə mənzum dram arasında keçid mövqeyində duran poeziya nümunəsi olduğunu göstərir (4, s.21). "Xəyyam" əsərindəki bir cəhət müəllifin diqqətini cəlb edir, bu da türk hökmdarları Alp Arslan və Məlikşahın şeir və sənətə verdikləri dəyərdir. Ön söz müəllifi yazır: "Cavid bunun vurğulanmasına xüsusi fikir verir və sanki bundan bir türk şairi kimi qürur duyur, türk hökmdarının bəşər tarixi qarşısında xidmətini vurğulamaqla öz etnik mənşəyi ilə fəxr edir" (6, s.23).

Hüseyn Cavidin Ev Muzeyi eyni ildə Azərbaycan Respublikası "Kitab" cəmiyyəti ilə birlikdə "Cavid hikməti (seçmə aforizmlər)" adlı miniatür kitab çap etdirmişdir. Kitab ilk dəfə 2008-ci ildə çapdan çıxmışdı. Kitabın tərtibçiləri Gülbəniz Babaxanlı və İradə Tuliyeva, redaktoru isə Teymur Kərimlidir. Gülbəniz Babaxanlı kitaba yazdığı ön sözdə Hüseyn Cavidin əsərlərində hikmətli ifadələrdən geniş söz açmışdır. Ön sözdə H.Cavidin xalq müdrikliyi xəzinəsinə yaxınlığından da bəhs olunur (5, s.7). Kitabda H.Cavidin əsas hikmətli fikirlərinin onun şeirlərində ifadə olunduğu göstərilir (5, s.13), filosof-şairin hikmətinin mövzu dairəsindən, xeyir və şər mövzusunun bunlardan biri olduğundan söz açılır, eyni zamanda Cavidin məhəbbət fəlsəfəsi də xüsusi vurğulanır (5, s.19). Bununla yanaşı, H.Cavidin öz xalqının, türklərin taleyindən narahat olması və bunu öz əsərlərində ifadə etməsi göstərilir. Oxuyuruq: "Bu patriotizm motivi şairin bütün yaradıcılığından, eləcə də bu yaradıcılığın böyük bir hissəsini əhatə edən aforizmlərindən qırmızı xətt kimi keçir" (5, s.21). Qeyd etmək lazımdır ki, burada H.Cavidin təhsilə, maarifə yetirdiyi diqqətdən də söhbət açılır (5, s.22). H.Cavidin şeirləri ilə yanaşı, dram əsərlərində də seçilən hikmətli ifadələr kitabda yer alır. Göstərilir ki, pyeslərdə bu fikirlər obrazların dili ilə ifadə edilir (5, s.27). Cavid hikmətinin mövzu dairəsi haqqında aşağıdakı mühüm tezis qeyd olunur: "Bəzən elə də olur ki, böyük şair çox xəsisliklə verdiyi bir hikmət daxilində müxtəlif problemlərə toxunur, eyni bir mətn daxilində müxtəlif tendensiyanı, ən mürəkkəb emosiyalarını əks etdirir" (5, s.28). Məhz buna görə kitabda aforizmlərin mövzu cəhətdən qruplaşdırılmasına yox, beşcildlikdə verilmiş əsərlərin sırası ilə təqdiminə əməl olunmuş, aforizmlərin imlası da olduğu kimi saxlanmışdır (5, s.33). Kitabda əvvəlcə şeirlərdən, sonra "Azər"

poemasından, daha sonra isə dram əsərlərindən: "Ana", "Maral", "Şeyx Sənan", "Şeyda", "Afət", "Peyğəmbər", "Topal Teymur", "Knyaz", "Səyavuş", "Xəyyam", "İblisin intiqamı", sonda isə məqalə və məktublardan olan aforizmlər öz əksini tapmışdır.

Hüseyn Cavidin Ev Muzeyi iki ədib Hüseyn Cavid və Abdulla Şaiqin "Ədəbiyyat dərsləri" adlı dərsliyini 2010-cu ildə nəşr etdirmişdir. Kitabın transliterasiyası, ön söz və lüğətin müəllifi Hüseyn Cavidin Ev Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlı, redaktorları isə akademik Teymur Kərimli və filologiya elmləri doktoru Gülşən Əliyevadır. Kitaba 32 səhifəlik lüğət əlavə edilmişdir.

1919-cu ildə yazılıb çap olunmuş bu kitabda həm ədəbiyyat nəzəriyyəsi məlumatları, həm də bədii əsər yazmağın yolları verilmişdir. G.Babaxanlının yazdığı "Dəyərini itirməyən dərslik" adlı ön sözdə kitabın ilk çapının iki nüsxəsinin AMEA Hüseyn Cavidin Ev Muzeyinin fondunda saxlanıldığı qeyd olunur (3, s.3). Ön sözdən o da aydın olur ki, bu kitab ilk ədəbiyyat nəzəriyyəsi dərsliklərindəndir. G.Babaxanlı bu barədə yazır: "Aydındır ki, ədəbiyyat nəzəriyyəsi dərsliyi sahəsində ilk sistemli əsər yazmaq cəhdi kimi, bu dərslik müəyyən qüsurlardan da xali deyildir və elə buna görədir ki, müasir elmi tələblər baxımından orada müəyyən sistemsizlik və dağınıqlıq da aşkar etmək mümkündür. Ancaq bütün bunlar, müəlliflərin xoş məramı və xalqa göstərdikləri xidmətin böyüklüyü qarşısında sönük görünür" (3, s.4). Ön sözdə diqqət yetirilən bir məsələ də dərsliyin bəzən səhv olaraq "Qəvaidi-ədəbiyyə" ("Ədəbiyyat qaydaları") adlandırılmasıdır ki, G.Babaxanlının fikrincə, bu bəzi nüsxələrin naqisliyi ilə bağlıdır (3, s.5).

H.Cavid və A.Şaiqin dərsliyin əvvəlində verdiyi "Bir-iki söz" adlı hissədə kitabın yazılmasında Məhyəddin bəyin "Yeni ədəbiyyat" kitabı və başqa əsərlərdən istifadə edilməklə yazıldığı göstərilir (3, s.6). Fikrimizcə, bunun səbəbi dərsliyin hazırlandığı dövrdə Azərbaycanda belə bir kitaba böyük ehtiyacın olması və müəlliflərin vaxt məhdudiyyəti olmuşdur.

Artıq qeyd etdiyimiz kimi, Muzeydə Cavid irsinin təbliği istiqamətində "Cavid hikməti: seçmə aforizmlər" kitabı yenidən 2016-cı ildə Azərbaycan və ingilis dillərində çap olunmuşdur. Kitab Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər fondunun maliyyə yardımı və AMEA Hüseyn Cavidin Ev Muzeyinin əməkdaşı Fəridə Əliyevanın rəhbərliyi ilə "Məktəbli yeniyetmələr arasında Hüseyn Cavid yaradıcılığının təbliği" adlı qrant layihəsinə əsasən nəşr olunmuşdur. Kitabın tərtibçisi Hüseyn Cavidin Ev Muzeyinin direktoru Gülbəniz Babaxanlı, elmi məsləhətçi akademik İsa Həbibbəyli, redaktoru akademik Teymur Kərimli, aforizmləri ingilis dilinə tərcümə edənlər isə Nigar Babaxanova və Fəridə Əliyevadır. Kitabın ön sözünün müəllifi filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlıdır. Ön sözdə H.Cavidin fəlsəfi və ictimai fikirləri barədə məlumat verilir. H.Cavidin türklükdən ayrılmadığı, ancaq müasirlərinin bu ideala münasibətinə tənqidi yanaşdığı qeyd olunur: "O da var ki, böyük şair və mütəfəkkir türklüyü ideallaşdırmır, əksinə, ona tənqidi yanaşır,

qəhrəman əcdadın ruhunu bacarıqsız xələflərin incitdiyini də acı-acı etiraf etməyi yaddan çıxarmır" (6, s.5). Kitabda 2010-cu il nəşrindəki ardıcıllıq gözlənilmiş, ancaq bölgü bir qədər fərqli şəkildə aparılmışdır. H.Cavidin şeirlərindən verilmiş aforizmlər "Keçmiş günlər", "Bahar şəbnəmləri", "Unutulmuş şeirlər", "Müxtəlif şeirlər" başlıqları altında toplanmış, "Azər" əsərindən verilmiş aforizmlər "Poema" adı altında təqdim olunmuş, dram əsərlərindən götürülmüş aforizmlər isə "Əsərlər" adı altında toplanmış, ayrı-ayrı dram əsərlərindən olan aforizmlərin altında onların hansı əsərdən götürüldüyü qeyd olunmuşdur. Sonda isə görkəmli şəxslərin (ümummilli lider Heydər Əliyev, tənqidçi Hənəfi Zeynallı, akademik Məmmədcəfər Cəfərov, xalq artisti Mehdi Məmmədov, şair Mikayıl Müşfiq, Cəfər Cəfərov) Hüseyn Cavid haqqında fikirləri verilmişdir.

Hüseyn Cavidin Ev Muzeyinin nəşrlərindən biri də "Sözləri Hüseyn Cavidindir" adlı not kitabıdır. Kitab 2018-ci ildə nəşr edilmişdir. İdeya müəllifi akademik Teymur Kərimli, tərtibçi və müəllif isə Hüseyn Cavidin Ev Muzeyinin direktoru, əməkdar mədəniyyət işçisi, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlıdır. Kitabda müxtəlif bəstəkarların Hüseyn Cavidin şeirləri və dram əsərlərinə yazdıqları musiqi əsərləri çap olunmuşdur.

Kitabda Fikrət Əmirov, Cahangir Cahangirov, Ramiz Mirişli, Nazim Quliyev, Oqtay Kazımi, Aydın Əzimov, Eldar Mansurov, Elnarə Dadaşova, Dadaş Dadaşov, Sərdar Fərəcov, Məmməd Məmmədov, Məmməd Quliyev, Cavanşir Quliyev, Yaşar Xəlilov, Samir Əliyev, Məmməd Cəfərov və Rəşid Şəfəqin bəstələdiyi musiqilərin not yazıları verilmişdir. Kitabda yer alan mahnılar Cavidin "Şeyx Sənan", "Şeyda", "Xəyyam", "Topal Teymur", "Səyavuş" pyeslərindən parçalar və "Xəyala döndü", "Bizim dağlar", "Çoban türküsü", "Niyə getdin", "Mənim tanrım", "İlk bahar", "Dəniz", "Bizim ellər" və s. şeirləri əsasında, Rəşid Şəfəqin operası isə "Ana" pyesi əsasında yazılmışdır. Toplunun öz sözündə tərtibçi G.Babaxanlı belə bir mühüm qənaətə gəlir: "Hüseyn Cavid yaradıcılığının ilahi şeiriyyəti onun əsərlərinə ilahi musiqi yazılmasına təkan vermişdir" (7, s.4). Buradan da görünür ki, Cavidin əsərlərinə yazılan mahnıların gözəlliyi bilavasitə bu əsərlərin özlərinin bədii gözəlliyi və şeiriyyəti ilə bağlıdır.

Göründüyü kimi, AMEA Hüseyn Cavidin Ev Muzeyi ilk növbədə böyük şair və dramaturqun əsərlərini təbliğ etmək, daha geniş oxucu kütləsinə çatdırmaq məqsədi ilə nəşrə hazırlamışdır. Bu sahədə muzeyin ən böyük nailiyyəti isə müəllifin dil-üslub xüsusiyyətlərini qoruması, əsərlərini olduğu kimi bərpa etməsi olmuşdur.

ƏDƏBİYYAT

1. Cavid H. Əsərləri, 3 cilddə, I cild, Bakı: AMF, 2003, 504 s.
2. Cavid H. Əsərləri. 5 cilddə, I cild, Bakı: Lider, 2005, 256 s.

3. Cavid H., Şaiq A. Ədəbiyyat dərsləri. Bakı: Çaşıoğlu, 207 s.
4. Cavid H. Topal Teymur. Bakı: Elm, 2010, 104 s.
5. Cavid hikməti (seçmə aforizmlər). Bakı: 2010, 244 s.
6. Cavid hikməti: (seçmə aforizmlər). Bakı: Elm və təhsil, 2016, 176 s.
7. Sözləri Hüseyn Cavidindir (not kitabı). Bakı: Elm və təhsil, 2018, 288 s.

Konul Maharramova

THE MATTERS OF PUBLISHING HUSEYN JAVID'S WORKS IN ANAS HUSEYN JAVID'S HOME MUSEUM

The main direction of activity in ANAS Huseyn Javid's Home Museum is to gather, protect, and explore the materials about Huseyn Javid's legacy. In this direction, beginning from 2003, several examples of Huseyn Javid's poetry and plays were published in Azerbaijani and foreign languages, and the collection of his works was published. The compiler and the author of preface in most of these publications is Gulbeniz Babakhanli, the director of the Museum, Honored Cultural Worker, doctor of philology. The preparation, translation, offering the project, editing, etc. were not done only by the workers of Huseyn Javid's Home Museum, but the full members of ANAS including Isa Habibbayli, Teymur Kerimli, etc. also participated in these works, gave their recommendations.

Sevinc Dadaşova
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
doktorant
Sevadadashova1111@gmail.com

ZAMANIN ƏDALƏTİ

Eyni bir ağacın hissələri idilər. Biri dərinə çox dərinə getmiş, soy kökü qədər qədim, torpağı irili - xırdalı şaxələri ilə var qüvvəsi ilə qucaqlamış kök, digəri isə əzəməti ilə, hər tərəfə kölgə salan budaqları ilə məğrur duran gövdə. Bəli, bu ağac bir millətin yüz ildə bir yetirdiyi iki dahinin ruhən buluşması idi. Nə bağlayırdı bu iki dahini bir-birinə? İyirminci əsrin müxtəlif dönəmlərində yaşamış, həyat yolları kəsişməmişdi belə. Bu ağacı bu qədər canlı tutan, onu bu qədər cəsarətli, qorxmaz edən nə idi? Hardan alırdı bu gücü? Ətrafında baş verən fırtınalar, qasırğalar, tufanlar sanki yan keçirdi bu ağacdan. "Öldürməyən zərbə gücləndirir" deyə bir məsəl var. Hər çətinlikdən sonra daha da çox şaxələnir və güclənirdi. Sanki gizli bir qüvvə inadla yaşadırdı bu ağacı. Boyüklüyü böyük qılan, ucalığı uca tutan sevgi idi. Məhz xalqına, millətinə olan böyük sevgi. Xalqından alırdı bu gücü. Onun var olmasına səbəb olan xalqından. Ədəbiyyat və siyasət! İki müxtəlif, bir-birindən fərqli bu peşə sahiblərinin ortaq nöqtəsi sevgi idi. Acılı- şirinli ötüb keçən, həyatın son anlarına qədər bir damla belə azalmayan vətən sevgisi. Onları bir - birinə yaxınlaşdıran ən önəmli dəyər hər ikisinin də xalqın özünün milli-tarixi keçmişini öyrənməsinə, soy kökünü tanıyıb, əsaslı şəkildə dərk etməsinə, onunla qürur duymasına çalışmaları idi. Cavidin əsərlərində milli özünüdərk prosesi dərin vüsət tapmışdır. Ulu öndərin isə siyasəti məhz bu yöndə idi. Nahaqdan deyilməmişdi bu söz. "Mən fəxr edirəm ki, azərbaycanlıyam". Hüseyn Cavid əsərləri ilə, Heydər Əliyev isə bu səpkili əsərlərin daha çox yazılıb geniş kütləyə çatdırılması ilə xalqına xidmət etməklə mükəlləf idilər.

Xalqı ilə, vətəni ilə, maddi və mənəvi sərvəti ilə qürur duyan, etnik mənsubiyyəti ilə fəxr edən, var olan heç bir sahəni qayğısız buraxmayan dövlət başçısının ədəbiyyata münasibəti də bir başqa idi. Bu yalnız onun mütaliəni sevməsi və ya ədəbiyyata önəm verməsi ilə bağlı deyildi. Ulu öndər əmin idi ki, böyüməkdə olan nəslin tərbiyəsində, vətəndaş kimi formalaşmasında ailə qədər ədəbiyyatın da rolu böyükdür. Dövlətin idealogiyası, xalqın mentaliteti məhz ədəbiyyat vasitəsi ilə gənclərə aşılanır. Ona görə də xalqa keçmişini anladan, qəhrəmanlarını tanıdıb sevdirən, tarixi ilə qürur duymasına zəmin yaradan əsərlərin yazılmasını zəruri hesab edirdi. Şübhəsiz bu ruhda tərbiyə olunan kimsə tarixinə, xalqına xilaf çıxa bilməz.

Azərbaycan ədəbiyyatını əsl sərvət kimi görürdü Ulu öndər. Haqlı olaraq dünya ədəbiyyatının önəmli bir parçası hesab edirdi onu. Çünki istər ərəb, istər fars və ya türk ədəbiyyatının ən dərin cığırları soydaşları tərəfindən salınmışdı. Dövlət başçısı nitqlərindən birində ədəbiyyat haqqında fikirlərini belə ifadə etmişdir: "Ədəbiyyat bizim xalqımıza çox böyük faydalar gətiribdir. Ədəbiyyatımız bizim böyük milli sərvətlərimizdən biridir. Biz bununla fəxr etməliyik. Şəxsən mən həmişə belə hesab etmişəm, bu gün də belə hesab edirəm, daim belə düşünəcəyəm. Hesab edirəm ki, bizim ədəbiyyatımızın, bədii sözün, yazıçı sözünün cəmiyyətə, millətə, xalqa təsiri böyükdür". [4.] Dövlət başçısı bilirdi ki, məhz elm, mədəniyyət və ədəbiyyat yolu ilə də beynəlxalq arenada dövləti və xalqı layiqincə tanıdıb və sevdirmək mümkündür. Ona görə də üzərində bütün şərq dünyasının gözü olan Nizami, Füzuli, Nəsimi, "Dədə Qorqud" kimi incilərimizin yubileylərini keçirərək birdəfəlik sahiblik nöqtəsini qoymuş və bunların hansı torpağa aid olduğunu hər kəsə xatırlatmışdır. "Kitabi-Dədə Qorqud" bütün türk dünyasına məxsusdur. Onun Vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır, müstəqil Azərbaycan dövlətidir" və ya "Kitabi-Dədə Qorqud" bizim ana kitabımızdır. Biz fəxr edirik ki, Dədə Qorqud bizim əcdadımızdır. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi abidəmiz vardır. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi ulu əcdadımız vardır".[5] O, bu sözləri dövlət başçılarının da qatıldıqları Türkdilli Dövlətlər Birliyinin Zirvə toplantısındakı yubiley mərasimində dilə gətirmişdir. Kökü möhkəm olan ağacın heç bir fəlakətdən qorxusu olmaz. Ona görə də dövlət başçısı istər ədəbiyyatda, istərsə də siyasətdə olan xələflərin unudulmaması, sevilməsi və qorunması üçün əlindən gələni edirdi. Tarixi əsərlərin yazılmasına, filmlərin çəkilib xalqa ən gözəl şəkildə təqdim edilməsinə münasibəti birmənalı idi. Təsadüfi deyil ki, məhz bu gün də alimlərimiz H.Əliyevi xalqa örnək olaraq göstərirlər. "Zaman keçdikcə, Azərbaycan torpağında, Türk dünyasında və ümumiyyətlə, dünyada insan nəsilləri bir-birini əvəzlədikcə hər nəslin öz Heydər Əliyevi olacaq, hər nəsil öz Heydər Əliyevinə öz dünyagörüşü, öz problemləri baxımından yanaşacaq və onu narahat edən suallara bu nəhəng şəxsiyyətin çoxyönlü fəaliyyət arenasında cavablar tapacaq. Bu, təkcə Heydər Əliyevə aid olan bir fenomen deyil, öz sahəsinin klassiki, ən böyük şəxsiyyəti olan bütün dahilər üçün xarakterikdir". [2, s.18]

Heydər Əliyevin Cavidlə tanışlığı uşaqlıq illərinə gedib çıxır. Hüseyn Cavidin çalışdığı "Rüşdiyyə" məktəbində təhsil almış Lətif Hüseynzadə gənc Heydərə Azərbaycan dili və ədəbiyyatdan dərs deyirdi. "Lətif Hüseynzadə danışır ki, onun sevimli şagirdi Cavidin "İblis" və "Şeyx Sənan" pyeslərindən istənilən parçanı çaşmadan əzbərdən söyləyə bilirdi". [1,S.66] H.Cavidin əsərlərindəki xalqına olan böyük məhəbbət, bağlılıq illər ötdükcə kiçik Heydərin ürəyinə yol tapmış və tədricən bu əsərlərə olan sevgi onun vətən idealogiyasının təməl daşlarından olmuşdur. Bu tipli əsərlərin milli bədii düşüncənin formalaşmasına təkan verdiyini görərək dövlət başçısı Hüseyn Cavid yaradıcılığına belə münasibət bildirirdi: "Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti

Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur". [4, s. 334] Ulu öndərin Cavid haqqında söylədiyi bu sözlər, bu düşüncələr onun Cavid taleyinə laqeyd qalmayacağına bir işarə idi. Hər zaman Cavid irsinə diqqət göstərən dövlət başçısı keçən əsrin 80-ci illərinin əvvəllərində şairin adının yenidən gündəmə gəlməsinə, əsərlərinin yenidən nəşr olunmasına, səhnələrə ayaq açmasına səbəb olan bir addım atdı. Heydər Əliyev Azərbaycan KP MK-nin birinci katibi olduğu zaman 1981-ci ildə "Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında" qərar qəbul etdi. Dövrün tələblərini nəzərə alsaq "Pantürkist" adıyla represiya olunmuş bir şairin nəşinin qalıqlarının illərdən sonra vətənə gətirilməsi çox qəliz məsələ idi. Buna baxmayaraq Ulu öndər qarşısına qoyduğu məqsədi layiqincə yerinə yetirmişdi. "1982-ci ildə Hüseyn Cavidin cənazəsini uzaq Sibirdən Azərbaycana gətirmək asan iş deyildi. Bu, böyük iradə, cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi. Mən bunu etdim...". [4, s. 333] Bu sözləri dövlət başçısı 1996-ci il oktyabr ayının 29-da Naxçıvanda H.Cavidin məqbərəsinin açılışı zamanı söyləmişdir. Müəyyən səbəblərdən məqbərənin tikintisi gecikdirilmiş olmasına baxmayaraq H.Əliyev ikinci dəfə, 1993-cü ildə yenidən hakimiyyətə gəldikdən sonra bu qərarın icrasını öz nəzarəti altına götürür və nəticədə Azərbaycan ədəbiyyatına misilsiz xidmətləri olan Hüseyn Cavidin məzarı üzərində möhtəşəm memarlıq xatirə kompleksi ucaldılır. Bu məqbərə altında Cavid əfəndi öz ailəsi ilə, dünyadan nakam köçmüş oğlu Ərtoğrul və sadiq ömür - gün yoldaşı Mişginaz xanımla bərabər hüzura qovuşur. Ulu öndərin bu təşəbbüsü şairə qarşı olan dərin hörmətinin göstərgisi idi. Bu yalnız Cavidə olan münasibət deyildi. Xalqına olan bağlılığın və himayənin təzahürü idi. Şairin qızı Turan xanım bu hadisəni belə qiymətləndirir: "Repressiya qurbanlarından yalnız birinin cənazəsi gətirildi. Şübhəsiz ki, bu işdə yeganə bir şəxsin yüksək, müstəsna xidmətini və böyük ürək sahibi olmasını qeyd etmək lazımdır. Vəzifə borcu hələ hər şey demək deyil. Vədlər çox olurdu. Sonralar, bu vədlər Cavidlə bağlı tədbirə çevrilə bilmirdi. Bu gün qarşısında durduğumuz bu türbə vaxtilə ayrı-ayrı məzarlarda, ayrı-ayrı şəhərlərdə uyuyan şəxslərin bir yerdə, bir qütb altında qovuşmaları, zənnimcə, qeyri-adi hadisədir. Cavidə bundan böyük məhəbbət, bundan böyük ehtiram, sevgi ola bilməz". [2,s124] İctimai-siyasi mühitdə böyük həyəcan doğuran bu hadisə Azərbaycan ziyalısını, bütünlükdə Azərbaycan xalqını yaxşı anlamda sarsıtmışdı. Xalq şairi Bəxtiyar Vahabzadə o möhtəşəm günlə bağlı duyğularını belə misralara tökmüşdür:

Şeirin sinə gərdi burulğanlara
Ölüb məzarında yüz yaşa doldun.

Vücudun torpağa dönəndən sonra
Ana torpağa qayıdan oldun

Sən bir qüvvətə bax, qüvvət içində
Yüz ömür calandı ömrünə, Cavid.
Gələcək nəsillər heyrət içində
Minnətdar olacaq bu günə, Cavid. [6, s. 5]

Bəxtiyar Vahabzadənin də dediyi kimi bu gün də hər kəs o möhtəşəm günə və o günün memarına minnətdardır.

Heydər Əliyevin təşəbbüsü ilə AK PMK-nin 21 iyul 1981-ci ildə "Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında" qəbul etdiyi qərarda Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidin xatirə muzeylərinin yaradılması, Bakı şəhərinin İstiqlaliyyət (keçmiş Kommunist) küçəsində Hüseyn Cavidin 1920-ci ildən 1937-ci ilədək yaşamış olduğu 8 saylı evin fasadının təzələnməsi və ona yazıçının xatirə lövhəsinin vurulması göstərilirdi. Bu qərar əsasında Mədəniyyət Nazirliyininin 14 avqust 1981-ci il tarixli 228 saylı əmri ilə Hüseyn Cavidin 100 illik yubileyinin keçirilməsi və 15 dekabr 1981-ci il tarixli 522 saylı əmri ilə Bakı şəhərində Hüseyn Cavidin memorial muzeyinin açılması nəzərdə tutulurdu. Lakin 1982-ci ildə Heydər Əliyev Moskvaya getdikdən sonra bu qərarın icrası ləngidi, müəyyən səbəblərdən təxirə salındı. İki ildən sonra 1984-cü il iyun ayının 9-da Hüseyn Cavidin Naxçıvandakı Ev Muzeyinin açılışı oldu. Muzey bir müddət "Hüseyn Cavidin Ev Muzeyi" adı altında fəaliyyət göstərmiş, 2015-ci ildən isə adı dəyişdirilərək "Hüseyn Cavidin Ev Muzeyi və Xatirə Kompleksi" adlandırılmışdır. Amma Bakıdakı Ev Muzeyinin açılışı bir qədər ləngidi. Sənəddə göstərilən binada Əlyazmalar İnstitutu fəaliyyət göstərdiyi üçün bəzi çətinliklər meydana gəlmişdi. Əvvəl "Elə bu həyətdə, keçmiş şərqşünaslıq fakültəsinin yerləşdiyi binada iki otaq ayırıb verdilər. İlk dəfə olaraq Cavid muzeyi orada yerləşdi". [6,s.530] Lakin 1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ilə başqa sahələrdə olduğu kimi bu işdə də canlanma baş verdi. Ölkənin müharibə şəraitində olmasına baxmayaraq, bu məsələ köklü şəkildə öz həllini tapdı. Çox keçmədən yarımçıq qalmış qərarlar qüvvəyə mindi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 iyul 1995-ci il 160 saylı qərarı ilə Hüseyn Cavidin Ev Muzeyi yaradıldı və Azərbaycan Elmlər Akademiyasının tabeliyinə verildi. Bir müddət sonra 23 oktyabr 2002-ci ildə Prezident Heydər Əliyev "Hüseyn Cavidin 120 illik yubileyi haqqında" sərəncam imzaladı. Hüseyn Cavidin 120 illik yubileyi günündə 24 oktyabr 2002-ci ildə ölkə prezidentinin də iştirakı ilə şairin Ev Muzeyinin rəsmi açılışı oldu.

Bəzən "gecikmiş ədalət" deyə bir kəlimədən istifadə edirik. Əslində kim bilir ki zamanını?! Bəlkə də elə gecikmiş sandığımız zamandır ədalətin əsl təzahür edəcəyi an. Sadəcə icraçısını və

dönəmini gözləyirmiş üzə çıxmaq üçün. Sanki Cavidin acı taleyinin çarəsizcə imdad dilədiyi, əzilən Türk kimliyinin, əsərlərində ümidlə ucaltdığı qurtarıcısı oldu Ulu öndər.

ƏDƏBİYYAT

1. Axundova Elmira. Heydər Əliyev, Şəxsiyyət və Zaman.Bakı, "Ozan", 2007, 352 səh. S66.
2. Babaxanlı Gülbəniz. "Heydər Əliyev və Hüseyn Cavid." Bakı, Proqress, 2013, 18s. 160 səh.
3. Babaxanlı Gülbəniz. "Hüseyn Cavidin Ev Muzeyi: AMEA nəzdində fəaliyyətin 25 ili." 525-ci qəzet-2020.-15 iyul.
4. Heydər Əliyev "Ədəbiyyatın yüksək borcu və amalı." Bakı, "Ozan" 1999. 496səh.
5. Həbibbəyli İsa. "Ədəbiyyatın yüksək amalı və böyük borcu". ZİM.AZ-2020.- 5 may.
6. Hüseynov Rafael. Əbədi Cavid. Bakı, "Nurlan", 2007. 840səh.S530.

Sevinj Dadashova

JUSTICE OF THE TIME

The article examines the manifestation of divine justice in the bitter fate of the great Javid. His house-museums have been opened in Baku and Nakhchivan, his works are being republished, his 100th and 120th birthday is being celebrated. The initiator of all this, the Great Leader Javid, with his attention and care for his legacy, is seeking to establish delayed justice.

Aygün Amanəliyeva
AMEA İ.Nəsimi adına Dilçilik İnstitutu
doktorant
amaneliyeva@mail.ru

HÜSEYN CAVİD DRAMATURGİYASINDAKI KƏMİYYƏT MƏZMUNLU VAHİDLƏRİN MÜASİR AZƏRBAYCAN DİLİNİN VƏ DİGƏR TÜRK XALQLARININ LÜĞƏT TƏRKİBİNİN ZƏNGİNLƏŞMƏSİNDƏ ROLU

Çoxəsrlik Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini zənginləşdirən qüdrətli söz ustası Hüseyn Cavid dərin hikmətli və fəlsəfi poeziyası, təkrarsız dramaturji əsərləri ilə Azərbaycanda milli şüurun intibahına xidmət göstərmişdir. O, Azərbaycan mədəniyyəti tarixində fəxri yer tutan görkəmli sənətkarlardan biri, sənətimiz tarixinə əlvan, romantik səhifələr yazmış şair və dramaturqdur. Minillik Azərbaycan ədəbiyyatının növbəti inkişaf mərhələsi sayılan XX əsr Azərbaycan romantizmi Hüseyn Cavidin adı ilə bağlıdır. Onun yaradıcılığındakı romantik coşğunluq türk millətinin sabahına olan sonsuz inamdan qidalanırdı. Azərbaycan ədəbiyyatında ilk mənzum pyeslərin yaradıcısı olan monumental-romantik sənətkarın əsərləri 1920-30-cu illərdə səhnəmizin inkişafında əvəzsiz rol oynamışdır. Hüseyn Cavid insanpərvərlik, həqiqət, ədalət, sədaqət, mərdlik, gözəllik kimi nəcib yüksək bəşəri keyfiyyətlər tərənnüm edən, istismar dünyasına, dini xurafata sonsuz nifrət bəsləyən görkəmli söz ustadı, ədəbiyyatımıza gözəl səhnə əsərləri, möhtəşəm faciələr bəxş edən böyük humanist sənətkardır. Hüseyn Cavid yaşadığı cəmiyyətin, bütövlükdə insanlığın problemlərini əks etdirməyə can atdığı üçün onun mövzuca heç biri digərini təkrarlamayan əsərlərində dünyanın mahiyyətinə varılır, həyatın, xilqətin fəlsəfi dərkinə çalışılır.

Hüseyn Cavid şeir və dramaturgiyamızda yeni dil və üslub yaradan, mənzum faciə janrının əsasını qoyan söz ustasıdır. Onun poeziyasında və mənzum dramlarında Azərbaycan şeirinin bütün formalarından istifadə edilmişdir. Hüseyn Cavidin ədəbi təcrübəsindən sonralar mənzum dram əsərləri yaradan dramaturqlarımız, xüsusilə **Səməd Vurğun** istifadə etmişdir. Onun həyatı və tərcümeyi-halı sağlığında **Abdulla Şaiq**, **Hənəfi Zeynallı**, **Əli Sultanlı, Məsud Əlioğlu** və başqa müəlliflər tərəfindən qələmə alınmışdır [1, səh. 56]. Hüseyn Cavid haqqında yazılmış məqalələrdə "romantizm" və "romantik" terminlərini işlədən ilk tənqidçilərindən biri Hənəfi Zeynallı olub.

Hüseyn Cavid milli romantizmimizdə tragik xarakterlərin, romantik qəhrəmanların və dramatik konfliktlərin yeni tipini yaratmışdır. Dramaturqun faciələrində tragik konfliktlər "bəşəriyyətçilik" və

"ümumi məhəbbət" ideyaları, humanizm və maarifçilik ideyaları cəbhəsindən həll edilmişdir. Onun poeziyasında romantika ilə realizmin vəhdətini görürük. Görkəmli italyan filosofu və şairi **Cordano Bruno** demişdir:*"Həqiqət yolu çətin yoldur. Odur ki, çox az adam bu yolla qədəm qoyur. Amma bu yolun zirvəsinə çatanların qarşısında son dərəcə gözəl bir mənzərə açılır".* Hüseyn Cavid məhz belə bir həqiqətpərəst şair və filosof idi: *"Əsiri olduğum bir şey varsa, o da həqiqət və məhəbbətdir!"*. Həqiqətpərəstlik və ədalət şairin estetik idealı, sənətinin mayasıdır [5, səh.35-59].

Hüseyn Cavidin ədəbiyyat və səhnəmizə bir-birinin ardınca verdiyi "**Ana**", "**Şeyx Sənan**", "**Uçurum**", "**Şeyda**", "**İblis**", "**Afət**", "**Peyğəmbər**", "**Topal Teymur**", "**Knyaz**", "**Səyavuş**", "**Şəhla**", "**Telli saz**", "**Xəyyam**" dramları, "**Azər**" epik-dramatik poeması Azərbaycanın ədəbi-mədəni və teatr həyatında yeni hadisəyə çevrilmiş, Azərbaycan dramaturgiyasının və teatrının inkişafına təsir göstərmişdir. İ.Cahangirov: *"Cavid teatrı Azərbaycan teatrının ayrılmaz tərkib hissəsidir. Cavid teatrı müasir Azərbaycan teatrının və dramaturgiyasının formalaşması və inkişafında müstəsna rol oynamış"* terminini ilk dəfə Azərbaycan teatrşünaslığına gətirənlərdən biri olmuşdur [5, səh.23-41]. Böyük şair-filosofun yaradıcılığında tərbiyə, insanlıq, mənəvi kamillik, ideallıq, insan və əxlaq, sülh və müharibə, cəmiyyət və şəxsiyyət, humanizm, inam və əqidə, gözəllik və eybəcərlik, ülvilik və faciəvilik, tarixilik və müasirlik və sair fəlsəfi-estetik kateqoriyalar haqqında öz baxış və fikirləri vardır. Romantik yazıçı olan Cavid yaradıcılığının mərkəzində insan, onun daxili aləmi, qəlb dünyası, hiss və həyəcanları, düşüncə və iztirabları durur. Hegelin dediyi kimi: *"Romantiklərdə qəlb dünyası xarici dünya üzərində qələbə çalır"*. Hüseyn Cavid bəşərdə məhz insanlıq hissinin, qəlb həyatına məxsus incəliklərin əsas yer tutmasını arzulayırdı. İnsanlığın ideal dərəcədə mənalı inkişafı üçün isə məhəbbəti, böyük insan eşqini yüksək tutmağı vacib sayırdı. Onun fikrincə sirdaşlıq, mənəvi qardaşlıq və könül birliyi yalnız o zaman mümkün olacaqdır ki, insan öz ləyaqətini və vüqarını başqalarını alçaltmaq və hörmətdən salmaq hesabına yüksəltməsin, əksinə, başqalarının iztirablarını, ürək ağrılarını yüngülləşdirmək və aradan qaldırmaq naminə öz varlığını əzablara qurban versin. Yaradıcılığı boyu Cavid nəyi tərənnüm etmiş, nəyi axtarmışdır? Bu suala yazıçının özü cavab versin: *"Əsiri olduğum bir şey varsa, o da həqiqət və yenə həqiqətdir."* Bütün böyük sənətkarlar kimi, Hüseyn Cavid üçün də həqiqətin ancaq bircə mənası vardır ki, bu da öz doğma xalqını azad, xoşbəxt və mədəni görmək, ana Vətənə xidmət etmək arzusu idi. Gəncliyində dostlarından biri olan Qurbanəli Şərifzadəyə göndərdiyi məktubda Cavid yazırdı: "*... indi əsl məqsəd Vətənə xidmət, həm də layiqincə xidmət etməkdədir"* [5, səh.59].

Hüseyn Cavidin tarixi dramlarını təhlil edərkən onlarda təsvir edilmiş epoxanı, dövrün ictimai-siyasi və tarixi hadisələrini, fəlsəfəsini, ictimai fikir axınlarını, tarixi şəxsiyyətlər haqqında məlumat və həqiqətləri mükəmməl bilmək lazımdır. Bunsuz dramaturqun həmin əsərlərdə irəli sürdüyü

konsepsiyaları, fəlsəfi-estetik problemləri, tarixilik və müasirliyin nədən ibarət olmasını bilmək, təhlil etmək və qiymətləndirmək mümkün deyildir [5, səh.26].

Hüseyn Cavidin iyirminci-otuzuncu illərdə tarixi, inqilabi və aşiqanə-fəlsəfi mövzularda yazılmış pyesləri bütün türk xalqları mədəniyyətinin inciləridir. Müasir Azərbaycan dilinin və digər türk xalqlarının lüğət tərkibinin zənginləşməsində Hüseyn Cavid dramaturgiyasındakı kəmiyyət məzmunlu vahidlərin rolu olduqca danılmazdır. Hüseyn Cavidin əsərlərində əsas və köməkçi nitq hissələrində öz əksini tapan kəmiyyət məzmunlu vahidlərdən geniş istifadə edilmiş, ibrətamiz, müdrik və hikmətli sözlər, eləcə də frazeloji birləşmələr ilə zəngin olan mükəmməl sənət əsərləri yaradılmışdır. Onun dünya ədəbiyyatında əfsanəvi İblis surətini ustalıqla canlandırdığı "**İblis**" faciəsində; peyğəmbərin dahiyanə obrazının parlaq əksini tapdığı "**Peyğəmbər**"; inqilabi mözuda yazılmış "**Knyaz**" dramlarında; fars-tacik şairi Əbülqasim Firdovsinin 1000 illik yubileyinə həsr edilmiş "**Səyavüş**" mənzum faciəsində; şərqin qədim və ziddiyyətli keçmişini bir şair-filosofun timsalında tərənnüm etdiyi, əsrinə sığmayan şairin həyat mübarizəsi əsərin əsas süjet xəttini təşkil etdiyi və ən poetik, ən şairanə pyesi olan "**Xəyyam**" [2;3;4;5] və digər əsərlərində öz əksini tapan zəngin *kəmiyyət məzmunlu vahidlər* buna sübut ola bilər. Bu əsərlərə nəzər salsaq -lar, -lər kəmiyyət şəkilçilərdən geniş istifadə olunduğunu, müxtəlif zəngin kəmiyyət məzmunlu vahidlərin, topluluq, müəyyənlik və qeyri-müəyyənlik bildirən kəmiyyət məzmunlu isimlərin işləndiyini görə bilərik.

Hüseyn Cavidin "**İblis**" faciəsi müsəlman Şərqi ədəbiyyatında, dünya demonizm poeziyasında yeni ədəbi hadisədir. "İblis" dünya demonizm ədəbiyyatında Hüseyn Cavid dühasının qələbəsi və təntənəsidir. İblis bədii surəti, realizm ilə romantizmin sintezi olaraq, Hüseyn Caviddə yeni bir yüksək səviyyə qalxır. Onun İblis surəti şər qüvvələrin konkret, substantivləşdirilmiş yeni bədii həllidir. **Abdulla Şaiq** dramaturqun bütün əsərləri içərisində "İblis" qədər həyati və realist bir əsər olmadığını qeyd etmişdir. İnsan maddi və mənəvi qüvvədən ibarətdir. Bəşər həyata qədəm qoyduğu gündən etibarən bu iki qüvvə daim bir-birilə çarpışır. İnsanda mənəvi qüvvələr kamalınca inkişaf etmədiyindən maddi qüvvələr hər zaman mənəvi qüvvələrə qalib gəlmiş və gəlməkdədir. Əsərdə *İblis* maddi qüvvələrin, *Mələk* isə mənəvi qüvvələrin simvoludur. Hər insanda bu iki qüvvə mövcuddur. İblis fənalıqların simvoludur, mənəviyyatı və iyilikləri inkar edən bir ruhdur. Vəzifəsi insanlardakı mənəvi qüvvələri söndürmək, maddi qüvvələri inkişaf etdirməkdir [5, səh.130]:

"İ b l i s"

Dəryalərə hökm etmədə tufan,
Səhraları sarsıtmada vulkan,
Sellər kibi aqmaqda qızıl qan,
Canlar yaqar, evlər yıqar insan.

***

M ə l ə k

Ya Rəb, bu nə dəhşət, nə fəlakət?

Ya Rəb, bu nə vəhşət, nə zəlalət?

Yoq kimsədə insafü mürüvvət,

İblisəmi uymuş bəşəriyyət!?

****

İ b l i s

Toplar veriyor aləmə dəhşət,

Dəhşət! Qopuyor sanki qiyamət,

Yağmur kibi göydən yağar atəş!

Atəş! Qaralar, dalğalar atəş!..

***

M ə l ə k

Ya Rəb, azacıq lütfü inayət!

Qəhr olmada artıq bəşəriyyət.

Başdan-başa həp yer yüzü vəhşət,

İblis ilə həmrəngi-siyasət [2, səh.7-8].

****

İ b l i s

Qaçmalı, əlbəttə, uzaqlaşmalı,

Başqa cinayətlərə yaqlaşmalı.

Siz nə qadar bəndən uzaqlaşsanız,

Yer deyil, əflakə uçub qaçsanız,

Qarşılaşıb birləşiriz daima,

Ayrı deyil, çünki biriz daima [2, səh.68].

****

İ b l i s

Dərdə baq, millətə baq, niyyətə baq!

Ölülərdən ölülər feyz alacaq! [2, səh.93].

***

İ b l i s

Həp rəqs ediyor qanlı günəş, qanlı üfüqlər,

Həp rəqs ediyor halə qəmər, pənbə şəfəqlər.

Rəqs etmədə həp şe'rü dəha, hüsnü lətafət,
Rəqs etmədə yıldızlı fəza, ruhi-təbiət.
Hər fəlsəfə, hər dinü təriqət, bütün adət,
Rəqs etmədə həp olsa xəyal, olsa həqiqət.
Həp rəqs ediyor hüznü sürur, eşqü fəlakət,
Həp rəqs ediyor xeyrilə şər, elmü cəhalət...
Rəqs etmədə hətta o görünməz ulu mə'bud,
Rəqs etmədə hətta o vücudi-ədəmalud [2, səh.102].

***

İ b l i s

Bənsiz də, əmin ol sizə rəhbərlik edən var:
Qan püskürən, atəş savuran kinli krallar,
Şahlar, ulu xaqanlar, o çılğın dərəbəglər,
Altın və qadın düşkünü divanə bəbəklər.
Bin hiylə quran tilki siyasilər, o hər an,
Məzhəb çıqaran, yol ayıran xadimi-ədyan;
Onlarda bütün fitnəvü şər, zülmü xəyanət,
Onlar duruyorkən bəni təhqirə nə hacət?!
Onlar, əvət onlar sizi çignətməyə kafi,
Kafi, sizi qəhr etməyə, məhv etməyə kafi...
Bən tərk edərim sizləri əl'an, nəmə lazim!
Hiçdən gələrək, hiçliyə olmaqdayım azim.
İblis nədir? – Cümlə xəyanətlərə bais...
Ya hər kəsə xain olan insan nədir? – İblis!.. [2, səh.104].

Görkəmli ədəbiyyatşünas **Əli Sultanlı** ilk dəfə **"Peyğəmbər"**i maarifçi Volterin "Məhəmməd peyğəmbər, yaxud fanatizm", **"Topal Teymur"**u isə Marlonun "Böyük Teymurləng" dramları ilə müqayisəli şəkildə təhlil etməyə və qiymətləndirməyə təşəbbüs göstərmişdir:

Öylə bir əsr içindəyim ki cihan,
Zülmü vəhşətlə qavrulub yanıyor.
Yüz çevirmiş də Tanrıdan insan,
Küfrü haq, cəhli mə'rifət sanıyor.
Dinləməz kimsə qəlbi, vicdanı,
Məhv edən haqlı, məhv olan haqsız...

Başçıdır xalqa bir yığın cani,
Həp münafiq, şərəfsiz, əxlaqsız.
Gülüyor nurə daima zülmət,
Gülüyor fəzlə qarşı fisqü fücur.
Ah, ədalət, hüquq və hürriyyət,
Ayaq altında çignənib gediyor [2, səh.145].

***

Bən məhəbbət əsiriyim... hər an,
Hər zaman özlərim bir öylə cihan
Ki, bütün kainatı eşq olsun.
Könül uçduqca e'tila bulsun.
Rəqs edib orda möhtəşəm bir hiss,
Yasa batsın da, ağlasın İblis.
Qandan əsla görülməsin də əsər,
Saçsın al göncələr şəfəqli səhər.
Orda yüz bulmasın şiəncə, kədər,
Oqşasın ruhu pənbə rö'yalər [2, səh.148].

***

Qadın, qadın?! Onu duymaq, duyurmaq istərkən
Yaqar düşüncəmi bir şö'lə, bir zəhərli dikən.
Bütün həyatı çiçəkləndirən fəqət o... niçin,
Niçin əzilsin o, bilməm niçin sürüklənsin?!
Qadın – günəş, çocuq – ay... nuri ay günəşdən alır.
Qadınsız ölkə çabuq məhv olur, zavallı qalır.
Qadın əlilə fəqət bəxtiyar olur şu cihan,
O bir mələk... onu təqdis edər böyük Yaradan
O pək sevimli, gözəl, incə, nazlı bir xilqət,
Onun ayaqları altındadır fəqət cənnət:
Qadın gülərsə şu ıssız mühitimiz güləcək,
Sürüklənən bəşəriyyət qadınla yüksələcək... [2, səh.191-192].

***

Yoqsulluq ən böyük sərvət,
Qarşımda hiçdir rəyasət.
Xayır, istəməm, gözəl qız,

Sevgilim Tanrıdır yalnız.
Çünki ən son pənah odur,
Ona tapanlar qurtulur.
Hətta günəşi sağıma,
Ayı soluma qoysanız;
Fikrimdən dönəməm əsla,
Bir qul yaşarmı Tanrısız? [2, səh.198].

***

Bən gözəllərdə gözəl ruh ararım,
Ruhu düşkünləri çirkin sayarım. [2, səh.207].

Əli Sultanlı "Topal Teymur"dan danışarkən, dramda Topal Teymurun tarixdəki kimi mənfi və müsbət sifətləri ilə canlanmasını qeyd etmişdir. Əsərdən *"Əgər dünyanın zərrə qədər dəyəri olsaydı, yığın-yığın insanlara, ucu-bucağı yox məmləkətlərə... sənin kimi bir kor, mənim kimi bir topal müsəllət olmazdı"* sözlərini misal çəkən alim onun müasirliyinə işarə vurmuşdur [5, səh.27].

Hüseyn Cavidin bütünlükdə bədii bioqrafiyasından qırmızı xətt kimi keçən, faşizm əleyhinə çevrilən, müharibə məfkurəsinin təhlilinə həsr olunan son əsəri - "**İblisin intiqamı**"na da nəzər salsaq kəmiyyət bildirən mücərrəd və toplu isimləri, -lar,-lər kəmiyyət şəkilçili sözləri görə bilərik:

İnsan ömrü dalğa kibi keçər, gedər,
Hər gələn bir sevgi yolu seçər, gedər.
Dərdi bıraq, zevqinə baq, unutma ki,
Hər kəs əcəl badəsini içər, gedər.
Biz sevdalı quşlar kibi güldən-gülə,
Uçub qaçar, əylənərik sevinc ilə.
Əyilmədik hiç bir qanun qarşısında,
Bağlanmadıq hiç bir yurda, hiç bir elə [4, səh.145].

***

Alqış sevda gecələrini oqşayan qaranlıqlara!
Alqış qaranlıqlar içində süzülən sevimli işıqlara!
Alqış ipəklər içində qıvrılan qanatsız quşlara!
Alqış oynaq və incə ayaqlardakı nazlı uçuşlara!
Alqış vurğun gönülləri avlayan süzgün elmaslara!
Alqış qönçə dodaqlardakı meyxoş ehtiraslara!

Alqış sevinc dalğalarında qopan gizli tufanlara!
Alqış tatlı busələrdə çırpınan dəli həycanlara!
Alqış odlu küməslərə sığınan bayğın tavuslara!
Alqış incə bellərə sarılan çılğın kabuslara!
Alqış yer yüzünü sarsıdan qorqunc ilhamlara!
Alqış ölüm və cəhənnəm püskürən kinli intiqamlara! [4, səh.172].

Göstərilən nümunələrdə altından xətt çəkilmiş sözlərə, məqalənin əvvəlində görkəmli dramaturqun "**Səyavüş**" mənzum faciəsindən verilən epiqrafa, ümumiyyətlə dahi Hüseyn Cavidin bütün əsərlərinə nəzər salsaq, onlarda struktur-semantik cəhətdən zəngin kəmiyyət məzmunlu vahidlərin işlənildiyini görə bilərik.

Beləliklə, ədəbiyyatımızın ən böyük klassiklərindən biri kimi şöhrətlənmiş böyük Azərbaycan mütəfəkkiri, şairi və dramaturqu Hüseyn Cavid qələmə aldığı faciələrdə türkçülük ideyalarını təbliğ etmiş, ümumbəşəri məsələləri yüksək humanizm mövqeyindən işıqlandırmışdır. Bu il dahi şairin anadan olmasından 138 il keçir. Bu, əzəli, sonu görünməyən zamanın bir anıdır. Zaman Hüseyn Cavidi bizdən nə qədər uzaqlaşdırırsa, o, bizə bir o qədər yaxınlaşır, doğmalaşır, əzizləşir. Çünki Hüseyn Cavid klassik sənətkardır. Onun hər bir sanballı, tutumlu beyti altında bir fikir xəzinəsi yatır, ləl-cəvahir yatağı gizlənir. Hər bir ədəbi nəsil onun bədii irsindən təzə bir şey öyrənir, yeni bir inci tapır. Şübhəsiz ki, yeni nəsil bütün həyatını və yaradıcılığını öz doğma xalqına, vətəninə, dünyanı və sənəti sevən insanlara, məhəbbət və gözəlliyə sərf edən, ***llikdir, se nim ruhum göz göz*** [1, səh.130] deyən, onu özünün estetik idealına çevirən türk dünyasının dahi sənətkarı Hüseyn Cavidi bizdən daha yaxşı qavrayacaq, daha yaxşı sevəcək, daha yaxşı öyrənəcək, başqa xalqlara daha yaxşı tanıdacaqdır.

ƏDƏBİYYAT

1. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2005, 256 səh.
2. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. III cild. Bakı, "Lider nəşriyyat", 2005, 304 səh.
3. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. IV cild. Bakı, "Lider nəşriyyat", 2005, 256 səh.
4. Hüseyn Cavid. Əsərləri. Beş cilddə. V cild. Bakı, "Lider nəşriyyat", 2005, 288 səh.
5. Orucəliyev İ. Cavidi xatırlarkən (Hüseyn Cavid haqqında məqalə və xatirələr toplusu)."Zərdabi", Bakı. 2012, 592 səh.

Aygun Amanaliyeva

PLAY OF QUANTITATIVE UNITS IN HUSEYN JAVID`S DRAMATURGY IN THE ENRICHMENT OF VOCABULARY OF MODERN AZERBAIJANI LANGUAGE AND OTHER TURKIC PEOPLES

Huseyn Javid is an outstanding artist, a powerful master of words, who created a new language and style in Azerbaijani poetry and drama, laid the foundation of the genre of verse tragedy. XX century Azerbaijani romanticism, which is considered to be the next stage of development of millennial Azerbaijani literature most of all is connected with the name of Huseyn Javid. He was one of the founders of progressive romanticism movement in the contemporary Azerbaijani literature. In the works of Huseyn Javid quantitative units, which are reflected in the notional and functional parts of speech have been widely used and works of art rich in instructive, wise words and quotations, as well as phraseological combinations have been created perfectly. If we glance his creativity and rich heritage, we can see widely used quantitative suffixes with -lar, -lər, various rich quantitative units, quantitative nouns denoting collectiveness, community, certainty and uncertainty.

Vəfa Hüseynova
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
referent
vefa.huseynova.2019@mail.ru

HÜSEYN CAVİD DRAMATURGİYASINDA HƏQİQƏTPƏRƏSTLİK, HUMANİZM İDEYALARI

Bildiyimiz kimi Hüseyn Cavid Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən, və gələcək nəslə ötürən sənətkarlardandır. O, 20-ci əsr Azərbaycan mütərəqqi romantizminin banilərindən biri olmuşdur. Onun yaradıcılığına nəzər salsaq görərik ki, janr və forma cəhərdən cox zəngindir. O, daha cox dramaturq kimi taninir. Hüseyn Cavidi ədəbiyyat tarixində ən çox məhşurlaşdıran və ona böyük şöhrət qazandıran dram əsərləridir. O, Azərbaycan romantik mənzum dramaturgiyasının görkəmli yaradıcısı və banisidir. Hüseyn Cavid dram əsərləri teatrlarımızda ən çox tamaşaya qoyulmuş dramaturqlardandır. Onun fəlsəfi və tarixi faciələri, ailə-məişət baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratdığı kimi, milli teatr mədəniyyətinin inkişafına da qüvvətli təsir göstərmişdir. "Ana", "Maral", "Şeyx Sənan", "Knyaz", "Səyavuş","Xəyyam", "İblisin intiqami" və s. dram əsərləri hər dövürdə aktuallığını qoruyub saxlamışdır.

Hüseyn Cavidin yaradıcılığında insanpərvərlik,sülh, humanizm kimi ideyaların təbliği mühüm yer tuturdu.

Kəssə hər kim tökülən qan izini,

Qurtaran dahi odur yer üzünü.

deyən ədibin ilk səhnə əsəri olan "Ana" dramı da bu cəhətdən çox səciyyəvidir. Əsərdə müsbət və mənfi xüsusiyyətlər qarşılaşdırılmışdır. "Ana" dramı Dağıstan həyatından götürülmüşdür. Bu əsərdə xeyir və şər, mərhəmətlik və qəddarlıq, insanpərvərlik, xainlik və s. xüsusiyyətlər obrazlar vasitəsilə geniş kütləyə çatdırmışdır. Xeyir və şər qüvvələri təmsil edən obrazlardan Orxan və Muradı göstərmək olar. Bildiyimiz kimi onlar ətrafdakılara qarşı pislik etməkdən çəkinməyən, xain və kinli insanlardır. Əsərdə bu şər qüvvələrə qarşı duran insanpərvər Səlma ana, İsmət, Səlim, Qanpolad kimi müsbət obrazlar yaratmışdır. Əsərin mənfi surətləri nə qədər cılız, xudbin, qəddar və eyni zamanda nə qədər qorxaqdırlarsa, müsbət qəhrəmanlar bir o qədər həyatda doğru yol tutan, mərd və alicənab insanlardırlar. Əsərlə tanış olduqca Səlma ananın necə böyük ürəyə sahib olduğunu, mərhəmətli, insanpərvər olduğunu, sözün əsl mənasında ana olduğunun şahidi olursan. O, oğlunun qatilini bağışlamaqla bir daha yüksək keyfiyyətlərə sahib olduğunu sübut edir. Anaları ən böyük istəyi dünyamizda sülhün bərqərar olmasıdır. Ana müharibənin, qan tökülməsinin əvəzinə insanalara sevgi,

qayğı, dərin məhəbbəti aşılayır. Əsərlə tanış olarkən biz ananı tələşlı, narahat görürük. Müəllif bu əsərlə bir daha dünyaya, insanlara mesaj göndərir ki, günahsız insanların qanını tökmək, müharibələr etmək əvəzinə sülh və əminamanlıq şəraitində yaşamaq lazımdır.

Görkəmli italyan filosofu və şairi Cordano Bruno demişdir: - Həqiqət yolu çətin yoldur. Odur ki, çox az adam bu yola qədəm qoyur və daima təzyiqlərə məruz qalır. Amma bu yolun zirvəsinə çatanların qarşısında son dərəcə gözəl bir mənzərə açılır. Hüseyn Cavid məhz belə bir həqiqətpərəst şair və filosof idi: "Əsiri olduğum bir şey varsa, o da həqiqət və məhəbbətdir!" Həqiqətpərəstlik və ədalət onun iliyinə, qanına işləmişdir. Abbas Zamanov öz məqaləsində haqlı olaraq yazmışdır:"... Cavidin ilham pərisi daim həqiqət eşqi ilə qanad çalmış, həqiqət eşqi ilə alovlanıb yanmışdır. Həqiqəti axtarıb tapmaq, ona qovuşmaq yollarında bəzən şübhələr, tərəddüdlər keçirən şairin ilham pərisi bəzən müasir həyatdan qopub zəngin səmalarda, tarixin dərinliklərində qanad çalsa da, onun yaradıcılığının əsas pafosu həqiqəti, əsil bəşəri həqiqəti tərənnümdən ibarət olmuş, bütün həyatı boyu bu nəcib bəşəri hissi insanlara aşılamaq yolunda qələm çalmışdır." Hüseyn Cavid yaradıcılığı ilə tanış olarkən onun böyük ideyalar uqrunda mübrizə apardığını görə bilərik. H.Cavid yerində sayan, yaşadığı cəmiyyətin inkişafına, zamanın hadisələrinə biganə qalan mühafizəkar sənətkarlardan deyildi.

Abbas Zamanov yazıçı haqqında qeyd edir ki, bütün böyük sənətkarlar kimi, H.Cavid üçün də həqiqətin ancaq bircə mənası vardır ki, bu da öz doğma xalqını azad, xoşbəxt və mədəni görmək, ana Vətənə xidmət etmək arzusudur. Hələ gəncliyində dostlarından birinə göndərdiyi məktubda Cavid yazırdı: "... indi əsl məqsəd Vətənə xidmət, həm də layiqincə xidmət etməkdədir."

Mayeyi-iftixari həp kişinin

Vətən uğrunda bəzli-himmətdir!

Misradan da göründüyü kimi yazıçı Vətəni qorumağı, sevməyi və lazım gələrsə onun uğrunda can verməyi hər bir kişinin iftixarı olduğunu qeyd edir.

Bildirim ki, məqalənin sonunu sevinc gözyaşları içində yazıram. Məqaləni yazdığım vaxt Qarabağ uğrunda (Vətən müharibəsinin) döyüşlərin getdiyi ana təsadüf edir. İgidlərimiz qanları ilə yeni tarix yazırlar. İnanıram haqq uğrunda apardığımız müharibədə qələbə bizim olacaq. Bununlada həm dramaturqumuzun, generalımız Polad Həşimovun və Qarabağ uğrunda canını, qanını, qurban verən bütün şəhidlərimizin ruhu şad olacaq. Onların qisası alınacaq. İnsa Allah Hüseyn Cavidin yaradıcılığına aid konfransları Qarabağda qeyd edərik. Allah millətimi, xalqımı qorusun.

ƏDƏBİYYAT

1. M.Rahim. Qüdrətli yazıçı;
2. M.Seyidzadə. Böyük şair və dramaturq;

3. M.İbrahimov. Cavidi yad edərkən.

Vafa Huseynova

İDEAS OF TRURHFULNESS AND HUMANISM IN HUSSEIN JAVID'S DRAMATURGY

The article notes the great and invaluable contributions of the writer to our literature and dramaturgy. If we look at his works, we see the promotion of humanism, patriotism, peace and truthfulness.

Ellada Hacıyeva
Azərbaycan Texniki Universiteti (AzTU)
baş müəllim
ellada.gadjieva@mail.ru

HÜSEYN CAVİD PYESLƏRİNDƏ TƏRCÜMƏ PROBLEMLƏRİ

Tədqiqatçılara yaxşı məlumdur ki, bütün dünya romantiklərinin yaradıcılığında təbiətə baxış xüsusi yer tutur. Bu mənada geniş dünyagörüşə və qeyri-adi bədii təfəkkürə malik olan Hüseyn Cavidin dramaturgiyasında da təbiət təsvirləri ilə tez-tez rastlaşırıq. Əslində belə bir reallıq romantik metodun daxili xüsusiyyətlərindən irəli gəlir. Yəni romantizm nümunələrində, romantizmə aid bədii əsərlərdə verilən peyzaj romantik üslubun imkanlarını daha bariz şəkildə meydana çıxarır.

Digər tərəfdən unutmaq lazım deyildir ki,romantik əsərlərdəki peyzaj sadəcə olaraq təbiət təsvirlərini əks etdirmək məqsədi ilə məhdudlaşmır.Bu təsvirlər bir tərəfdən bədii əsərlərin sujet və kompozisiyası ilə, digər tərəfdən də obrazların xarakterləri ilə sıx bağlanır.

H.Cavid "Şeyx Sənan" faciəsinin ikinci pərdəsi başlayarkən remarkada Tiflis barədə aşağıdakıları yazır: "Qafqasiyada, indiki Tiflis civarında kiçik bir dağ ətəyində mənzərəli yer... Bir tərəfdə Kür, digər tərəfdə dağa doğru ucu görünməz əyri bir cığır nəzərləri oxşar. Qarşıda iki-üç cadır görünür"(Əsərləri, IIc. s.45).

Göründüyü kimi, dramaturq bir neçə cümlədə gözəl bir peyzaj yaratmışdır. Həmin peyjaz oxucuda xoş əhvali-ruhiyyə doğurur. Tərcüməçi V.Partnov orijinalda olan "Qafqaz" sözünü "unutsa" da, təsvirin qalan hissəsini olduğu kimi canlandıra bilmişdir: "Окрестности нынешного Тифлиса,подножье горы. С одной стороны, река Кура, с другой-бесконечная кривая тропинка, ведущая к горе. Впереди видны два-три шатра" (Пъесы I т. с.62).

Faciədə Şeyx Sənanın dili ilə verilmiş, təsvir də son dərəcə mənalı və cəlbedicidir. Bu təsviri bir neçə hissəyə bölmək olar. Şeyx Sənan monoloqunun əvvəlində ümumiyyətlə Qafqaz canlandırılır.

İşdə Qafqaz!...Səfalı bir məva!
Allah-allah, nədir bu abü həva!?
Nə qədər şairanə bir xilqət!
Yerə enmişdir adətən cənnət.
Bu tamaşaya qarşı hər insan,
Məncə biixtiyar olur heyran (Əsərləri, II c., s.45).

Tərcüməsi:

Кавказ, Кавказ, какой блаженный роздых,

Кристальная вода, прозрачный воздух!

Как поэтичен этот божий край...

Как будто низошел на землю рай.

Да, здесь любой, кто созерцает это,

Невольно превращается в поэта. (Пъесы, I т. с.63).

Orijinalla müqayisədə tərcüməyə bəzi əlavələr edilməsinə baxmayaraq, orijinalın ruhu saxlanılmışdır. Göründüyü kimi "abü-həva" (su və hava) sözlərinin əvvəlinə rus dilində epitetlər(кристальная вода, прозрачный воздуч) artırılmışdır.Lakin bu mənzərənin cənnətə oxşadılması əsas fikir və ideya kmi tərcüməçinin diqqət mərkəzindən yayınmamış və tərçüməçi də həmin fikri tam çatdıra bilmişdir: "Как будто низошел на землю рай".

Şeyx Sənan dili ilə verilən təsvirin ikinci hissəsi yer gözəlliklərini əhatə edir. Burada romantik üslub üçün səciyyəvi olan cəhətlər kifayət qədərdirş. Tərcümədə orijinaldakı bir misranı diqqətə nəzərdən keçirmiş, təpələr, güllər,bülbüllər, sular, ormanlar, qartallı dağlar barədə təsvir olunan gözəlliyi orijinala uyğun şəkildə rusdilli oxucuya çatdırmaq istəmişdir. Bu parçanın tərçüməsində orijinalda olmaya-olmaya "Allah" sözünün iki dəfə işlədilməsi (бог, божественный) ümumi fikrə uyğun olduğuna görə məqbul hesab edilməlidir. Təsvirin üçüncü hissəsi göylərlə bulud və günəşlə bağlıdır. Buradakı sual və nidalar, ümumiyyətlə romantik pafos ronmantik üslubun aparıcı elementləri kimi özünü göstərir:

O bulutlar nə, öylə rəngarəng?!

Bu nə qüdrət! Nə dilfirib ahəng?!

Burda qızğın günəş də pək munis.

Gecələr büsbütün nədimeyi-hiss (Əsərləri, II c., s. 45).

Tərcüməsi:

Ввыси плывут цветные облака,

Гармония опять душе близка.

В полдневный жар и солнце здесь нежгуче,

А ночь всегда сродни мечте певучей (Пъесы, I т., с. 63).

Tərcüməsini yenə də məqbul saymaq olar. Şeyx Sənan monoloqunun dördüncü hissəsitamamilə Kür çayina həsr edilmişdir:

Hələ Kür nəhri başqa bir aləm!

Gecə məhtabə qarşı pək həmdəm.

Gah olur bir dərin sükuta varır,

Gah çağlar da bir fəğan qoparır (Əsərləri, II c., s. 46).

Tərcüməsi:

Река Кура-совсем особый мир:

То лунный свет, безмолвья тайный пир,

То в ярости, не знающей препоны,

Бурлит и издает глухие стоны (Пъесы, I т., с.63).

Bu tərcümə də orijinalı əks etdirə bilir. Şeyx Sənanın söylədiyi bu monoloqda təbiət təsviri əslində iki cəhəti əhatə edir. Birincisi yer gözəllikləri və Kür çayı, ikincisi isə göy gözəllikləri və göyərçinlər. Əslində romantik qəhrəman yer və göy arasında duraraq öz gələcək taleyini düşünür. Tərcüməçi V.Portnov bu mətləbə əks etdirə bilmişdir.

Yeri gəlmişkən qeyd edək ki, H.Cavid "Şeyx Sənan" faciəsinin dördüncü pərdəsinin ikinci səhnəsinin başlanğıcında yenə Kür çayının təsvirinə qayıdır və remarkada yazır: "Qürub zamanı, bir tərəfdə Kür nəhri, bəridə, Kür boyunca yalçın bir qaya... Kənarda, qayanın ta ötəsində bir ormancıq... Görünməz tərəfdən qayanın təpəsinə yol varsa da, səhnə tərəfi, fəqət, bir uçurumdan ibarətdir" (Əsərləri, II c., s.116). Bu fikir tərcümədə də aydın verilmişdir: "Закат. Над Курой обрывается отвесная скала. Поодаль, по ту сторону скалы, маленькая лужайка. С той стороны скалы которая не видна зрителям, есть тропа на вершину, со стороны же сцены - обрыв" (Пъесы, I т., с.140-141).

Faciənin "Əlavə" hissəsində isə belə bir təsvir vardır: "Bu sırada səhnənin işığı çəkilir, ta ucda ikinci pərdə qalxır. Xumar ilə Şeyx Sənanın qolqola olaraq bulutlar içində uçuşduqları görülür" (Əsərləri, II c., s.133). Bu fikir də tərcümədə olduğu kimi verilmişdir: "Свет на сцене гаснет, в углу поднимается второй занавес, Хумар и Шейх-Санан, рука об руку, витают в облаках" (Пъесы, I т., с.159).

Bu faktlar təsdiq edilir ki, H.Cavidin "Şeyx Sənan" faciəsinin əvvəlində təqdim olunan Şeyx Sənanın monoloqu ilə pyesin sonlarına doğru aşkar olunan hadisələr arasında sıx əlaqə vardır. Eyni zamanda, bu əlaqə romantik təsvir üsulu ilə bağlıdır ki, tərcüməçi V.Portnov həmin cəhətləri kifayət qədər gözləyə bilmişdir.

Tiflis şəhərinin təbiətini, təbiət gözəlliklərinіəks etdirmək baxımından H.Cavidin "Knyaz" pyesində də ciddi məqamlar vardır. Yeri gəkmişkən qeyd edək ki, "Şeyx Sənan" faciəsində təsvir edilmiş hadisələr Ərəbistandan başlayıb sonra Qafqaza – Tiflisə köçürülürsə, "Knyaz" əsərində süjetin başlanğıc nöqtəsi elə Tiflis şəhərinin özüdür. Belə ki, pyesin birinci pərdəsinin elə ilk cümlələrində oxuyuruq: "Tiflisdə ətrafı yaşıllıq, çiçəklərlə süslü güniş bir qəməriyyə. Ulduzlu bahar gecəsi..." (Əsərləri, II c., s.154). Təəssüf ki, tərcümədə (tərcüməçi V.Zaytsev) "Tiflis" sözünü unutmuşdur. "Беседка, утопающая в зелени. Весенняя звездная ночь" (Пъесы I т., с.165). "Knyaz" pyesinin ikinci pərdəsinin əvvəlində də Tiflisin təbiət gözəlliyi sövqlə təsvir edilir: "Tiflisdə botanika bağçası. Yuxarıda hər dürlü nümunəlik ağaclar. Aşağıda ətrafı əlvan çiçəklərlə süslü bir

hovuz... Yüksəkliklərə doğru sarı qumlu cığırlar gözləri oxşar. Ötədə-bəridə bülbül şaqırtıları eşidilir. Mayıs... gündüz..." (Əsərləri, II c., s.178). Bu remarkada hadisələrin Tiflisdə davam etməsi barədə qənaət, yəni "Tiflis" sözü qorunub saxlanılsa da,bədii təsvir xeyli ixtisar edilmiş,bir növ təsvirin romantikçalarına xələl gəlmişdir: "Майский день, ботанический сад в Тифлисе. Бассейн, увитый цветами. Слышится пенье соловьев" (Пъесы, I т., с.192).

Əhəmiyyətli cəhət odur ki, Şəsərin ikinci pərdəsinin başlanğıcında həmin remarkadakı fikrin davamıkimi Lena və Marqonun təbiətin füsunkarlığına heyranlıqları tam romanrik üslubda əks etdirilmişdir və tərcümədə orijinalda olan romantik üslub tam qorunub saxlanılmışdır.

H.Cavidin "Knyaz" pyesində süjet xətti inkişaf etdikcə hadisələr Berlinə köçürülür. Maraqlıdır ki, romantik sənətkar Berlini də Tiflis kimi gözəlliklərinə görə yüksək qiymətləndirir. Dramaturq dördüncü pərdənin başlanğıcındakı remarkada yazır: "İki il sonra, Berlində üst qatda, alman zövqünə uyğun süslü bir salon. Sağda, solda və qarşıda balkona açılır birər qapı. Balkon qapısının iki tərəfində birər böyük pəncərə... Balkon və pəncərələrin ətrafında rəngarəng çiçəklər gözləri oxşar" (Əsərləri, II c., s. 212).

Tərcümədə: "Два года спустя. Берлин. На верхнем этаже просторная комната, обставленная в немецком стиле. Две двери: слева и справа. Прямо посредине - дверь, ведущая на обширный балкон. По обе стороны балконной двери большие окна. На балконе и в комнате у окон цветы." (Пъесы, I т., с. 236).

Bundan sonra isə Knyazın diliilə Berlin daha təmtəraqlı vəzf edilir:"Knyaz" pyesinin başqa bir yerində isə Berlinin gözəlliyi Jasmenin dili ilə tərənnüm olunur Tərcümə orijinala tam uyğun olmasa da, ümumi ruh qismən verilmişdir.

Hərgah "Şeyx Sənan" və "Knyaz" pyeslərində Tiflis və Berlin gözəllikləri tərənnüm edilirsə, təsvirin obyekti bir şəhərdirsə, artıq "Xəyyam" pyesində təbiətə münasibət bir şəhər çərçivəsinə sığışmır.

Bütün bunlar sübut edir ki, H. Cavid dramaturgiyasının ayrı-ayrı nümunələrində verilən təbiət təsvirləri romantik üslubun məzmun və mahiyyətini əks etdirmək baxımından diqqətə layiqdir. Eyni zamanda, həmin peyzajların rus dilinə çevrilməsində tərçüməçilər (V.Partnov, V.Zaytsev, A.Qriç) orijinalda ifadə olunan mətləbləri, əsasən düzgün tuta bilmiş və orijinalda uyğun şəkildə tərcümə etməyə çalışmışlar. Lakin tərcümələrdə müəyyən qüsurlara rast gəlinirsə, həmin qüsurlar tərcüməçilərin bilavasitə romantik üslubunun mahiyyətinə dərindən diqqət yetirməmələri ilə əlaqədar olmuşdur.

ƏDƏBİYYAT

1. Hüseyn Cavid. Əsərləri, 5 cilddə, I cild, tərt. ed. T. Cavid; red. T. Kərimli, Bakı: Lider, 2005.
2. Гусейн Джавид. Пьесы в двух книгах. Книга первая, Баку, Язычы, 1982.

Ellada Hajiyeva

TRANSLATION PROBLEMS IN HUSEYN JAVID'S PLAYS

The article deals with the translation problems in Huseyn Javid's plays (Seykh Sanan, Knyaz, Khayyam, etc.) from Azerbaijani into Russuian by translators (V.Partnov, V.Zaytsev, A.Grich). The descriptions of nature given in different examples of H. Javid's dramaturgy are remarkable in terms of reflecting the content and essence of the romantic style. At the same time, in translating these landscapes into Russian, the translators were able to capture the points expressed in the original, mainly correctly, and tried to translate them in accordance with the original. However, certain shortcomings in the translations were due to the lack of attention to the essence of the romantic style.

Aytən Əzimova
107 nömrəli tam orta məktəb
Alim Uşaq birliyinin rəhbəri
ayten1991ezimova@mail.ru

HÜSEYN CAVİD – ƏDƏBİYYAT VƏ ƏBƏDİYYƏT GÜNƏŞİ

XX əsr Azərbaycan bədii söz sənətinin əsas nümayəndələrindən olan Hüseyn Cavidin zəngin ədəbi irsi təkcə ölkə ədəbiyyatının deyil, eyni zamanda dünya romantizminin tərkib hissəsidir. Şair yaradıcılığa dünyəvi eşqi tərənnüm edən şeirlərlə başlasa da, sonralar yaşadığı həyatda baş verən bir sıra çətinliklər, qarşılaşdığı ədalətsiziklər onun əsərlərinə təsirsiz ötüşməmiş, yazıb-yaratdığı əsərlərə kədər "yükləmişdir". Bunun nəticəsindədir ki, görkəmli dramaturq sonrakı yaradıcılığında ictimai mövzularda yazılmış əsərlərə daha çox yer vermişdir.

Poeziyasında əruz və heca vəzninə müraciət edən müəllif bu vəznlərə yaradıcı münasibət bəsləmişdir Əruz vəzninin rəməl, müzare, mütəqarib, xəfif, həzəc və digər bəhrlərində yazıb-yaradan şair bu vəzndə imzası ilə öz sözünü demiş, hətta həzəc bəhrinin yeni növünü − əruzşünasların adlandırığı kimi "Cavid həzəci"ni yaratmağa nail olmuşdur. Böyük şair bu dövrdə klassik üsluba müraciət etdiyindən yaradıcılığının ilk dövrlərində yazdığı şeirlərdə ərəb-fars tərkiblərinə rast gəlinir. Daha sonralar, XX əsrin əvvəllərində isə o, heca vəznində yazıb-yaratmağa üstünlük vermiş, müxtəlif şeir şəkillərindən öz yaradıcılığında ustaqlıqla istifadə etmişdir.

Heca vəznində qələmə aldığı monoloq və dialoqlardan ibarət şeirlərin isə ədəbiyyatımızda xüsusi yeri vardır. Şeirlərini özünəməxsus zərif dillə qələmə alan şairin romantik şeirlərində lirik qəhrəmanların duyğuları, düşüncələ

Ümumiyyətlə, humanizm, bəşərilik, məhəbbət və mərhəmət ideyaları H.Cavidin yaradıcılığında aparıcı mövqedə dayanmışdır. Onun:

"Kəssə hər kim dökülən qan izini,

Qurtaran dahi odur yer üzüni". (3, səh. 246) –

misraları bu gün də öz əhəmiyyətini qoruyub saxlayır. Dahi şair ümumbəşəri problemlərin hər cür savaşdan uzaq olaraq humanizm, mədəniyyət mövqeyindən həll ola biləcəyi fikrini "İblis" əsərində də bəyan etmişdir:

Turana qılıncdan daha kəskin, ulu qüvvət,

Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət! (3, səh. 27)

Bədii söz sənətimizin ən böyük klassiklərindən biri kimi şöhrətlənmiş Hüseyn Cavid qələmə aldığı faciələrdə Şərq taleyinin müxtəlif ciddi problemlərini qaldırmış, türkçülük ideyalarını təbliğ etmiş, ümumbəşəri məsələləri yüksək humanizm mövqeyindən işıqlandırmışdır. Ədəbiyyatda qələm ustalarının dəfələrlə müraciət etdiyi "Səyavuş" mənzum faciəsində də şair bu mövzuya müasir mövqedən yanaşmış, tarixi keçmişdə də daha çox milli istiqlalla bağlı motivlər axtarışında olmuşdur.

İstanbulda olarkən yazdığı bir məktubunda "Əsir olduğum bir şey varsa, o da həqiqət və məhəbbətdir" fikri Hüseyn Cavidin mənəvi dünyasından, düşüncələrindən xəbər verir. Qeyd etdiyi həqiqət və məhəbbətin mənası isə onun vətənini, millətini azad və xoşbəxt görmək istəyində idi. O düşünürdü ki, millətin duruşu və xilası mütləq milli məfkurənin yetişdirilməsindədir. Bu xüsusda böyük ədibimiz öz dilimizdə yazıb-yaratmanın vacibliyini bildirərək yazmışdır: "Bir millətin lisanı mövcudiyyətinin ən parlaq bürhanıdır". (5, səh. 223) Cavidin Azərbaycan Xalq Cümhuriyyəti dövründə görkəmli şairimiz Abdulla Şaiqlə birgə yazdığı "Ədəbiyyat dərsləri" ortaq türk ədəbiyyat tədrisinin, məktəbin yaradılması istiqamətində gördüyü işlərdəndir. Sovet hakim idealogiyasının dil siyasətini dərindən duyan şair-dramaturq Əli Bəy Hüseynzadənin "Türkləşmək, islamlaşmaq, müasirləşmək" ideyasını rəhbər tutaraq bu yolda mübarizəsini sonadək aparmış, əsərlərinin nəşri ilə bağlı redaksiyaya müraciətində imlasına toxunulmamasını tələb etmişdir.

"Bir millətin tərəqqi və tənəzzülünü bilmək üçün onun məktəblərini görmək kifayət edər" (5, səh. 194) – deyən mütəfəkkir özünün publisistik məqalə və məkublarında məktəbşünaslıq məsələlərinə geniş yer ayırmış, Azərbaycan pedaqoji fikrinin inkişafında əhəmiyyətli rol oynamışdır. O, millətin maariflənməsində müəllimlərin rolunu xüsusi vurğulayaraq yazırdı ki, müəllimlərə hörmət ediniz, onları seviniz, onları pək böyük görünüz, əvət, onlara pərəstiş ediniz, onları kəndinizə əfəndi biliniz! (5, səh. 227)

Kökü lap qədim dövrlərə dayanan Azərbaycan ədəbiyyatının ən yaxşı ənənələrini inkişaf etdirən, zənginləşdirən qüdrətli söz ustası Hüseyn Cavid öz aradıcılığı ilə, dərin hikmətli və fəlsəfi poeziyası, təkrarsız dramaturji əsərləri ilə Azərbaycanda milli şüurun intibahına xidmət göstərmişdir.

Heydər Əliyevin şəxsi təşəbbüsü ilə məzarının Sibirdə tapılıb nəşinin Azərbaycana gətirilməsi, təsadüfi deyil ki, bir çox dünya tarixçiləri tərəfindən ölkədəki müstəqillik arzularının və milli-azadlıq hərəkatının başlanğıc nöqtəsi kimi səciyyələndirilmişdir. Dahi sənətkarın yaradıcılığındakı romantik coşqunluq ilk öncə türk millətinin sabahına olan sonsuz inamdan qidalanırdı.

"Babam Hüseyn Cavid bir günəş idi. Yüksəldi, parladı, yarasaların gözünü kor etdi. Lakin dumanlar onun qarşısını aldılar..." (1, səh. 5). Oğlu Ərtoğrulun yazdığı bu kəlmələr şairin və ailəsinin dövrün işgəncələrinə məruz qaldığına işarə etsə də, Hüseyn Cavid işığı heç zaman solmamış, əksinə böyük fikirləri ilə, milli şüurun oyanması uğrunda gördüyü işlərlə daim şəfəq saçmışdır.

XX əsr yazılı ədəbiyyatımızın mərdlik və əyilməzlik simvoluna çevrilən şəxsiyyəti, dahi mütəfəkkir Hüseyn Cavidin gələcək nəsillərə örnək olacaq zəngin və təkrarolunmaz bədii-ədəbi irsi zaman keçməsinə baxmayaraq bu gün də öz aktuallığını və əhəmiyyətini qoruyub-saxlamaqdadır. O, yaradıcılığında əks etdirdiyi hər dövr üçün aktual olan dahiyanə fikirləri ilə ədəbiyyatımızda günəş kimi əbədi parlayacaqdır.

ƏDƏBİYYAT

1. Hüseyn Cavid. Əsərləri. I cild. Bakı – 2005.
2. Hüseyn Cavid. Əsərləri. II cild. Bakı – 2005.
3. Hüseyn Cavid. Əsərləri. III cild. Bakı – 2005.
4. Hüseyn Cavid. Əsərləri. IV cild. Bakı – 2005.
5. Hüseyn Cavid. Əsərləri. V cild. Bakı – 2005.

Ayten Azimova

HUSSEIN JAVID – THE SUN OF LITERATURE AND ETERNITY

The report analyzes the artistic ideas of the great Azerbaijani poet Huseyn Javid in different contexts. At the same time, his enlightenment ideas and his work in Azerbaijani literature was discussed. The report quotes and gives examples from the prominent thinker.

Emil Ağayev
ADPU-nun nəznində Azərbaycan Dövlət pedaqoji kolleci
müəllim
Emilaghayev93@mail.ru

AZƏRBAYCAN RƏNGKARLIĞI VƏ QRAFİKASINDA HÜSEYN CAVİD OBRAZI

Rəssamlarımız öz əsərlərində daima tarixi-ədəbi obrazlara mühüm yer ayırırlar. Tarixin səhifələrində zaman-zaman öz sözünü demiş şəxsiyyətləri ikonoqrafik obraz kimi yenidən tamaşaçılara təsviri sənət ustalarımız çatdırırlar. Belə obrazlardan biri də dramaturq Hüseyn Caviddir.

Azərbaycan qrafika ustaları müxtəlif texnikalarda bir-birindən maraqlı portretlər yaratmışlar. Xalq rəssamı Arif Hüseynov "Cavidin uşaqlığı" əsərində ağ-qara ştrixlərlə Cavidin yaşadığı evi canlandırmışdır. Ağacda əyləşən balaca Cavidin tamaşaçıya baxan baxışaları diqqəti cəlb edir. Arif Hüseynov işıq-kölgə, obrazlardakı milli geyimlər və məkan həlli ilə kompozisiyaya bitkinlik gətirmişdir.

Elmira Şahtaxtinskaya yaradıcılığına nəzər yetirsək "Azərbaycan qədim mədəniyyət diyarıdır" silsiləsi mühüm yer tutur. Bu silsiləyə daxil olan plakatlardan birində mərkəzdə Hüseyn Cavid, arxa fonda isə onun əsərləri teatr səhnəsində canlandırılmışdır. Günəş və qara buludun mübarizəsi, dramaturqun yaradıcılığında mühüm yer tutan xeyir və şər mövzusudur. (Şəkil 1)



kil 1. *Elmira Şahtaxtinskaya "Hüseyn Cavid"*

Oqtay Sadıqzadə yaradıcılığında Cavidə həsr edilən əsərlər mühüm yer tutur. 1984-cü ildə "İblis" pyesi və 1987-ci ildə isə "Gilan qızı" əsərinə etdiyi illüstrasiyaları kitab qrafikasının inkişafında mühüm yer tutur. 1937-ci il repressiya qurbanlarına həsr etdiyi kompozisiyada xalq rəssam məftillər arasında boğulan ziyalılarımızın arasında dramaturqun da obrazını yaratmışdır. 1997-ci il kətan üzərində, yağlı boya texnikasıyla təsvir etdiyi triptixində Oqtay Sadıqzadə mərkəzdə tamaşaçıya baxan obraz, sağ və sol hissələrdə isə fəlsəfi fikirlərlə dumanların üzərində Cavidin əsərlərinin qəhrəmanları canlandırılmışdır.(Şəkil 2)



kil 2. *O.Sadıqzadə "Hüseyn Cavid.Triptix" (1997) (kətan, yağlı boya)*

Oqtay Sadıqzadə yaradıcılığında Cavidin həyat yoldaşı Müşkinaz xanımın portretini də canlandırmışdır. 1997-ci ildə kətan üzərində yağlı boya texnikasıyla kamerni-təntənəli portretdə işıq-kölgə vasitəsilə obrazın daxili aləmini əks etdirmişdir.

Altay Hacıyevin "Yayın son günü" kompozisiyası özündə simvolik mənanı birləşdirir.1936-cı ilin yayı təsvir edilib,Xəzər sahilində,bir-birinə qonşu bağlarda dincələn Cavid,Cavad,Müşfiq,Rəsul Rza və ailələri,onların qələm və ürək dostları hər axşam "Şeir süfrəsinə" toplaşırlar."Rəssam bu kompozisiyada məkan həlli,sanki mərkəzdə dayanan obrazda işıq-kölgə effektini daha güclü şəkildə əks etdirmişdir.Hələ xoşbəxtdirlər,faciələr və ayrılıqlar hələ qarşıdadır.Bu onların birgə olduqları son yaydır.Sənətkar bütün bu fikirləri kompozisiyada cəmləmişdir.

Ənvər Əliyevin "Üzeyir Cavidin bağında" əsərində rəssam impressionistlərə xas olan texnika-üsuldan istifadə edərək, təbiət və insan obrazlarını bir-biri ilə əlaqələndirmişdir. Cavidin şeir söyləməsi, mimika və jestlərin, rənglərin ritmik təkrarlanması, ikonoqrafik süjetdə əsas təsvir metodlarıdır.(Şəkil 3)



***kil 3**. Ənvər Əliyev "Üzeyir Cavidin bağında"*

Tağı Tağıyev, Hacağa Nəzərov və Zivərbəy Əhmədbəyov yaradıcılığında da Hüseyn Cavid obrazı mühüm yer tutur.

Ülviyyə Həmzəyeva yaradıcılığında monumental xüsusiyyətləri ilə seçilən "Cavid dünyası" (Şəkil 4) və Nicat Muxtarlının zər texnikası ilə təsvir etdiyi obrazlarda dramaturqa həsr edilən mühüm tablolardandır. Ülviyyə Həmzəyevanın "Cavid dünyası" əsərində sanki mozaik daşlarından qurulmuş monumental boyakarlıq nümunəsini xatırladır. Milli ənənələrin, memarlıq və xalça ornamentlərinin əlaqəsi bütün əsərin əsas diqqət mərkəzidir.

Azərbaycan rəngkarlıq və qrafikasında Hüseyn Cavidə həsr edilən ikonoqrafik obrazlar təsviri incəsənət tariximizi zənginləşdirir.

kil 4. *Ülviyyə Həmzəyeva "Cavid dünyası"*

ƏDƏBİYYAT

1. Sadıqzadə Oqtay, Kataloq, Bakı, Şərq-Qərb, 2013.

Emil Agayev

HUSSEIN JAVID IMAGE IN AZERBAIJANI PAINTING AND GRAPHICS

In this article images of Hussein Javid in Azerbaijani painting and graphics are treated in the context of iconographic analysis.

7. Hüseyn Cavidə həsr edilmiş şeirlər.
8. Elmi və kütləvi jurnallarda Hüseyn Cavidə həsr olunmuş məqalələr.
9. Hüseyn Cavidin yaradıcılığına həsr edilmiş alimlik dissertasiyalarının avtoreferatları.
10. Hüseyn Cavidin həyat və yaradıcılığına aid bukletlər və vərəqələr.
11. Hüseyn Cavid əsərlərinin əlyazma və makina çapları.
12. Hüseyn Cavidə həsr olunmuş kataloqlar.
13. Hüseyn Cavidin şeirlərinin əlyazmaları.
14. Hüseyn Cavid haqqında qeydlər, məlumatlar və müsahibələrin çap olunduğu qəzet materialları.
15. Hüseyn Cavid haqqında 1937-ci il iyun ayının 4-nə kimi olan məqalələr və onun şeirlərinin çap edildiyi qəzet materialları.
16. Hüseyn Cavid haqqında 1937-ci il iyun ayının 4-dən sonra məqalələrin çap olunduğu qəzet materialları.
17. Hüseyn Cavidə həsr olunmuş audiovizual və multimedia sənədləri.

Hüseyn Cavidin geyimləri və istifadə etdiyi əşyalardan ibarət eksponatlar içərisində ilk öncə onun 1927-1932-ci illərdə istifadə etdiyi parçadan tikilmiş, ölçüsü 60,0x46,0 sm olan jileti (İnventar № 151) qeyd etmək lazımdır. Başqa bir eksponat Hüseyn Cavidə məxsus və onun

1928-1935-ci illərdə istifadə etdiyi 98 sm ölçüsü oaln əsadır (İnventar № 142). Tutacaqdan bir az aşağıda dördtərəfli üçbucaq şəklində iki metal parçası, ortasında dördkünc iz vardır.

Muzeydə Hüseyn Cavidin istifadə etdiyi məişət əşya eksponatlarından diqqətçəkəni şairin 1920-1937-ci illərdə istifadə etdiyi şam axacından hazırlanmış 80,0x106,0 sm ölçüdə olan mizdir (İnventar № 149). Digər bir eksponat dramaturqun 1920-1937-ci illərdə əyləşdiyi taxta kreslodur (İnventar № 146). Ölçüsü 53,5x57,0 sm olan kreslo pambıq, parça və palıddan hazırlanmışdır.

Hüseyn Cavidin şəxsi arxivində öz dövründə çap olunmuş əsərlər muzeyin mühüm eksponatları hesab

olunur. Bu nəşrlərə misal olaraq, şairin 1913-cü ildə Tiflisdə çap olunmuş 48 səhifədən ibarət "Ana" pyesini (İnventar № 123) göstərmək olar. (Kitabın 7, 11, 14 və 26-cı səhifəsində qeyd və düzəlişlər vardır ki, bunlar Cavidə məxsus deyildir. Ədibin qızı Turan Cavid bunları ehtimalla görkəmli ədəbiyyatşünas-alim, akademik Məmməd Cəfərə aid eləmişdir. Nəşr əski əlifba ilə Azərbaycan dilində çap edilmişdir.) Digər bir kitab Cavid əfəndinin 1917-ci ildə Bakıda çap olunmuş 65 səhifəlik "Maral" əsəridir (İnventar № 124). Eksponatın mühüm cəhəti ondadır ki, kitabda şairə məxsus, onun xətti ilə edilmiş redaktə işləri və qeydlər öz əksini tapmışdır. Nəşr əski əlifbada Azərbaycan dilindədir.

Hüseyn Cavidin şəxsi kitabxanasına məxsus nəşrlərə Azərbaycan, türk və rus dillərində ümumilikdə 70-dən artıq kitab daxildir.

Bunlardan Abdulla Şaiqin Bakıda 1926-cı ildə çap olunmuş 15 səhifəlik "Göbələk" adlı kitabını (İnventar № 687) xüsusi vurğulamaq yerinə düşər. Belə ki, kitab H.Cavidə müəllifin 16.II.1927-ci il tarixli avtoqrafı ilə hədiyyə olunmuşdur. Bundan başqa böyük türk şairi Tofiq Fikrətin hicri təqvimi ilə 1326-cı ildə İstanbulda çap edilmiş "Rubabi-şikəstə" adlı 412 səhifədən ibarət əsəri (İnventar № 125) də xüsusi maraq kəsb. Əski əlifbada nəşr olunmuş kitab Tofiq Fikrətin avtoqrafı ilə H.Cavidə hədiyyə edilmişdir. Nəşrin 93, 190, 315-ci səhifələrində "Ərtoğrol Cavid" möhürü həkk edilmişdir.

Muzeyin fondunda Hüseyn Cavidə həsr olunmuş kitablardan ibarət olan eksponatlar mühüm yer tutur. Burada Azərbaycan və əcnəbi dillərdə müxtəlif illərdə dratamurqun həyat və yaradıcılığını özündə əks etdirən nəşrlər saxlanılır. Bunlara misal olaraq AMEA Hüseyn Cavidin Ev Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlının tərtib etdiyi 10 cildlik "Cavidşünaslıq : araşdırmalar toplusu" adlı nəşr xüsusi önəm daşıyır. Muzey tərəfindən "Azərbaycan və Türk xalqlarının ədəbiyyatı və incəsənətinin tarixi inkişaf dinamikası və multikultural proseslərin perspektivləri" adlı layihə çərçivəsində 2018-ci ildə çapdan çıxmış çoxcildliyin ideya müəllifi akademik Akif Əlizadə, elmi məsləhətçisi AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, layihə rəhbəri akademik Teymur Kərimlidir. Oncildlik kitab böyük şair və dramaturq Hüseyn Cavid haqqında yazılmış 82 illik bir dövrü, 1912-1994-cü illəri əks etdirir və ədib haqqında dolğun tarixi-xronoloji məlumat almağa, onun ədəbi-bədii və fəlsəfi-estetik düşüncə tariximizdəki yerini müəyyənləşdirməyə imkan yaradır. Toplunun cildlərinə daxil edilmiş 1912-1994-cü illərdə yazılan məqalələrin böyük bir qismi Hüseyn Cavidin əsərlərinin tamaşalarına olan təhlil və tənqidlərdən, qadağa dövründən sonrakı 5 ildən başlayaraq 1970-ci ilin sonuna qədər yazılmış məqalələrdən, M.Hüseyn, R.Rza, M.Cəfər, Ə.Ağayev, C.Xəndan, A.Zamanov, M.Əlioğlu kimi dövrün tanınmış ədəbiyyatşünas və tənqidçilərin yazılarından, 1971-ci ildən 1983-cü ilin sonunadək olan dövrü əsasən ümummilli lider Heydər Əliyevin Hüseyn Cavid konsepsiyasından, 1982-1983-cü illərdə Hüseyn Cavidin yaradıcılığı, dövrü, ədəbi mühiti və şəxsiyyəti, teatrı haqqında

yazılmış oçerk və məqalələr, xatirə və rəylərdən ibarətdir. Topluda, həmçinin Qulam Məmmədli, Məmməd Cəfər Cəfərov, Abbas Zamanov, Yaşar Qarayev, Bəkir Nəbiyev, Bəxtiyar Va-habzadə, Turan Cavidin məqalələri, 1983-84-cü illərdə "Sovet Azərbaycanı" jurnalında, "Bakı", "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət", "Sovet Naxçıvanı", "Бакинский рабочий", "Вышка", "Советская культура" kimi qəzetlərdə Hüseyn Cavid və onun geniş ədəbi-bədii fəaliyyətinin tədqiqinə həsr olunmuş materiallar, 1984-cü ildə Əziz Şərif, Qulam Məmmədli, Əkrəm Cəfər, Qulu Xəlilov, Abbas Zamanov, Bəxtiyar Vahabzadə, Rəfiq Zəka Xəndan kimi görkəmli tədqiqatçıların araşdırmaları, 1984-1988-ci illərdə Hüseyn Cavidin ədəbi mühiti və şəxsiyyəti, yaradıcılığı, əsərlərinin səhnə həyatı haqqında yazılmış oçerk və məqalələr yer alıb. 10 cildlik "Cavidşünaslıq" toplusu ədəbiyyatşünaslıq sahəsində dəyərli mənbə, tarixi-mədəni və elmi irsdir. Qeyd edək ki, çoxcildliyin daha 20 cildinə 2012- ildə H.Cavidin 130 illik yubileyi zəngin, bədii irsi və şəxsiyyəti, pyeslərin səhnə həyatı haqqında yazılmış məqalələr, xatirələr, internet materialları daxil edilmişdir.

Beləliklə, AMEA Hüseyn Cavidin Ev Muzeyinin zəngin və çoxşaxəli eksponatlar fondunun bəzi nümunələrinin təhlili deməyə əsas verir ki, hazırda böyük şairimizin irsi lazımi səviyyədə öyrənilir, gələcək nəsillərə çatdırılmaq üçün mühafizə olunur və geniş təbliğ edilir.

ƏDƏBİYYAT

1. Babaxanlı Gülbəniz. Hüseyn Cavidin xatirəsinin əbədiləşdirilməsi ümummilli lider Heydər Əliyevin xidmətidir. Hüseyn Cavidin ev muzeyi. Bakı, Şirvannəşr, 2009, S. 26-27.
2. Əhmədli Salatın. Hüseyn Cavidin ev muzeyi. Bakı, Şirvannəşr, 2009, 167 s.

Jamilya Rzayeva

THE PROTECTED FUND OF THE MUSEUM EXHIBITS OF HOME MUSEUM OF HUSEYN JAVID OF ANAS AND THEIR FEATURES

The article is about Husein Javid love for his Motherland, summary and nation. It is about Javid being sent into exile as a panturkist. It is started that everybody loves and respect H.Javed who struggles for freedom and takes care of the young. The article is also about Turan khanim's personality who is Javid's daughter, about her careful and sensitive attitude to her father's works.

Fəridə Azadova
AMEA Hüseyn Cavidin Ev Muzeyi
baş mühafiz
elizadeferide@gmail.com

"UÇURUM" FACİƏSİNİN MƏTBUATDA NƏŞR EDİLMƏSİNİN 100 İLLİYİ

Hüseyn Cavid XX əsr Azərbaycan ədəbiyyatında dahi mütəfəkkir şair, yazıçı, dramaturq, əvəzsiz xidmətləri olan bir sənətkar idi. Sənətkar bir birinin ardınca "Ana", "Maral", "Şeyx Sənan", "Şeyda", "Uçurum", "İblis", "Afət", "Peyğəmbər", "Topal Teymur", "Knyaz", "Səyavuş", "Xəyyam", "İblisin intiqamı" kimi möhtəşəm dram əsərləri ərsəyə gətirməsinə baxmayaraq, həmin əsərlər həm azərbaycan dramaturgiyasında, həm də milli teatrımızın inkişafında böyük rol oynamışdır.

Dramaturqun yaradıcılığının əsasını təşkil edən dram əsərləri sırasında 4 pərdəli "Uçurum" faciəsi xüsusi yer tutur. Mövzu etibarilə Türkiyə həyatından götürülmüş faciədə, ədibi narahat edən Türkiyədə (əsasən İstambulda) gənclərin bir hissəsinin Fransa burjua aristokratiyasının həyat tərzində, məişətində əxlaqa zidd olan dəblərə aludəçilik göstərməsi və bu təqlidçiliyin cəmiyyət, ailə həyatında törətdiyi faciələr açılıb göstərilmişdir. Bu müəllif fikri, qayəsi əsərdə qoca bir türkün dili ilə çox sərrast ifadə edilmişdir:

O gün ki, İstambulda gənclik fransızlaşdı,
Getdikcə türk övladı uçuruma yaxlaşdı.
Yurdumuzu sardıqca düşkün Paris modası,
Hər kəsə örnək oldu sərsəm firəng ədası.
Sərxoşluq, ağılsızlıq sardı bütün gəncləri,
Zəhərləndi getdikcə məmləkətin hər yeri...

"Uçurum"da məhz bu təqlidçilik, modaçılığın nəticəsi olaraq bir ailənin məhv olduğu göstərilir (1,s.12). Faciədə tələbə Yıldırımla gənc, fəlsəfə həvəskarları, müəllim Əkrəm arasında belə söhbət gedir: Əkrəm rəssam Cəlalın sənətində mücərrədlik görür və ona məsləhət verir ki, ibrətli tarixi hadisələrdən, zülmə, haqsızlığa qarşı çıxan qəhrəmanların həyatından ilham alsın və misal üçün Məhəmməd Peyğəmbəri yada salır:

Mən öylə bir rəssam olsaydım əgər,
Hicaz ölkəsinə edərdim səfər.
Uğraşıb dururdum bir xeyli müddət,

Bir çox düşüncədən sonra nəhayət,
Təsvir eyləyərdim gənclik çağında
Böyük Məhəmmmədi Hərra dağınd;
Bir halda ki, göydən enən bir mələk
Qarşısında gülümsər nur səpərək:
Təbliği-vəhy edər: Fəqət daima,
Daima dalğın o sarsılmaz dəha!.. (1,s.12,13)

Əsərdə heca vəzninin yeddilik, səkkizlik, onbirlik və ondördlük ölçülərindən istifadə edilmişdir. Sənətkarın dəfələrlə evində qonaq olmuş Mustafa Quliyev qeyd edir ki, "Uçurum" 1905-1906-cı illərdə müəllifin Türkiyədə olduğu zaman yazılmışdır (2,s.198). Əsər 1917-ci ildə tamamlanmış, 1920-ci il aprel ayında mətbuatda hissə-hissə dərc olunmuşdur. Uçurum faciəsi (1919) ilə Hüseyn Cavid yaradıcılığının birinci mərhələsi başa çatır.

Bu il böyük dramaturqun "Uçurum" faciəsinin ilk dəfə mətbuatda nəşr olunmasının 100 illiyi tamam olur. Bu münasibətlə AMEA Hüseyn Cavidin Ev Muzeyi əsəri yenidən ayrıca kitab halında nəşrə hazırlayır.

"Uçurum" əsəri ilk dəfə 1922-ci il 2 iyunda D.Bünyadzadə adına Hökumət teatrında oynanılır və əsərə Aleksandr İvanov rejissorluq edir. Aleksandr İvanov "İblis" əsərinin də quruluşçu rejissoru olmuşdur. Səhnədə Cəlal rolunu A.M.Şərifzadə, Əkrəm rolunu Kazım Ziya, Uluq bəy rolunu Atamalıbəyov, Anjeli rolunu Mərziyə xanım canlandırmışdır (4,s.70). "Uçurum" pyesinin tamaşaya qoyulmasından sonra mətbuatda çıxan yazılarda bir sıra fikir, mülahizələr qeyd edildi ki, Hüseyn Cavidin əsəri natamamdır, dramaturqun əsərləri getdikcə həyatdan uzaqlaşır (2,s.128). Həmin ərəfədə mətbuda çıxan yazılara görə rejissor Aleksandr İvanov pyesin əsas mahiyyətini vurğulamamış, daha çox romantik tərəflərini göstərmişdir. Bu yazıya cavab olaraq Kazımoğlunun "Kommunist" qəzetinin 1922-ci il 6 iyun buraxılışındakı yazısı çıxır. Kazımoğlu "Uçurum" əsərini geniş təhlil etdikdən sonra qeyd edir ki, əsər nə zəifdir, nədə ki səhnə üçün natamamdır (2,s.130).

1922-ci il 19 oktyabrda bir daha "Uçurum" əsəri tamaşaya qoyuldu. 1923-cü il 30 oktyabr və 30 mayda tamaşa dövlət teatr səhnəsində oynanılır. 1924-cü il noyabr ayında Tişrin sani Dövləti Türk Tiyatrosunda yeni quruluşda 5 pərdəlik "Uçurum" əsəri tamaşaya qoyuldu.

Naxçıvanda doğulub, boya başa çatan sənətkarın əsəri ilk dəfə olaraq 1986-cı ilin dekabr ayında Əliqismət Lalayevin rejissorluğu ilə Naxçıvan teatrında tamaşaya qoyulur.

1926-cı il "Uçurum" əsəri ilk dəfə kitab şəklində "Azərnəşr"də çap olunmuşdur.

Sənətkarın anadan olmasının 100 illiyi münasibətilə tərtib edəni Turan Cavid və professor Əkrəm Cəfərin redaktorluğu ilə 1982-ci ildə "Yazıçı" nəşriyyatında çap olunan "Əsərləri" nin 2-ci cildinə 1912-1920-ci illərdə, yazdığı dram əsərləri daxil edilmişdir. Bunlar "Şeyda", "Afət" pyesləri

və Azərbaycan ədəbiyyatının ilk mənzum dramlarından "Şeyx Sənan", "Uçurum", "İblis" faciələridir.

Hüseyn Cavidin üçcildlik "Əsərləri" ədibin anadan olmasının 120 illiyi münasibətilə Azərbaycan Mədəniyyət Fondu Rəyasət Heyətinin qərarı ilə 2003-cü ildə nəşr olunur. İkinci cildə müəllif 1916-1925 ci illərdə yazdığı "Şeyda", "Uçurum", "İblis", "Afət", "Peyğəmbər" və "Topal Teymur" pyesləri daxil edilmişdir. Hazırkı nəşr 1982-1985-ci illərdə Turan Cavidin tərtibatı və filologiya elmləri doktoru, professor Əkrəm Cəfərin redaktorluğu ilə çap edilmiş dördcildlik "Əsərləri" əsasında hazırlanmışdır.

Cavidin get- gedə dramatik növün ağırlığı ilə müşayiət olunan ədəbi fəaliyyətində fəlsəfi ruhun hakim kəsildiyi poeziyasından gələn çalarların aparıcı olduğu aşkar duyulmaqdadır; onun dram əsərlərinin mühüm bir qisminin mənzum forma daşıması bununla şərtlənir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə 2005-ci ildə Hüseyn Cavid. Əsərləri. Beş cilddə. II cild "Lider nəşriyyat"ında nəşr olunur. Ədibin "Əsərləri"nin II cildinə "Ana", "Maral" və "Şeyda" pyesləri ilə yanaşı, Azərbaycan ədəbiyyatının ilk mənzum dramlarından "Şeyx Sənan", "Uçurum" faciələri daxil edilmişdir.

Hüseyn Cavidin anadan olmasının 125 illiyi münasibətilə 2007-ci ildə Hüseyn Cavid. Əsərləri. 5 cilddə. II cild. "Elm" nəşriyyatında nəşr olunur. Hüseyn Cavidin külliyyatının ikinci cildinə yazılma tarixinə görə xronoloji ardıcıllıqla dram əsərləri – "Ana", "Maral", "Şeyx Sənan", "Şeyda", "Uçurum" pyesləri daxildir.

ƏDƏBİYYAT

1. Cavid H. Əsərləri. 4 cilddə. I cild. Bakı, "Yazıçı", 1982. -321 s.
2. Cavid H. Əsərləri. 4 cilddə. II cild. Bakı, "Yazıçı", 1982. -394 s
3. Cavid H. Əsərləri. 3 cilddə. II cild. Bakı, Azərbaycan Mədəniyyət fondu, 2003. -632 s.
4. Cavid H. Əsərləri. Beş cilddə. II cild. Bakı, "Lider nəşriyyat". 2005.
5. Cavid H. Əsərləri. 5 cilddə. II cild. Bakı, "Elm", 2007. -352 s.
6. "Hüseyn Cavid və müasir gənclik" (Beynəlxalq elmi konfransın materialları). Bakı, 23 oktyabr, 2017, -160 s.

Farida Azadova

100TH ANNIVERSARY OF THE PUBLICATION OF THE "ABYSS" TRAGEDY OF HUSEIN JAVID IN THE PRESS

An extensive chronological information about the tragedy has been given in the article. İt was considered writing, publication of the work, to the history of staging in tragedy.

Lalə Əliyeva
AMEA Hüseyn Cavidin Ev Muzeyi
şöbə müdiri
lali-87@mail.ru

"CAVİDŞÜNASLIQ" TOPLUSU AZƏRBAYCAN ƏDƏBİ-TƏNQİDİ FİKİR TARİXİNİN ÖRƏNİLMƏSİNDƏ MÜHÜM MƏNBƏ KİMİ

Bu gün böyük iftixarla qeyd etməliyik ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin və onun layiqli siyasi varisi, müzəffər ali baş komandanımız, Prezident İlham Əliyevin daim diqqət və qayğısı ilə əhatə olunmuş dahi dramaturq və mütəfəkkir Hüseyn Cavidin zəngin irsi Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Hüseyn Cavidin Ev Muzeyində (bundan sonra - muzey) yüksək səviyyədə araşdırılır və təbliğ olunur. Dəyərli "Yaşayan və yaşadılan tarix" missiyasını yerinə yetirən muzeydə mən də bir əməkdaş olaraq mütəfəkkirin həyat və yaradıcılığının tədqiqi və təbliğ olunması istiqamətində öz fəaliyyətimi həvəslə davam etdirirəm.

Şairin zəngin irsinin araşdırılmasında ilk dəfə olaraq 2015-ci ildə "Cavidşünaslığın tarixi" adlı elmi-tədqiqat işimlə cavidsevərlərin hüzuruna gəlmişdim. Hansı ki, o məqalədə dramaturq haqqında yazılmış 83 illik möhtəşəm bir dövrün 1920-1983-cü illərini əhatə edən materialları özündə əks etdirən və 2012-ci ildə çap olunmuş 10 cildlik "Cavidşünaslıq: araşdırmalar toplusu" təhlilə cəlb olunmuşdur. Bu mənbələr ədib haqqında dolğun tarixi-xronoloji məlumat almağa, onun ədəbi-bədii və fəlsəfi-estetik düşüncə tariximizdəki yerini müəyyənləşdirməyə imkan verir. ""Cavidşünaslıq" təkcə elmi, ədəbi məxəz olaraq əhəmiyyətli deyil, o, həm də Hüseyn Cavid yaradıcılığı işığında yetişən milli-ideoloji ruhun qida mənbəyidir" (12, s.3). Doğrudur, 2018-ci ildə toplunun həmin cildləri yenidən təkmilləşdirilmiş variantda 1994-cü ilə qədər olan materialları da əks etdirməklə çap edilsə də, onun əsas cəhətləri və məzmun xüsusiyyətləri ilk tədqiqat işimdə ətraflı öyrənilmişdir. Bu səbəbdən, hazırkı araşdırmada 2019-2020-ci illərdə çap olunmuş 30 cildlik "Cavidşünaslıq: araşdırmalar toplusu"nun 11-30-cu cildləri (1-20) ilk dəfə olaraq müəllif tərəfindən elmi təhlilə cəlb olunur.

Bu cildlərdə Hüseyn Cavidin yaradıcılığı, zəngin bədii irsi və şəxsiyyəti, pyeslərinin səhnə həyatı, əbədiyaşar sənətkar haqqında xatirələr və internet materialları 1994-2018-ci illər üzrə xronoloji qaydada oxucuların ixtiyarına verilmişdir. Onu da qeyd etmək yerinə düşər ki, bu çətin, lakin son dərəcə əhəmiyyətli və şərəfli iş Azərbaycan ədəbiyyatşünaslığı tarixində ilk belə təşəbbüsdür və geniş elmi mühitdə yüksək qiymətləndirilir. "Azərbaycan və Türk xalqlarının ədəbiyyatı və incəsənətinin tarixi inkişaf dinamikası və multikultural proseslərin perspektivləri" adlı

layihə çərçivəsində çap olunmuş bu nəşrin layihə rəhbəri akademik Teymur Kərimli, elmi məsləhətçisi akademik İsa Həbibbəyli, tərtibçi-müəllifi isə filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlıdır. Heç şübhəsiz, bu dəyərli çoxcildliyin və Cavid yaradıcılığının ayrı-ayrı problemlərinə həsr olunmuş bir çox monoqrafiyanın, biblioqrafik mənbələrin hazırlanması muzeyin direktoru, görkəmli cavidşünas-alim G.Babaxanlının səyi və təşəbbüsü ilə baş tutmuşdur. Qürurverici haldır ki, bu istiqamətdə səmərəli və çoxillik fəaliyyətini yüksək qiymətləndirən cənab Prezident İlham Əliyev 3 noyabr 2015-ci il tarixli "Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarına fəxri adların verilməsi haqqında" sərəncamı ilə Gülbəniz Babaxanlını "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görmüşdür.

Əlbəttə ki, "Cavidşünaslıq: araşdırmalar toplusu"nun 11-30-cu cildinin hər kitabını və ayrı-ayrı problem səciyyəli məqalələri barədə ətraflı söz açmaq fikrində deyiləm. Lakin onun Cavid irsinə dair Azərbaycan ədəbi-tənqidi fikir tarixinin öyrənilməsindəki rolunu və əhəmiyyətini geniş elmi ictimaiyyətin və cavidsevərlərin diqqətinə çatdırmaq məqsədilə bütün bu cildləri və onlarda verilmiş müxtəlif materialları təhlil etməyə çalışmışam. Bu mənbələr Cavidşünaslıq elminin 90-cı illərdən sonra başlayan inkişaf mərhələsini əhatə edir ki, bu proses günümüzə kimi davam etməkdədir. Qeyd edək ki, bu mərhələni iki əsas cəhətlə xarakterizə etmək mümkündür. Birincisi, bu dövrdə Cavidşünaslığa yeni tədqiqatçı nəsil gəlir, ikincisi, o vaxta qədər Cavidşünaslıqda açılmamış və təhlil edilməmiş müxtəlif mövzular üzrə sanballı axtarışlar aparılır, mühüm elmi nailiyyətlər əldə olunur. Bu mövzulardan Cavid və Türkiyə ədəbi mühiti, Cavid və türkçülük, Hüseyn Cavid və ortaq türk dili, Cavid və onun müasirləri, Füzuli-Cavid poetik bağlılığı, Hüseyn Cavid və irfan, Cavid və folklor, Hüseyn Cavid irsi və müasir ədəbiyyatımız, Cavid yaradıcılığında müharibə mövzusu və s. nümunə göstərmək olar. Deməli, bütün bu prosesdə cavidşünasların əsərlərini izləmək, yeni mövzularla tanış olmaq üçün "Cavidşünaslıq: araşdırmalar toplusu"nun 11-30-cu cildlərinə nəzər yetirmək kifayətdir. Çoxcildliyin maraqlı xüsusiyyətlərindən biri də odur ki, bu nəşr həm də oxucularda böyük sənətkarın şəxsiyyəti haqqında tam və dolğun təsəvvür yaradır. Bu xüsusda toplunun cildlərində Cavid haqqında onunla bir dövrdə yaşayan ədəbiyyat adamları, həm də tələbələrinin çoxlu xatirələri ilə tanış oluruq. Cavidin əfəndiliyi, geniş dünyagörüşü, sənətə, sözə bağlılığı, teatr sevgisi, ailə-məişət qayğıları, dostluğa sədaqətliyi, bir sözlə insan kimi möhtəşəmliyi bu xatirələrin özəlliyini təşkil edir.

Nəşrin 11-ci cildinə (1) 1994-1998-ci illərdə Azərbaycan və türk müəlliflərinin Hüseyn Cavidin zəngin bədii irsi və şəxsiyyəti, pyeslərinin səhnə həyatı haqqında yazılmış məqalələri, xatirələri daxil edilmişdir. Bu illərin cavidşünaslığında Rafael Hüseynov, Əkrəm Cəfər, Kamal Abdulla, Zəlimxan Yaqub, Cəlal Qasımov kimi tanınmış ziyalıların, ölkə və xarici alim və tədqiqatçıların imzaları görünür. Burada türkiyəli tədqiqatçı Enver Uzunun oxuculara təqdim olunan "Azerbaycan`da türkçülük çalışmalar ve Hüseyn Cavid" adlı məqaləsi diqqəti cəlb edir. Müəllif məqaləsində yazır:

"Ne yazık ki bugüne kadar ki yazılı kaynaklarda gerek geçmiş ve gerek günümüz Türkçü şairlerinden söz edilirken Azerbaycan`ın görkemli şair ve dramaturk`u Hüseyn Cavid (1882-1941) in Türkçülük anlayışının irdelendiğine pek rastlamıyoruz. Bu onun Türkçülük ile ilgili bazı eserlerinin bilinmediğinden olsa gerektir ki, şimdiye kadar Cavid`in romantik yönü cemiyet aktarışları üzerinde durulmuştur" (1, s.8). Məqalənin təhlili deməyə əsas verir ki, Cavid yaradıcılığında türkçülük ideologiyasının yetərincə öyrənilməməsindən gileylənən, bunu da, onun vətənpərvərlik mövzusundakı əsərlərinin kifayət qədər araşdırılmamasına bağlayan E.Uzun şairin şeirlərindən geniş istifadə edərək sitatlar gətirməyə üstünlük vermişdir.

1999-2002-ci illərin Cavidşünaslığına öz tədqiqatları ilə töhfə vermiş Rafael Hüseynov, Xəlil Rza Ulutürk, Aybəniz Əliyeva-Kəngərli, Gülbəniz Babaxanlı kimi nüfuzlu alimlərin yazılarını əks etdirən toplunun 12-ci cildi maraqlı materiallarla zəngindir. Burada xüsusi maraq kəsb edən məqalələrdən biri tədqiqatçı Fəridə Novruzovanın "Hüseyn Cavidin tamaşalarında bədii tərtibatın imkanları" adlı araşdırmasıdır. Müəllif məqaləsində belə bir faktı qeyd edir: "Ədibin yaşadığı illərdən başlayaraq bu günə kimi onun dramları Azərbaycan teatr səhnəsində tamaşaya qoyulmuşdur. Tamilla Təhmasib "H.Cavid və teatr" (Bakı, 1987) kitabında H.Cavid yaradıcılığını 3 dövrə bölmüşdür" (2, s.124). O, H.Cavid əsərlərində sətiraltı mənaların xüsusi olaraq bir çox çalarlara malik olduğunu nəzərə alaraq tərtibatçı rəssamların bu çalarları kəşf edərək tamaşanın vahid obrazını yaratmağını əhəmiyyətli hesab edir.

Toplunun 13-cü cildinə 2003-2004-cü illərdə Cavidşünaslıqla bağlı İsa Həbibbəyli, Gülbəniz Babaxanlı, Gülşən Əliyeva-Kəngərli, Kamran Əliyev və s. tanınmış alim və ziyalıların tədqiqatları daxil edilmişdir. Materialların içərisində akademik İsa Həbibbəylinin "XX əsrin əvvəlləri Azərbaycan yazıçıları" kitabı üçün yazdığı "Hüseyn Cavid" adlı bioqrafik oçerk xüsusi maraq doğurur. Böyük şairin zəngin həyat və yaradıcılığının əsas tarixləri ilə xronoloji qaydada müfəssəl şəkildə bu oçerkdə tanış olmaq mümkündür. Bu cilddə filologiya üzrə elmlər doktoru, professor Gülşən Əliyeva-Kəngərlinin "Bənzərsiz lirika" adlı məqaləsi də xeyli marağa səbəb olur. Alim məqaləsində yazır: "Xüsusən, "Azər" poemasında fəlsəfi lirikanın gözəl örnəklərinə rast gəlmək mümkündür. "Peyğəmbər" əsərində peyğəmbərin monoloqu da ictimai-fəlsəfi lirikanın uğurlu nümunəsi kimi qiymətləndirilə bilər" (3, s.57). G.Əliyeva-Kəngərli sonda haqlı olaraq belə bir qənaətə gəlir ki, Cavid yaradıcılığında lirikanın mövqeyi olduqca güclüdür, onun müxtəlif yönlərdən elmi araşdırılması və poetik məziyyətlərinin üzə çıxarılması Cavidşünaslığın qarşısında duran aktual problemlərdən birini təşkil edir.

Dəyərli ziyalılarımızdan İsa Həbibbəyli, Teymur Kərimli, Gülbəniz Babaxanlı, Aybəniz Əliyeva-Kəngərli və s. görkəmli alim və tədqiqatçıların Cavidşünaslığın müxtəlif məsələlərini əhatə edən və 2005-ci ildə çap edilmiş araşdırmalarının əks olunduğu topunun 14-cü cildi də zəngin

materiallarla əhatə olunmuşdur. Bu qiymətli qaynaqlar arasında G. Babaxanlının "Hüseyn Cavidin xatirəsinin əbədiləşdirilməsi ümummilli lider Heydər Əliyevin xidmətidir" adlı məqaləsini xüsusi vurğulamaq yerinə düşər. G.Babaxanlı məqalədə yazır: "Hüseyn Cavid öz ölməz əsərləri ilə adını tarixdə əbədiləşdirmiş sənətkarlardandır. Heydər Əliyev isə bu əbədiliyi tamamlayan, bütövləşdirən, bir daha nadanların hücumuna məruz qalmayacaq hala salan, ona layiq olduğu qiyməti verən və layiq olduğu abidələri ucaldan nadir dövlət rəhbərlərindəndir" (4, s.117). Məqalənin əsas ideyasını ümummilli liderimiz Heydər Əliyevin ictimai-siyasi istedadının bütün potensialını sərf etməklə Cavid irsinin qorunması və təbliğinə verdiyi töhfələri göstərmək təşkil edir.

Çoxcildliyin 15-ci cildinə 2006-cı ildə Gülbəniz Babaxanlı, Rafael Hüseynov və s. tanınmış alim və ziyalıların Hüseyn Cavidin zəngin bədii irsi və şəxsiyyəti, pyeslərinin səhnə həyatı haqqında yazdığı məqalələr və xatirələr daxil edilmişdir. Bu cilddə R. Hüseynovun ""Azər" dastanı H.Cavidin həyat və məfkurəsinin ədəbi aynasıdır", G. Babaxanlının "Qərb fəlsəfəsinin poemalara təsiri", "Hüseyn Cavidin "Azər" poemasında Şərq və Qərb", N. Əsədullayevanın "H.Cavidin yaradıcılığında "Azər" poemasının yeri", S.Hüseynovanın "Hüseyn Cavid və qafqaz", X. Pirkişiyevanın "Ə.Firdovsi və H.Cavidin əsərlərində Səyavuş mövzusu" adlı və s. maraqlı araşdırmalar oxucuların istifadəsinə təqdim olunur.

Hüseyn Cavidin yüksək sənətkarlıqla yazılan əsərlərdə diqqəti cəlb edən problemlərin təhlil olunduğu və 2007-ci ildə yazılmış materialları özündə birləşdirən toplunun 16-cı cildi də xeyli dəyərli mənbələrlə əhatə olunmuşdur. Burada İ. Həbibbəylinin "Hüseyn Cavid və sənəti", T. Kərimlinin "Bir neçə söz...", Ş.Həsənəliyevanın "Hüseyn Cavid şəxsiyyətinə böyük ehtiramın ifadəsi", K.Camalovun "Hüseyn Cavid yaradıcılığında müəllim və müəllim hazırlığı məsələlərinə baxış" mövzusunda və s. qiymətli mənbələr öz əksini tapmışdır. Bu baxımdan sonuncu müəllifin məqaləsini diqqətsiz buraxmaq mümkün deyildir. Belə ki, K.Camalov tədqiqatında qeyd edir: "H.Cavid uşaqların fərdi xüsusiyyətlərini, qabiliyyətlərini nəzərə almağı müəllimlərə tövsiyə edirdi. O, deyirdi ki, müəllim dərs dediyi şagirdlərin istək və arzularını, marağını öyrənməli, bunları nəzərə almalıdır. Şagirdlərə pedaqoji və psixoloji cəhətdən düzgün yanaşmadıqda, uşaq psixologiyasının tələblərinə laqeyd olduqda müəllimin xeyirxahlığı gözlənilən nəticəni vermir" (6, s.137). Məqalənin məzmunu ilə tanışlıq və müəllifin fikirlərdən belə bir qənaətə gəlmək olur ki, müəllim-pedaqoq Cavidin təlim və tərbiyəyə aid baxışlarında müəllim haqqında mülahizələri mühüm yer tutur. Burada onun yaxşı bir müəllim olmasının və müəllim haqqında dəyərli fikirlərinin əsaslı və etibarlı qaynaqlarının şahidi olmaq mümkündür.

Böyük dramaturq və filosof-şairin 125 illik yubileyi münasibətilə 26 oktyabr 2007-ci ildə keçirilmiş "Hüseyn Cavid irsi və müasir dövr" mövzusunda Beynəlxalq elmi konfransın materiallarını əhatə edən toplunun 17-ci cildi (7) xüsusilə elmi məqalələrlə zəngindir. Bu cilddə

M.Kərimovun "Böyük Azərbaycan dramaturqu", İ. Həbibbəylinin "Cavid sənətində lirizm", R.Hüseynovun "Cavid əbədiyyəti", T.Kərimlinin "Füzuli Məcnunu və Cavid Sənanı", G.Babaxanlının "Cavid yaradıcılığında dünya abstraksiyası", Y. Axundlunun "Böyük sənətkar", R. Nəbioğlunun "Hüseyn Cavidin estetik idealında qəhrəmanlıq", A.Abdullayevanın "Hüseyn Cavidin mənzum tarixi dramlarında müasirlik" və digər məqalələr cavidşünaslığın inkişafına mühüm töhfə hesab oluna bilər.

Toplunun 18-ci cildinə 2008-ci ildə Hüseyn Cavidin zəngin bədii irsi və şəxsiyyəti, pyeslərinin səhnə həyatı haqqında yazılmış Azərbaycan, rus və türk dillərində məqalələr, xatirələr, internet materialları daxil edilmişdir. Bu ilin cavidnaməsində akademiklər İsa Həbibbəyli, Teymur Kərimli, Muxtar Kazımoğlu, f.ü.e.d. Gülbəniz Babaxanlı və b. ziyalıların imzası görünür. Bunlardan M.Kazımoğlunun "Sənətkarın əyilməzliyi" mövzusundakı məqalə xüsusilə diqqəti cəlb edir. Akademik, araşdırmasında vurğulayır: "İnanmaq çətindir ki, türkçülüyün təqib və təzyiqlərə məruz qaldığı bir vaxtda H.Cavid öz üslubuna sadiq qalıb Azərbaycan və Türkiyə türkcəsinin vəhdətindən yaratdığı özünəməxsus bir dildə yazmaqda davam edir, yaxud Topal Teymurla Sultan Bəyazidin qanlı toqquşması timsalında türk xalqlarının bir-birindən ayrı düşməsini acı həqiqət kimi qələmə alır" (8, s.217). Tədqiqatın ümumi təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, müasir dövrdə Cavid əfəndidən ifrat dərəcədə millətçi, türkçü, turançı kimi danışmağın özü də onun sənətini dar çərçivəyə salmaqdır. Halbuki o, milliliyi bəşərililiklə qovuşduran və insan olmağı hər şeydən üstün tutan möhtəşəm bir söz ustadıdır.

"Cavidşünaslıq: araşdırmalar toplusu"nun əvvəlki cildlərində olduğu kimi, 19-cu cildində də bir çox məqalə, rəy və məruzələr öz elmi, tarixi, bədii çəkisi ilə maraq kəsb edir. Burada 2009-2010-cu illərdə Azərbayca, rus, ingilis və fransız dillərində çap olunmuş materiallar cavidsevərlərin ixtiyarına verilmişdir. Mənbələrin içərisində professor Səlahəddin Xəlilovun "Cavid və Əttar" adlı məqaləsinə toxunmamaq olmur. Belə ki, hər iki şairin "Şeyx Sənan" əsərlərini müqayisəli təhlilə cəlb edən alim yazır: "H.Cavidin Şeyx Sənanı F.Əttarın eyni adlı obrazından fərqli olaraq qarşısına ancaq eşqin qüdrəti ilə tərsa qızına ilahi eşq təlqin etmək, bir vücudun zahiri gözəlliyini daxili işıqla tamamlamaq deyil, bütövlükdə eşq duyğusunu ilahi eşq səviyyəsində təqdim etmək və dini duyğuları da təfərrüatlardan, mərasimçilikdən, zahirilikdən təmizləyərək ilahi eşq məqamına yüksəltmək və bütün dinləri bu yüksək məqamda birləşdirmək məqsədi qoyur" (9, s.173-174). Məqalənin ümumi məzmunu ilə tanışlıq belə qənaətə gələməyə sövq edir ki, ideal sevgili kimi məhz başqa din nümayəndəsinin seçilməsi, bir tərəfdən, eşqin daha böyük maneələri aşmaq qüdrətini göstərmək üçündürsə, digər tərəfdən, sevgi məqamında dinlər arasında fərqin aradan götürüldüyünü göstərmək üçündür.

Şəxsiyyəti və şeiriyyəti ilə zamanın bütün sınaqlarından çıxmış, haqq-ədalət, yaradıcılıq, əbədiyyət aynasında ancaq özü kimi görünən, bu bənzərsizliyinə rəğmən, daim əzəmətli söz nəhəngləri, poeziya ustadları ilə qoşa çəkilən Hüseyn Cavid haqqında 2011-2012-ci illərdə çap olunmuş bütün materiallar toplunun 20-ci cildinə salınmışdır. Bu cilddə görkəmli ədəbiyyatşünas-alim, akademik Nərgiz Paşayevanın Himalay Ənvəroğlunun "Sənət və sənətkarlıq məsələləri yeni düşüncə müstəvisində" kitabına yazdığı ön söz bir çox yeni fikirləri ilə xeyli əhəmiyyətlidir. Akademik burada kitabın müəllifinin araşdırmasını yüksək dəyərləndirərək qeyd edir: "Tədqiqatçı S.Vurğunun, İ.Əfəndiyevin və Anarın dramaturgiyasının təhlili prosesində H.Cavid sənətinin önəmini də məxsusi vurğulayır, onların dramaturji ustalığında bu böyük dahinin nə kimi rol oynadığı barədə inandırıcı mülahizələr yürüdür" (10, s.314). Kitabla ətraflı tanışlıqdan sonra bildirmək yerinə düşər ki, tarixiliklə müasirliyi konkret dramaturji əsərlərin tədqiqi müstəvisində bir araya gətirən H.Ənvəroğlunun sənətin ruhiliyini tədqiq predmetinə çevirməsi təqdirəlayiqdir.

Maraqlıdır ki, çoxcildliyin 21-ci cildində əvvəlki cilddə olduğu kimi 2012-ci ildə çap edilmiş, Cavidin həyat və yaradıcılığına həsr olunmuş elmi, ədəbi-bədii, publisistik materialları əhatə edir. Bu da onunla bağlıdır ki, 2012-ci ildə ədəbin 130 illik yubileyi münasibətilə qələmə alınmış yazı və tədqiqat əsərləri digər illərə nisbətən xeyli çox olmuşdur. Nəşrin bu cildinə daxil olan materiallarda Hüseyn Cavidin məhbusluq həyatının bəzi məqamları, yaradıcılığının müxtəlif ədəbi-bədii aspektləri, dünya klassiklərinin yaradıcılığı ilə müqayisəli tədqiqi, Hüseyn Cavid sözünün fəlsəfi-estetik mahiyyəti və s. öz əksini tapmışdır. Burada akademik İsa Həbibbəylinin "Hüseyn Cavid yaradıcılığında sənətkarlıq" adlı məqaləsi təhlil orijinallığı və genişliyi ilə yanaşı, milli didaktik mahiyyəti ilə də digərlərindən fərqlənir. Məqalənin təhlili ilə bağlı G.Babaxanlı yazır:"Təsadüfi deyil ki, akademik Hüseyn Cavid poemaları haqqında "lirik-fəlsəfi düşüncə poeması; milli-mənəvi özünüdərk poeması" kimi haqlı ibarələrdən istifadə etmiş, Hüseyn Cavid yaradıcılığının poetik işığını Vətən övladının əski adətlərin zəncirindən xilas olub divanəlikdən aqilliyə doğru keçməli olduğu maariflənmə və mədəni tərəqqi yoluna bir növ bələdçi, kəhkəşan kimi səciyyələndirmişdir"(11, s. 4).

Hüseyn Cavidin həyat və yaradıcılıq yolunun bələdçisi və çoxillik zəhmətin nəticəsi olan "Cavidşünaslıq" ədəbi-bədii araşdırmalar toplusu bütün cildləri ilə retrospektiv xarakter daşısa da, hər zaman aktual və oxunaqlıdır. Nəşrin əvvəlki cildlərində olduğu kimi, 22-ci cildində (12) də bir çox məqalə, rəy və məruzələr öz elmi, tarixi, bədii çəkisi ilə diqqəti cəlb edir. Bu mənada akademiklər İsa Həbibbəyli, Teymur Kərimli, Rafael Hüseynov, Kamal Abdullanın topluya daxil edilmiş məqalələri xüsusilə seçilir. Bu materiallar Hüseyn Cavidin həyat və yaradıcılığına daha geniş və fərqli təhlil müstəvisi yaradır. Nəşrin xronoloji çərçivəsi 2013-cü ilin cavidşünaslığını əhatə edir. Bu cildə daxil edilmiş məqalələrin fərqli xüsusiyyətlərini onlarda Ümummilli lider Heydər Əliyevin Hüseyn Cavid şəxsiyyətinə və yaradıcılığına göstərmiş olduğu diqqət və qayğının təzahüründən, milli

mədəniyyət tariximizdə "Cavid teatrı"nın rolundan, filosof şairin romantik mənzum dramaturgiyasının özünəməxsus prinsiplərindən, Cavid yaradıcılığının klassik ədəbiyyata nəzərən müqayisəli təhlilindən geniş bəhs olunması təşkil edir.

Bildiyimiz kimi, 2013-cü ildə Hüseyn Cavidlə türk dünyasının başqa bir dahi söz ustadı, İstiqlal marşının müəllifi Məhməd Akif Ərsoy arasında ədəbi-bədii müstəvidə bağların, körpülərin axtarışı, onların həyat və yaradıcılığındakı oxşar və fərqli cəhətlərin təhlili məqsədilə təşkil olunmuş "Türk dünyasını işıqlandıranlar: Məhməd Akif Ersoy və Hüseyn Cavid" adlı beynəlxalq konfrans da Cavid əfəndinin bədii sənətkarlığına müqayisəli yanaşmanın uğurlu nümunəsi olmuşdur. Toplunun 23-cü cildi (13) məhz həmin konfransın materiallarını əhatə edir. AMEA Hüseyn Cavidin Ev Muzeyi, AMEA Şərqşünaslıq İnstitutu, Qafqaz Universiteti, Türk İşbirliyi və Əlaqələndirmə Agentliyi və Türkiyənin Yunus Əmrə İnstitutu, Məhməd Akif Ərsoy fikir və sənət vəqfinin birgə təşkilatçılığı ilə keçirilmiş həmin tədbirin materialları "bir millət, iki dövlət"in bənzər tale yaşamış iki şairini Türk xalqlarının istiqbal mücadiləsi, milli özünüdərk kontekstində öyrənmək üçün dəyərli mənbələrlə zəngindir.

Məlum olduğu kimi, bu gün Cavid lirikası və dramaturgiyası dünyanın bir çox dillərinə tərcümə olunur, yeni oxucu qazanır, Qərb ədəbiyyatşünaslığında tədqiq və müqayisə predmetinə çevrilir, obyektiv qiymətini həm də beynəlxalq ədəbi tənqid səviyyəsində alır. Cavid taleyinə və yaradıcılığına tarixi-xronoloji yanaşmanın nümunəvi göstəricisi olan toplunun 24-cü (14) və əvvəlki cildlərində öz əksini tapan materiallarda mövzu ilə daha yaxından tanış olmaq olar. Dramaturqun bədii fəaliyyətinin müxtəlif problemlərinə həsr olunmuş məsələlərin işığında Cavid şəxsiyyətinin qətiyyəti və böyüklüyü bir daha öz təsdiqini tapır. Maraqlı cəhətlərdən biri də odur ki, bu cildin əhatə etdiyi 2013-2014-cü illərin cavidşünaslığında iki dahinin – Hüseyn Cavid və Heydər Əliyevin qarşılaşdırıldığı, təhlil edildiyi məqamlar kifayət qədərdir.

Toplunun 25-ci cildi (15) 2015-ci ildə mütəfəkkir-şair Hüseyn Cavid haqqında yazılmış və hər zaman olduğu kimi ayrı-ayrı elmi jurnallarda, mətbuat orqanlarında, veb-səhifələrdə dərc olunmuş yazıları özündə birləşdirir. Bu ilin Cavidşünaslığı maraqlı və orijinal tədqiqat əsərləri, obyektiv rəy və fikirlərlə zəngindir. Belə ki, Azərbaycan ədəbiyyatının Naxçıvan məktəbinin formalaşmasında Hüseyn Cavidin rolu və yerinin təhlili ilə başlanan bu cild Cavid poeziya teatrının; Hüseyn Cavidin publisistik məqalələrində maarifçilik ideyalarının; Hüseyn Cavidin İstanbul məktublarının və osmanlı mətbuatında "Cavid" imzasının; Sovet mətbuatında Hüseyn Cavid yaradıcılığına tənqidi münasibətin; Cavid yaradıcılığında qadına baxışın; Hüseyn Cavid romantizmində dünya modelinin və fəlsəfi pafosun və s. məsələlərin tədqiqi və öyrənilməsi ilə davam edir.

Aydındır ki, "Cavidşdünaslıq: araşdırmalar toplusu"nun istər əvvəlki, istərsə də 26-cı cildində (16) görkəmli sənətkarın fəlsəfəsinə xas olan xüsusiyyətlər tədqiq olunub. Burada Cavidin anadan

olmasının 133 ildönümü münasibətilə keçirilmiş "Hüseyn Cavid əsərlərinin gənc nəslin tərbiyəsində rolu" adlı Respublika elmi konfransının (23 oktyabr 2015) materialları, eləcə də, ədibin həyat və yaradıcılığının müxtəlif problemlərinə həsr olunmuş və 2015-ci ildə çap edilmiş müxtəlif yazılar daxil edilmişdir.

Çoxcildli nəşrin 2016-cı ildə Cavidə həsr olunmuş tədqiqatları əhatə edən 27-ci cildində akademiklər İsa Həbibbəyli, Teymur Kərimli, Rafael Hüseynov və Nizami Cəfərov kimi tanınmış alimlərin imzaları diqqəti cəlb edir. Bu və digər tədqiqatçıların məqalələrində şairin türkcəsi və dilinin leksikası, müxtəlif araşdırmalarda onun bədii irsi, yaradıcılığında atalar sözləri və məsəllərin işlənmə xüsusiyyətləri, Cavid yaradıcılığında Bakı toponimi, Cavidşünaslığın təşəkkülü və inkişafı kimi biri-birindən fərqli, amma eyni zamanda Cavid irsinin dərindən öyrənilməsinə xidmət edən məsələlərin tədqiqinə də yer verilmişdir.

Milli poetik teatrımızın, mənzum dramaturgiyamızın banisi H. Cavidin zəngin bədii irsinə və şərəfli ömür yoluna müasir baxışın məcmusu hesab olunan toplunun 28-ci cildi (18) öz zəngin materialları ilə oxucuların və tədqiqatçıların ixtiyarına verilmişdir. Bu cildin xronoloji çərçivəsi 2017-ci ili ədibin anadan olmasının 135 illiyini tamamlayan zaman kəsiyini əhatə edir və Cavid yaradıcılığının bilinən və bilinməyən tərəflərinə, özünəməxsus xüsusiyyətlərinə yeni dövrün dəyərləri kontekstində işıq salır və bir daha əmin edir ki, Cavid yaradıcılığı müəyyən mənada hazırlıqlı oxucu üçündür.

Hüseyn Cavid irsinə müasir, qayğıkeş münasibət toplunun 29-cu cildində oxuculara təqdim edilən materiallarda öz əksini tapmışdır. Əvvəlki cild kimi burada da 2017-ci ilin Cavidşünaslığını özündə cəmləşdirmişdir. Bu cildin məzmununu Hüseyn Cavidin 135 illik yubileyi münasibətilə muzeyin təşkil etdiyi "Hüseyn Cavid və müasir gənclik" adlı Beynəlxalq elmi konfransın materialları təşkil edir. Buradakı məqalələrdə Cavidin nəinki indiki gəncliyə, həm də, yuxarıda qeyd etdiyimiz kimi, son yüz ildə biri-birini əvəzləmiş nəsillərə, Azərbaycan insanına, o cümlədən gənclərinə milli idealların, prinsip və dəyərlərin seçilməsi baxımından örnək olduğu vurğulanır.

Nəhayət, "Cavidşünaslıq: araşdırmalar toplusu"nun hələlik sonuncu olan 30-cu cildində (20) 2017-2018-ci illərin Cavidşünaslıq araşdırmalarının əks olunması belə deməyə əsas verir ki, sonrakı cildlər xronologiya etibarilə cari xarakter daşıyacaq və bilavasitə nəşr olunduğu ilin mənbələrini əhatə edəcəkdir.

Beləliklə, Cavid salnaməsindəki materialların təhlili bir daha onu göstərir ki, ədibin yaradıcılığına olan tükənməz məhəbbət və diqqət təkcə formal tədqiqatçılıq marağının, müqayisəli tarixi-sosial araşdırmaçılığın, romantikaya, lirikaya həvəsin nəticəsi deyil, eyni zamanda, Cavidin timsalında şəxsiyyət-yaradıcılıq tandeminin mükəmməliyinə olan heyrətimizin göstəricisidir. Cavid-şünaslıq sahəsində möhtəşəm bir nəşr kimi "Cavidşünaslıq: araşdırmalar toplusu"nun 11-30-cu

cildlərinə daxil edilmiş materiallar dəyərli mənbə olaraq Hüseyn Cavidin bir filosof sənətkar kimi çətin və keşməkeşli yaradıcılıq həyatında keçdiyi ömrün mərhələlərini təhlil etməyə, şəxsiyyətinin yenilməzliyini, bütövlük və əzəmətini dərk etməyə əsas verir. Şübhəsiz, bu mənbələr Cavidşünaslığın nəzəri-tarixi problemlərini araşdıran müasir tədqiqatçılara ədəbi-tənqidi və bədii-estetik fikrin Hüseyn Cavid yaradıcılığına münasibətini öyrənməyə imkan verəcəkdir. Ümidvarıq ki, bundan sonra da böyük dramaturqun sənəti ilə bağlı kimsə bir tədqiqat əsəri yazmalı olsa, mütləq "Cavidşünaslıq: araşdırmalar toplusu" kimi dəyərli bir qaynağa müraciət edəcəkdir və biri-birindən maraqlı bu və digər məqalələrlə zəngin nəşr kimi cavidsevər oxucular, Hüseyn Cavidin həyat və yaradıcılığını araşdıran tədqiqatçılar tərəfindən yüksək qiymətləndiriləcəkdir.

ƏDƏBİYYAT

1. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 11 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2019. - 447 s.
2. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 12 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2019. - 447 s.
3. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 13 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2019. - 447 s.
4. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 14 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2019. - 447 s.
5. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 15 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2019. - 447 s.
6. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 16 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2019. - 447 s.
7. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 17 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2019. - 447 s.
8. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 18 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2019. - 447 s.
9. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 19 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2019. - 447 s.
10. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 20 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2019. - 443 s.
11. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 21 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2020. - 416 s.

12. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 22 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2020. - 400 s.
13. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 23 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2020. - 384 s.
14. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 24 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2020. - 400 s.
15. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 25 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2020. - 432 s.
16. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 26 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2020. - 450 s.
17. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 27 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2020. - 464 s.
18. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 28 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2020. - 400 s.
19. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 29 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2020. - 400 s.
20. Cavidşünaslıq: araşdırmalar toplusu. Cild 30 / AMEA, Hüseyn Cavidin Ev Muzeyi tərtibçi-müəl. G. Babaxanlı. - Bakı: Elm və təhsil, 2020. - 436 s.

Lale Aliyeva

"JAVIDSHUNASLIG" RESEARCH COLLECTION IS AN IMPORTANT SOURCE IN STUDYING THE HISTORY OF AZERBAIJANI CRITICAL THINKING HISTORY

For the first time, volumes 11-30 of the collection "Javidshunasliig" published in 2019 and 2020 are involved in scientific analysis in the article. The works included in these volumes, Huseyn Javid's creativity, rich artistic heritage and personality, stage life of his plays, memoirs about the eternal artist and internet materials are studied. The attitude of literary-critical and artistic-aesthetic thought of the sources here to the work of Huseyn Javid is studied.

Aytən Cəfərli
AMEA Rəyasət Heyəti
mütəxəsis
djafarli.aytan@list.ru

HÜSEYN CAVİDİN "İBLİS" ƏSƏRİ 101 (ƏDƏBİ-TARİXİ XRONİKA)

Azərbaycan romantik ədəbiyyatının görkəmli nümayəndəsi, mənzum dramın banisi Hüseyn Cavid yaradıcılığa poeziya ilə başlasa da, Azərbaycan ədəbiyyatı tarixində daha çox dramaturq kimi şöhrət tapmış, dramatik janrın bir çox təkrarsız nümunələrini yaratmışdır. Hüseyn Cavid yaşadığı dövrün mühüm hadisələrinə həssas sənətkar gözü ilə yanaşan və öz münasibətini bildirən şair olmuşdur. Bu baxımdan onun Birinci dünya müharibəsinə münasibəti olduqca əhəmiyyətlidir. Bu mövzuda müəllifin ən böyük əsəri "İblis" faciəsidir. Hüseyn Cavid bu əsəri 1918-ci ildə yazmışdır.

1920-ci ilin oktyabrın 7-də Aşqabadda «5 nömrəli müsəlman truppası» tərəfindən Cavidin «İblis» pyesi oynanmışdır. Baş rejissoru Rzaqulu Abdullazadə, rəssamı Biçenko olmuşdur.

Faciə 1920-ci il 21 dekabrda Abbas Mirzə Şərifzadə tərəfindən Dövlət teatrında səhnəyə qoyulmuşdur. 1920-ci illərin əvvəllərində pyes əhəmiyyətli müvəffəqiyyət qazanmışdır. "İblis" səhnələşdirilən ilk Azərbaycan poetik dramdır. Dram əsəri yalnız mürəkkəb fəlsəfi məzmunu ilə deyil, həm də romantik üslubu ilə diqqətə layiqdir. "İblis" Hüseyn Cavidin ilk səhnəyə qoyulan əsəridir."İblis"-in ilk səhnələşməsi Azərbaycanın teatr həyatı üçün böyük hadisə idi. Az vaxt içərisində "İblis" faciəsinin sədaları Zaqafqaziyanın bir çox şəhərlərində eşidildi.

1920-ci ilin dekabrında dramın premyerası Daşkənddə Özbəkistan dövlət truppası tərəfindən Azərbaycan dilində səhnələşdirilmişdir.

İkinci dəfə tamaşa 1921-ci ildə Azərbaycan Dövlət Teatrında eyni cür olaraq nümayiş etdirilmişdir. Daha sonra tamaşa rejissorlar Aleksandr İvanov (1922-ci ildə) və Aleksandr Tuqanov (1926-cı ildə) tərəfindən Dadaş Bünyadzadə adına eyni Dövlət Türk (Azərbaycan) Teatrının səhnəsində nümayiş etdirilmişdir. Eyni zamanda tamaşa Tiflis, Batumi, Naxçıvan və digər şəhərlərdə nümayiş etdirilmişdir. Sovet rejiminin ilk illərində, tamaşa özbək dilinə tərcümə olunmuşdur. 1923-cü ildə tamaşa özbək dilində səhnəyə qoyulmuşdur.

H.Cavidin "İblis" pyesi 1921-ci ildə ilk dəfə Naxçıvan teatrında tamaşaya qoyulmuşdur. Faciədə baş rollarda Rza Təhmasib, Kazım Ziya, Həsən Səfərli, Heydər Muradov və Əli Xəlilov çıxış etmişlər. Daha sonralar "İblis" faciəsi Naxçıvana qastrola gələn Abbasmirzə Şərifzadə tərəfindən tamaşaya qoyulmuşdur.

1920-23-cü illərdə D.Bünyadzadə adına teatrın direktoru vəzifəsini daşıyan görkəmli bəstəkarımız Müslüm Maqomayev "İblis"i səhnədə opera şəklində görmək istəmiş və 1922-ci ildən bu əsəri opera kimi işləməyə başlamış, hətta bir sıra səhnələrin musiqisini də yazmışdır.

1923-cü ilin martın 30-da Rustaveli teatrında M.S.Kirmanşahlının quruluşunda Hüseyn Cavidin "İblis" dramı tamaşaya qoyulmuşdu.

Pyes ilk dəfə 1924-cü ildə nəşr olunmuşdur. Daha sonra əsər 1927, 1959, 1969, 1982, 2001 və 2005, 2007-ci illərdə nəşr olunmuşdur. 1931-ci ilin Kiçik Sovet Ensiklopediyasında əsər poema adlandırılmışdır. Əsər Hüseyn Cavidin ən yaxşı dramlarından sayılır.

Qeyd olunur ki, tamaşa 1921-1924-cü illərdə Özbəkistanın tanınmış mədəniyyət xadimi - Həmzə Həkimzadə Niyazi səyləri ilə səhnələşdirilmişdir. Bu əsərin Özbəkistanda və digər Orta Asiya respublikalarında teatr sənətinin inkişafına təsiri də qeyd edilir. 1924-cü ildə tamaşa Daşkənddə də səhnələşdirilmişdir.

1925-ci il aprel ayının 6-da Hüseyn Cavidin "İblis" adlı əsəri Dövlət Türk Teatrında, tamaşaya qoyulmuşdu. Əsas rollarda Mərziyə xanım (Xavər), Şərifzadə (İblis), Qafqazlı (Arif), Gəraybəyli (İbn-Yəmin) oynamışdılar.

1926-cı il fevralın 5-də Rustaveli teatrında İran "İttifaq" məktəbində Cavidin "İblis" dramı oynandı. Həmin ilin may ayının 27-sində Naxçıvan Dövlət Teatrında, Bakı Dram Dəstəsi tərəfindən Müəllifin İblis pyesi tamaşaya qoyuldu. Baş rollarda Azərbaycan səhnəsinin ən görkəmli sənətkarlarından Abbas Mirzə Şərifzadə, Mərziyə xanım, Bağır Cabbarzadə, Yeva xanım, Əli Qurban, Hidayətzadə, Şaraplı, Qafqazlı bir çox başqa sənətkarlarımız iştirak etmişlər.

1926-cı ilnoyabr ayının 11-də Dövlət Türk Akademik Teatrında birinci dəfə olaraq Hüseyn Cavidin "İblis" dramı tamaşaya qoyuldu. Faciədə baş rollarda Abbas Mirzə Şərifzadə, Rza Təhmasib, Kazım Ziya, Mərziyə, Əli Qurban, çıxış etmişlər.

1927-ci il yanvarın 10-da Poltaratskidə (Aşqabad) şəhər yerli türk aktyorları tərəfindən dövlət teatrında Hüseyn Cavidin "İblis" əsəri tamaşaya qoyuldu.

Cənubi Azərbaycanın teatr həvəskarları da Cavid yaradıcılığına müraciət edərkən onun məhz "Şeyx Sənan" və "İblis" faciələrini seçmişlər. 1944-1945-ci illərdə Təbriz dram teatrının rejissoru Əli Kənani "İblis"i tamaşaya hazırladı. İblis rolunu istedadlı aktyor Nemət oynayırdı. Bundan başqa Nəriman İbrahimzadə də həmin rolda çıxış etmişdi. Digər rollarda Leyla Möhsünpur, Səlman Səlmanpur, Həbib Quluzadə müvəffəqiyyətlə çıxış etmişdilər.

"İblis" faciəsi təxminən 1943-1944-cü illərdə Marağada həvəskar aktyor truppası tərəfindən oynanılmışdır.

1983-cü ildə Hüseyn Cavidin 100 illik yubileyi münasibətilə əsərə görkəmli teatr rejissoru Mehdi Məmmədov quruluşverib. Mehdi Məmmədovun səhnələşdirdiyi "İblis", fəlsəfi-psixoloji dərinliyə sahib idi.

"İblis" tamaşası üçün musiqini Aydın Əzimov bəstələyir, bədii tərtibat isə rəssam Elçin Məmmədovla Nazim Bəykişiyevindir. Əsas rolları Azərbaycan SSR xalq artistləri Məmmədrza Şeyxzamanov, Həsən Turabov, Rasim Balayev, əməkdar artistlərdən Səməndər Rzayev, Səfurə İbrahimova, Hamlet Xanızadə, Vəfa Fətullayeva, Kamal Xudaverdiyev, Ramiz Məlikov, eləcə də teatrın yaradıcı gəncləri ifa etmişlər. Tamaşa "monumentalizm və modernizmin sintezi tərzində" həyata keçirilmişdir. Akademik Milli Dram teatrın səhnəsində böyük uğurla nümayiş olunan əsər Azərbaycan Televiziyası və Radiosunun "Qızıl Fond"unda qorunub saxlanılır.

"İblis" əsərinin yazılmasının 100 illiyi münasibətilə İstanbulun Harbiyə-Muhsin Ərtoğrul səhnəsində əsər tamaşaya qoyulmuşdur.Tamaşa İstanbul Şəhər Teatrları və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun təşkilatı dəstəyi ilə hazırlanıb.

Hüseyn Cavidin üçcildlik "Əsərləri" ədibin anadan olmasının 120 illiyi münasibətilə Azərbaycan Mədəniyyət Fondu Rəyasət Heyətinin qərarı ilə nəşr olunur. İkinci cildə müəllifin 1916-1925-ci illərdə yazdığı "Şeyda", "Uçurum", "İblis", "Afət", "Peyğəmbər" və "Topal Teymur" pyesləri daxil edilmişdir. Hazırkı nəşr 1982-1985-ci illərdə Turan Cavidin tərtibatı və fil.e.d. professor Əkrəm Cəfərin redaktorluğu ilə çap edilmiş dördcildlik "Əsərləri" əsasında hazırlanmışdır. Bu cilddə təqdim edilən "İblis" və "Peyğəmbər" pyesləri 2002-ci ildə Turan Cavidin redaktorluğu ilə nəşr edilmiş "Hüseyn Cavid" kitabından götürülmüşdür. Həmin pyeslər redaktor tərəfindən məhz H.Cavidin yazdığı şəkildə bərpa olunmuşdur.

Hüseyn Cavidin"Əsərləri" beş cilddə 2005-ci ildə Bakıda "Lider nəşriyyat"ı tərəfindən nəşr olunmuş kitabınüçüncü cildinə müəllifin "İblis" əsəri daxil edilmişdir.

"İblis" Cavid dramaturgiyasının şah əsəridir. Əsər 1918-ci ildə yazılmasına baxmayaraq, mövzu bu gün də aktuallığını qoruyur və təəssüf ki, müasir həyatımızda davam edən qarşıdurmaları özündə əks etdirir.

ƏDƏBİYYAT

1. Məmmədli Q. Cavid-ömrü boyu. Həyat və yaradıcılıq salnaməsi, Bakı: Yazıçı, 1982. - 296 s.
2. Cəfər M. Hüseyn Cavid. Bakı: 1960. - 262 s.
3. Cavid H. Əsərləri. IV cilddə. I cild. Bakı: Yazıçı, 1982, - 322 s.
4. Cavid H. Əsərləri. Beş cilddə. III cild. Bakı, "Lider nəşriyyat", 2005. -304 s.
5. Cavidşünaslıq. II cild (araşdırmalar toplusu). Bakı: 2012,- 256 s.

Aytan Cafarli

"DEVIL"OF HUSEIN JAVID 101
(LITERARY - HISTORICAL CHRONICLE)

"Iblis" is a masterpiece of Javid dramaturgy. "Iblis" is the first work of Huseyn Javid. The first performance of "Iblis" is a big event in Azerbaijan's theater life. His drama works stand out not only for their complex philosophical content, but also for their romantic style. Although the work was written in 1918, the theme is still relevant today and unfortunately reflects the ongoing conflicts in our modern life. In a short time, the echoes of the "Iblis" tragedy were heard in many cities of the Caucasus.

Fariz Qasımbəyli
AMEA Hüseyn Cavidin Ev Muzeyi
baş mütəxəssis
fariz.qasimbeyli@yandex.com

MİRZƏ ƏLƏKBƏR SABIR VƏ HÜSEYN CAVİD YARADICILIĞINDA ORTAQ İDEYALAR

Məlum olduğu kimi, ümumbəşəri din olan islam dini VII əsrin əvvəllərindən etibarən Azərbaycanda hakim bir dinə, islami dəyərlər də öz növbəsində zaman ötdükcə Azərbaycan türklərinin milli-mənəvi dəyərlərinin ayrılmaz bir parçasına çevrilmişdir. Ulu öndər Heydər Əliyev islami dəyərlərə yüksək qiymət verir, xalqımızın mənəvi sərvəti adlandırırdı: "Bizim mənəvi, islami dəyərlərimiz nəsillərdən-nəsillərə keçib, yaşayıb, gəlib bu günlərə çatıb. Bunlar bu gün də xalqımızın, millətimizin ən böyük mənəvi sərvətidir"[1, s.199].

Mövhumat və xurafat məsələsinə gəldikdə isə, ilk öncə onu qeyd etmək lazımdır ki, bunlar islam dininin nüfuzuna ən böyük zərbə vurmuş amillərdən biri, bunları doğuran səbəblər müxtəlif olsa da, qol-qanad açmasına rəvac verən başlıca səbəb cəhalət və savadsızlıq mühiti olmuşdur.

İstər dini düşüncəyə, o cümlədən islam dininə düşmən münasibət bəsləmiş sovet tədqiqatçıları, istərsə də bəzi müasir araşdırmaçılar mövhumat və xurafatın doğurduğu bir sıra ifadə, davranış və ayinləri islama aid elementlər kimi göstərməyə, Azərbaycanın görkəmli şair və yazıçıları tərəfindən bunların tənqid olunmasını da islam dininin, islam fəlsəfəsinin tənqidi, müəllifləri isə ateist kimi təqdim etməyə çalışmışlar. Lakin ətraflı və obyektiv tədqiq olunduqda tamamilə aydın olur ki, həmin mövhumat və xurafat ünsürlərinin islam dini, islam dünyagörüşü ilə heç bir bağlantısı, əlaqəsi yoxdur.

Əslində isə, mövhumat və xurafata qarşı mübarizə islam dininin saflığını, əsasını, özünü ortaya çıxarmağa, ona zərər vurmaqda olan bu ünsürlərdən arındırmağa yönəlmiş məqsədyönlü fəaliyyətdir. Mövhumat və xurafata qarşı mübarizə xalqın oyanması, tərəqqisi ilə bərabər, həm də birbaşa islama xidmətdir. Bunu gözəl başa düşən, XIX əsrin sonu, XX əsrin əvvəllərində xalqın cəhalət buxovlarından azad olması üçün çalışan Azərbaycanın tərəqqipərvər ziyalıları, aydın fikirli yazıçı, şair və publisistləri bu uğurda əzmkarlıqla mübarizə aparırdılar ki, Azərbaycan türklərinin yetişdirdiyi iki böyük qələm ustası – Mirzə Ələkbər Sabir və Hüseyn Cavid də həmin mübarizənin ön səflərində vuruşurdular.

Cavid Azərbaycan romantizminin və dramaturgiyasının olduğu kimi, Sabir də Azərbaycan satirik poeziyasının ən qüdrətli nümayəndələrindən biridir. Cavid Azərbaycan ədəbiyyatına ilk

mənzum faciə və dram müəllifi, Sabir isə "ədəbiyyat tariximizə süjetli satirik şeirin yaradıcısı, milli satirik şeirimizə ilk dəfə olaraq qırmanc, taziyanə, satirik bəhri-təvil, sual-cavab, satirik marş və s. kimi janrlar gətirmiş bir novator kimi daxil olmuşdur" [2, s.76]. Fərqli ədəbi cərəyanların nümayəndələri olmalarına, dil və üslub fərqliliklərinə baxmayaraq bu iki ölməz sənətkarın yaradıcılıq və mübarizəsində bir sıra ortaq məqamlar da mövcuddur.

Böyük Yaradana, islam peyğəmbərinə, islami dəyərlərə yaradıcılıqlarında daim ehtiram nümayiş etdirən Sabir və Cavid də xalqı mövhumat və xurafat viruslarından xilas etməyin vacibliyi üzərində diqqətlə dayanmışlar. Uşaqların kiçik yaşlarından tərbiyə aldıqları ailələrdə məruz qaldıqları, yoluxduqları xürafat xəstəliyinə diqqət çəkən Cavid yazırdı: "Biçarə çocuq iki-üç yaşından başlayaraq məktəb otağına girincəyə qadar xürafat uçurumlarında yuvarlanır gedər. Bir otaqdan digər otağa girəcək olsa "damdabaca"lar ilə qorqutulur. Başı açıq dışarı çıqacaq olsa göydən başına adamcıl qurt dərisi düşər. Qaranlıq bir yerə getsə cinlər, divlər ilə təhdid edilir. Hasili ənvai-mevhumat ilə zavallının mənəviyyatı alt-üst olur" [3, s.243].

Dahi satirik şair Sabirin də yaradıcılığının əsas qayəsini təşkil edən ən önəmli mövzulardan biri xürafat və mövhumata qarşı mübarizə məsələsi olmuşdur. Onun "Molla Nəsrəddin" jurnalının 26 may 1902-cı il tarixli nömrəsində "Hop-hop" imzası ilə çap olunmuş "Ol gün ki, sənə xaliq edər lütf bir övlad" satirasında valideynlərə öz satira üslubu ilə "məsləhət" gördüyü və cəhalət, savadsızlıq səbəbindən uşağın doğulduğu gündən etibarən məruz qaldığı xurafat ünsürlərini sadalayır:

Ol gün ki, sənə xaliq edər lütf bir övlad,
Olsun ürəyin şad!
Tə'yin elə cindarı ki, etsin ona imdad,
Ta dəyməyə həmzad;
Sağdan sola, soldan sağa sal boynuna heykəl,
Qoy cinni məəttəl;
Min gunə tilismatə tutub eylə müqəffəl,
Gəzdir onu əl-əl;
Gər dəysə sovuq, sancılanıb olsa da bimar,
Hökm et gələ cindar;
Göstərmə təbibə o ciyərguşəni zinhar,
Qoyma ola murdar;
Aglarsa uşaq dərdinin axtarma dəvasın,
Ancaq söy anasın;
Qorxuzsun o da damdabaca ilə çagasın,
Kəssin də sədasın; [4, s.40].

Quraqlıq vaxtı camaatın Allahdan yağış yağdırmasını diləyərək, müəyyən ayinlər icra etməsi – müsəllaya çıxması, "yerin öküzün buynuzu üstündə durmasına" inam da Sabirin satira dəyənəyinə tuş gələn mövhumatlardan olmuşdur:

Gahi yağışı, gahi müsəllanı danırsan,

Gahi öküzün üstə bu dünyanı danırsan [4, s.130].

Sabir bu mövhumatlara qətiyyən inanmamış və bunlara inanan cahil xalqı da bu məntiqsiz, gülünc "inanclardan" uzaqlaşdırmağa çalışmışdır. Lakin önəmlə vurğulamaq lazımdır ki, bu mövhumatların islam dini ilə uzaqdan, yaxından heç bir əlaqəsi yoxdur. Belə xurafatların çox vaxt riyakar mollalar, axundlar tərəfindən yayıldığını, təbliğ olunduğunu şair "Bakıda bir kənddə mühavirə" satirasında ustalıqla nümayiş etdirirdi. Cəhalətdən qurtulmağı bacarmış kəndlinin örnək göstərdiyi Quran təfsirlərini "maşa ilə yapışıb, əl də belə vurmayıram" – deyə pisləyən axund, ona "molla filankəsin yazdığı asarı" [əsərləri] məsləhət görür. Kəndçinin:

O yazıb: yer öküzün buynuzu üstündə durur,

Biz gərəkdir inanaq ki, kişi boylə buyurur?! [4, s.295].

– kinayəli sualı qarşısında, riyakar axund "öküzə şəkk etməsinə" görə ona lənət yağdırır. Bunlar Sabirin xəyal gücünün məhsulu deyil, zəmanəsinin acı həqiqətlərindən birinin onun satirasında ustalıqla əks olunmuş təzahürü idi.

Millətin gələcəyi olan övladların əksər hallarda ibtidai təhsilinin etibar edildiyi bu tip riyakar mollaların onlara öyrətdiyi ala-yarımçıq yazıb-oxumaq, əsasən, islamın əslindən uzaq mövhumat və xurafat dolu din dərsləri olurdu. Bəli, xurafat və mövhumat viruslarına müsəlman övladları, əksər hallarda, elə "təhsil aldıqları" mollaxanalarda yoluxurdular.

Öz dövrünün təlim-tərbiyə və təhsil problemlərinə həsr etdiyi "Həsbi-hal" adlı geniş silsilə məqalələrində Hüseyn Cavid müəllimlik peşəsi haqqında yazırdı:"Ciddi müəllim pək şərəfli, pək böyük bir adamdır; əgər üsuli-təlimi və öz vəzifəsini bilirsə. Cahil müəllim pək bayağı, pək aşağı bir insandır, əgər həddini aşıb təlim və tərbiyə meydanına atılırsa" [3, s.234]. Məktəblərdə dini fənlər tədris edən müəllimlərin bilikli, savadlı olmalarının, dinlər tarixi və din fəlsəfəsini bilmələrinin zəruriliyinə böyük dramaturq xüsusilə diqqət yönəldirdi: "Tarixi-ədyan, fəlsəfeyi-din bilməyən bir xoca hidayət, şəriət yerinə səfsətə, zəlalət toxumu saçar" [3, s.233].

Hər iki mütəfəkkir açıq ifadə edirdi ki, mövhumat və xurafat bəlasından qurtulmağın yeganə yolu xalqın savadlanması, elmə yiyələnməsi ilə mümkündür. Həm Cavid, həm də Sabir yaradıcılığında böyük hörmət və ehtiramla yad edilmiş islam peyğəmbəri – Məhəmməd peyğəmbərin müsəlmanları elmə, təhsilə çağırdığı bir sıra hədisləri vardır ki: "Elm Çində olsa belə, axtarışında olun. Elm axtarışında olmaq hər bir müsəlmana fərzdir. Allah elm istəyində olanı sevir" [5, s.60]

hədisi onun bu barədəki məşhur hədislərindən biridir. Bu hədisin önəmi və aşılanmasına hər iki şairin yaradıcılığında rast gəlməkdəyik.

Qız uşaqlarının təhsil almasının vacibliyini vurğulayan Cavid buna qarşı çıxanlara üzünü tutaraq yazırdı: "Rəsuli-əkrəm [Məhəmməd peyğəmbər] təlim və tərbiyədə hiç fərq qoymadığı halda təhsili-elmi kişiyə, övrətə müsavi bir surətdə fərz buyurduğu təqdirdə, nasıl olur da ki, böylə bir əmri-müqəddəsi hiç məsabəsində tuturuz" [3, s.243].

Millətin, islamın tərəqqisini əqidədaşları kimi, ilk növbədə xalqın cəhalət buxovlarından qurtulmasında, yeni üsul təhsilə və elmə yiyələnməkdə görən Sabir də islam dinində elmə, təhsilə böyük önəm verilməsini Məhəmməd peyğəmbərin həmin məşhur hədisini sitat gətirilməklə elmə çağırış edirdi:

Elm ilə olur hüsuli-izzət,
Elm ilə olur nüfuzi millət.
Elmə çağırır bütün əvamı,
"Əl-elmü fərizətün" kəlamı [69, s.85].

Yuxarıda qeyd olunanlardan da göründüyü kimi, Azərbaycan ədəbiyyatının hər iki parlaq siması – Mirzə Ələkbər Sabir və Hüseyn Cavid xalqının cəhalət buxovlarından qurtulması, həmçinin müqəddəs islam dininin, dini dəyərlərin dərki yolunda ən böyük maneələrdən biri kimi məhz mövhumat və xurafatı görmüşdür. Bunlardan qurtulmağın yeganə yolunun da, islam peyğəmbərinin dəvət etdiyi kimi elmə, biliyə yiyələnməkdə olduğunu yaradıcılıqlarında bariz şəkildə ifadə etmişlər.

ƏDƏBİYYAT

1. Heydər Əliyev siyasəti: Tolerantlıq [çıxışlar, nitqlər, görüşlər, təbriklər] / Ön söz: M.Qurbanlı. – Bakı: Elm və Təhsil, – 2015. – 504 s.
2. Qasımbəyli, F. Mirzə Ələkbər Sabir yaradıcılığında təsəvvüf fəlsəfəsinin təzahürü // – Bakı: Azərbaycan ədəbiyyatşünaslığı. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əsərləri, – 2020. №1, – s. 76-84.
3. Cavid, H. Əsərləri: [5 cilddə] / H.Cavid, tərt. ed., T.Cavid. – Bakı: Elm, – c. 5. – 2007. – 352 s.
4. Sabir, M.Ə. Hophopnamə: [2 cilddə] / M.Ə.Sabir, tərt. ed., M.Məmmədov. – Bakı: Şərq-Qərb, – c. 1. – 2004. – 480 s.
5. Həzrət Məhəmmədin hikmət xəzinəsindən örnəklər. / tərt. ed. M. Qəmbərli. – Bakı: Şərq-Qərb, – 2012. – 248 s.
6. Sabir, M.Ə. Hophopnamə: [2 cilddə] / M.Ə.Sabir, tərt. ed., M.Məmmədov. – Bakı: Şərq-Qərb, – c. 2. – 2004. – 384 s.

Fariz Gasimbayli

COMMON IDEAS IN THE CREATIVITY OF MIRZA ALAKBAR SABIR AND HUSEYN JAVID

There are a number of common features in the creativity and struggles of M.A.Sabir and H.Javid – the two great patriots and thinkers of Azerbaijani turks. Some parts of these common features are discussed in the article, the struggle against superstition and fable that prevent the development of the people and damage the islamic religion, as well as involving in education under the hadiths of the prophet of Muhammed have been investigated through the samples taken from the activities of the two thinkers.

M Ü N D Ə R İ C A T

Gülbəniz Babaxanlı
Yaşar Qarayev və Cavid romantizmi 3

Əzizağa Nəcəfzadə
Cavid lirikasında söz təkrarı 9

Mehriban Əsədullayeva (Quliyeva)
Hüseyn Cavid poeziya dilinin bədii xüsusiyyətləri 14

Nigar Babaxanova
Cavid yaradıcılığı beynəlxalq elmi-mədəni əlaqələr müstəvisində 19

Nərgiz İsmayılova
Hüseyn Cavidin "İblis" və Joze Saramaqonun "İsanın İncili"
əsərlərində "İblis" surətləri 24

Aysel Rüstəmova
Hüseyn Cavid sənədli filmlərdə əbədi obrazdır 30

Könül Məhərrəmova
AMEA Hüseyn Cavidin Ev Muzeyində Hüseyn Cavid
əsərlərinin nəşri məsələləri 34

Sevinc Dadaşova
Zamanın ədaləti 40

Aygün Amanəliyeva
Hüseyn Cavid dramaturgiyasındakı kəmiyyət məzmunlu vahidlərin
müasir Azərbaycan dilinin və digər türk xalqlarının
lüğət tərkibinin zənginləşməsində rolu 45

Vəfa Hüseynova

Hüseyn Cavid dramaturgiyasında həqiqətpərəstlik, humanizm ideyaları 54

Ellada Hacıyeva

Hüseyn Cavid pyeslərində tərcümə problemləri 57

Aytən Əzimova

Hüseyn Cavid – ədəbiyyat və əbədiyyət günəşi 62

Emil Ağayev

Azərbaycan rəngkarlığı və qrafikasında Hüseyn Cavid obrazı 66

Cəmilə Rzayeva

AMEA Hüseyn Cavidin Ev Muzeyinin fondunda qorunan
eksponatlar və onların xüsusiyyətləri 70

Fəridə Azadova

"Uçurum" faciəsinin mətbuatda nəşr edilməsinin 100 illiyi 74

Lalə Əliyeva

"Cavidşünasliq" toplusu Azərbaycan ədəbi-tənqidi fikir tarixinin
örənilməsində mühüm mənbə kimi 78

Aytən Cəfərli

Hüseyn Cavidin "İblis" əsəri 101 (ədəbi-tarixi xronika) 88

Fariz Qasımbəyli

Mirzə Ələkbər Sabır və Hüseyn Cavid yaradıcılığında ortaq ideyalar 92

Qeydlər

Tiraj: 100
Azərbaycan Milli Elmlər Akademiyası
Hüseyn Cavidin Ev Muzeyi
Ünvan Bakı ş., İstiqlaliyyət 26.
www.huseyncavid.az

“MAST CO” MMC-nin safarişi ilə
“Elm və Təhsil” nəşriyyatının
mətbəəsində hazır elektron nüsxədən çap olunmuşdur.
Ünvan: İçərişəhər, 3-cü Maqomayev küçəsi, 8-ci döngə 4.
Tel.: *(+994 12) 497-16-32*